AZƏRBAYCAN RESPUBLİKASI HESABLAMA PALATASI

# "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2020-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının

# R Ə Y İ

BAKI 2019

**MÜNDƏRİCAT:**

| | | |
|---|---|---|
| | **Ümumi müddəalar** | **4** |
| **I Bölmə.** | **"Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2020-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin ümumi xarakteristikası** | **6** |
| 1.1. | Qanun layihəsinin tərtibi və təqdim edilməsi ilə bağlı qanunvericiliklə müəyyən edilmiş tələblər | 6 |
| 1.2. | Qanun layihəsinin strukturu və bir sıra ümumi göstəricilər | 7 |
| 1.3. | Qanun layihəsinin digər müvafiq sənədlər və qanunvericilik aktlarının tələbləri baxımından qiymətləndirilməsi | 14 |
| **II Bölmə.** | **Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının gəlirləri** | **16** |
| 2.1. | Məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlər | 16 |
| 2.2. | Sair gəlirlər | 25 |
| 2.3. | Müvafiq icra hakimiyyəti orqanının büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait | 26 |
| **III Bölmə.** | **Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının xərcləri** | **31** |
| 3.1. | Əhaliyə ödənişlər üzrə xərclər | 32 |
| 3.2. | AHİK xətti ilə sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə xərclər | 60 |
| 3.3. | Əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri, eləcə də pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərcləri | 61 |
| 3.4. | Müvafiq icra hakimiyyəti orqanının və onun yerli orqanlarının saxlanılması xərcləri | 62 |
| 3.5. | Digər xərclər | 63 |
| **IV Bölmə.** | **Nəticələr və tövsiyələr** | **64** |

# ABREVİATURA və AKRONİMLƏR

| | |
|---|---|
| AHİK | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası |
| “DOST” Agentliyi | Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi |
| FİN | Fərdi identifikasiya nömrəsi |
| PAS | Pensiya Alt Sistemi |
| MDSSH | Məcburi dövlət sosial sığorta haqqı |
| TSERAS | Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Alt Sistemi |
| ÜDM | Ümumi Daxil Məhsul |

## ÜMUMİ MÜDDƏALAR

“Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2020-ci il büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununun layihəsinə (Qanun layihəsi) Azərbaycan Respublikası Hesablama Palatasının Rəyi (Rəy) “Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının Qanununun 6.0.2-ci, 7.0.1-ci və 24.1-ci maddələrinə, “Büdəc sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 27.7.-ci maddəsinə müvafiq olaraq hazırlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin “Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1350-VQ nömrəli Qanununun tətbiqi barədə 2018-ci il 21 dekabr tarixli 424 nömrəli Fərmanı ilə “Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununun adında qeyd edilmiş “müvafiq icra hakimiyyəti orqanı” kimi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu nəzərdə tutulmuşdur. Bunu nəzərə alaraq Rəydə Qanun layihəsinin məqsədləri üçün “Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanı” qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu (Fond) götürülmüş, Rəyin bölmələrinin adında Qanun layihəsində olduğu kimi istifadə edilməklə, mətndə həmin orqan olaraq Fond nəzərdə tutulmuşdur.

Rəydə Qanun layihəsində göstərilmiş məbləğlərin əsaslılığı və nəzərdə tutulan tədbirlərin dövlətin sosial-iqtisadi inkişafının məqsədləri ilə uyğunluğu araşdırılmışdır.

Rəy hazırlanarkən Fondun büdcəsinin 2018-ci il üzrə icra göstəriciləri, 2019-cu ilin proqnoz, gözlənilən icra, həmçinin 2019-cu ilin I yarım ilinin yekunları üzrə icra göstəriciləri ilə müqayisəli təhlillər aparılmış, Rəy “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununun layihəsi ilə birgə təqdim edilmiş məlumat və göstəricilərdən, 2019-cu ilin I yarımili üzrə Fondun statistik məlumatlarından**,** Hesablama Palatasına təqdim edilmiş hesabatlar və məlumatlardan, Hesablama Palatasının əvvəlki illər üzrə müvafiq rəylərindən və analitik məlumat bazasından, Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən təqdim edilmiş məlumatlardan, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarından, Hesablama Palatasının Fondun rayon (şəhər) şöbələrində həyata keçirdiyi nəzarət tədbirlərinin nəticələrindən istifadə edilməklə və müxtəlif təhlillər aparılmaqla hazırlanmışdır. Müqayisəli təhlillər 2018-ci ilin faktiki icra və 2019-cu ilin proqnoz və gözlənilən icra göstəricilərinə nəzərən aparılmış, araşdırmalar həm Fondun gəlirlərinin mənbələr üzrə formalaşması və həm də xərclərinin istiqamətlər üzrə

maliyyələşdirilməsində mövcud risklərin qiymətləndirilməsi əsasında aparılmışdır. Qeyd edilməlidir ki, Fond tərəfindən təqdim edilmiş məlumatlarda 2019-cu ilin dürüstləşdirilmiş proqnoz və gözlənilən icra göstəriciləri eyni məbləğdə olması göstərilmiş, Rəydə də həmin məbləğlərin eyni olması baxımından yanaşılmışdır.

Rəyin hazırlanması zamanı statistik təhlil metodlarından istifadə edilmişdir.

Rəy aşağıdakı struktura malikdir:

"Ümumi müddəalar" bölməsində Rəyin hazırlanmasının hüquqi bazası, istifadə edilən məlumat mənbələri və strukturu barədə məlumat verilmişdir.

"Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2020-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin ümumi xarakteristikası" bölməsində Qanun layihəsinin tərtibi və təqdim edilməsi ilə bağlı qanunvericiliklə müəyyən edilmiş tələblər, Qanun layihəsinin strukturu və bir sıra əsas göstəricilər haqqında məlumat verilmiş, Qanun layihəsinin digər müvafiq sənədlər və qanunvericilik aktlarının tələbləri baxımından qiymətləndirilməsi aparılmışdır.

"Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının gəlirləri" bölməsində Fondun mənbələr üzrə gəlirləri, təsiredici faktorlar haqqında məlumat verilmiş, müvafiq müqayisəli təhlillər aparılmışdır.

"Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının xərcləri" bölməsində Fondun ayrı-ayrı istiqamətlər üzrə xərclərinin məbləğləri, dinamikası, həmin xərclərin məbləğinə təsir edən faktorların ətraflı təhlili verilmişdir.

"Nəticələr və tövsiyələr" adlı bölmədə aparılmış təhlillər və araşdırmalar nəticəsində gəlinmiş nəticələr və həmin nəticələrə müvafiq Hesablama Palatasının tövsiyələri əks etdirilmişdir.

# I BÖLMƏ. “SOSİAL TƏMİNATI VƏ MÜDAFİƏNİ HƏYATA KEÇİRƏN MÜVAFİQ İCRA HAKİMİYYƏTİ ORQANININ 2020-Cİ İL BÜDCƏSİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN LAYİHƏSİNİN ÜMUMİ XARAKTERİSTİKASI

## 1.1. Qanun layihəsinin tərtibi və təqdim edilməsi ilə bağlı qanunvericiliklə müəyyən edilmiş tələblər

Qanun layihəsi “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununun 27-ci maddəsinə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2004-cü il 12 iyul tarixli 93 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət büdcəsinin, büdcədənkənar dövlət fondları büdcələrinin tərtibi, icrası və icrasına nəzarət üzrə əməliyyatların əlaqələndirilməsinə dair Tədbirlər Planı”na əsasən tərtib edilmişdir.

“Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununun **13-cü maddəsinə** əsasən növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanun layihəsi ona əlavə edilmiş digər sənədlərlə birlikdə cari ilin oktyabr ayının 15-dən gec olmayaraq Azərbaycan Respublikasının Konstitusiyasının 109-cu maddəsinin 2-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisinin müzakirəsinə və təsdiqinə təqdim edilir. Qanun layihəsi də qeyd edilən tələblərə müvafiq olaraq Hesablama Palatasına təqdim edilmişdir. Qanun layihəsi ilə birlikdə Fondun gəlirləri və xərcləri üzrə 2019-cu ilin gözlənilən icra, 2020-2023-cü illərin isə proqnoz göstəriciləri də Hesablama Palatasına təqdim edilmişdir. Bununla belə, əvvəlki illərdə olduğu kimi, Qanun layihəsini dəstəkləyici məlumatlar və əsaslandırıcı sənədlər tam şəkildə əlavə edilməmişdir. O cümlədən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2004-cü il 12 iyul tarixli 93 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət büdcəsinin, büdcədənkənar dövlət fondları büdcələrinin tərtibi, icrası və icrasına nəzarət üzrə əməliyyatların əlaqələndirilməsinə dair Tədbirlər Planı”nda nəzərdə tutulmuş, Fond tərəfindən Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və İqtisadiyyat Nazirliyinə təqdim olunan Fondun büdcə təsnifatına uyğun gözlənilən gəlirləri, daxilolma mənbələri (dövlət və qeyri-dövlət, neft və qeyri-neft sektorları, büdcə və qeyri-büdcə təşkilatları, sahibkarlıq fəaliyyəti üzrə, habelə dövlət büdcəsinin vəsaiti hesabına) üzrə gəlirlər barədə məlumatlar, Fondun büdcə təsnifatına uyğun hesablanmış gəlirləri, daxilolma mənbələri (dövlət və qeyri-dövlət, neft və qeyri-neft sektorları, büdcə və qeyri-büdcə təşkilatları, sahibkarlıq fəaliyyəti üzrə, habelə dövlət büdcəsinin vəsaiti hesabına) üzrə gəlirlər barədə məlumatlar, məcburi dövlət sosial sığorta ayırmaları üzrə hüquqi və fiziki şəxslərin borcları (dövlət və qeyri-dövlət, büdcə və qeyri-büdcə təşkilatları, sahibkarlıq fəaliyyəti üzrə) barədə məlumatlar, sosial siyasət üzrə nəzərdə tutulan tədbirlərin (dərəcələrin dəyişdirilməsi) qiymətləndirilməsinə dair məlumatlar və digər müvafiq sənədlər

təqdim edilməmişdir. *Daha geniş təhlillərin aparılması ilə Fondun büdcəsinin layihəsinə daha ətraflı və dolğun rəyin hazırlanması üçün qeyd edilən məlumatların Qanun layihəsi ilə birgə Hesablama Palatasına təqdim edilməsi məqsədəmüvafiq hesab olunur.*

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununun **12.1.10-cu maddəsinə** əsasən qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq olunması nəzərdə tutulduğu hallarda növbəti büdcə ili üzrə büdcədənkənar dövlət fondlarının büdcələri haqqında qanun layihələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilir və təqdimetmə üzrə sonuncu müddət "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununun 13-cü maddəsi ilə oktyabr ayının 15-i müəyyən edilmişdir. Qanun layihəsinin yekun variantının da Hesablama Palatasına təqdim edilməsi qanunvericiliklə müəyyən edilmiş müddətlərdə həyata keçirilmişdir.

### 1.2. Qanun layihəsinin strukturu və bir sıra ümumi göstəricilər

Əvvəlki illərdə olduğu kimi, Qanun layihəsi 6 maddədən ibarət olmaqla tərtib edilmiş, Qanun layihəsinin ***1-ci maddəsində*** Fondun 2020-ci il üçün gəlirlərinin və xərclərinin 4825,5 mln. manat məbləğində təsdiq edildiyi qeyd olunmuş, ***2-ci maddəsində*** mənbələr üzrə gəlirləri əks etdirilmiş, Fondun gəlirlərinin məcburi dövlət sosial sığorta haqlarından daxilolmalar, sair gəlirlər və müvafiq icra hakimiyyəti orqanının büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitdən ibarət olduğu göstərilmişdir.

Qeyd edilməlidir ki, Fondun məcburi dövlət sosial sığorta haqlarından gəlirlərinə dair normativ sənədlərdə son dövrlərdə bir sıra dəyişikliklər olmuşdur. Belə ki, "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilmiş, məcburi dövlət sosial sığorta haqlarının hesablanmasına və ödənilməsinə nəzarət sığortaçı qismində Fondun fəaliyyət dairəsindən çıxarılmış, Fondun məcburi dövlət sosial sığortanın məqsədləri üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təqdim etdiyi məlumatlar əsasında sığortaedənlərin və sığortaolunanların uçotunu aparmaq, məcburi dövlət sosial sığortası üzrə daxilolmaların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə aylıq, rüblük və illik üzləşdirilməsini aparmaq səlahiyyətləri müəyyən edilmiş, məcburi dövlət sosial sığorta haqlarının hesablanmasına və ödənilməsinə nəzarət, məcburi dövlət sosial sığorta haqları üzrə hesabatın vaxtında təqdim edilməməsinə, hesablanmış məcburi dövlət sosial sığorta haqlarının azaldılmasına və ya yayındırılmasına görə maliyyə sanksiyalarının tətbiqi, məcburi dövlət sosial sığorta haqqı üzrə yaranmış

borcların alınması, məcburi dövlət sosial sığorta haqqının vaxtında ödənilməməsinə görə faizlərin hesablanması və artıq ödənilmiş məcburi dövlət sosial sığorta haqqının qaytarılması Azərbaycan Respublikasının Vergi Məcəlləsində vergilər üzrə müəyyən olunmuş qaydada həyata keçirilməsi qeyd olunmuş, sığorta normativlərində dəyişikliklər edilmişdir.

Həmçinin, yuxarıda qeyd edilən dəyişikliklə məcburi dövlət sosial sığorta haqlarının hesablanmasına və ödənilməsinə nəzarət, məcburi dövlət sosial sığorta haqları üzrə hesabatın vaxtında təqdim edilməməsinə, hesablanmış məcburi dövlət sosial sığorta haqlarının azaldılmasına və ya yayındırılmasına görə maliyyə sanksiyalarının tətbiqi, məcburi dövlət sosial sığorta haqları üzrə yaranmış borcların alınması və vaxtında ödənilməməsinə görə faizlərin hesablanması və artıq ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının qaytarılması Azərbaycan Respublikasının Vergilər Nazirliyinin səlahiyyətlərinə aid edilmiş, 2018-ci ilin IV rübünün müvafiq hesabatları sığortaedənlər tərəfindən Vergilər Nazirliyinə təqdim edilmişdir.

***ARAYIŞ***

*Əvvəlki illərdə Hesablama Palatasının Fondun yerli orqanlarında apardığı nəzarət tədbirləri əmək haqqı fondu, təsərrüfat subyektlərının fəaliyyət növü və yeri haqqında Fondun və vergi orqanlarının göstəricilərində fərqlərin olduğunu göstərmiş, əmək haqqı fondu üzrə vergi orqanlarının hesabatlarında məlumatların Fondun yerli şöbələrinin müvafiq hesabatlarından çox olması halları müəyyən edilmişdir.*

Əvvəlki illərdə olduğu kimi, Qanun layihəsində gəlir mənbəyi kimi əks etdirilən “Sair gəlirlər” üzrə yalnız sanatoriya-kurort yollayışlarının qismən dəyəri üzrə daxilolmalar əks etdirilmişdir.

*Hesablama Palatasının əvvəlki dövrlər üzrə müvafiq rəylərində qeyd olunduğu kimi, gəlir mənbələri üzrə şəffaflığın təmin edilməsi və daha ətraflı araşdırmaların aparılması məqsədilə Qanun layihəsinə əlavə edilən dəstəkləyici sənədlərdə bütün mənbələr üzrə gəlirlərin tam əks etdirilməsi və tərkibinin tam açıqlanması, eləcə də gəlirlər üzrə yığım fəaliyyətinin və borcların aradan qaldırılması istiqamətində görülmüş tədbirlərin nəticəliliyinin qiymətləndirilməsi üçün Fondun cari daxilolmalardan və əvvəlki dövrlərdə yaranmış borclar üzrə daxilolmalardan formalaşan gəlirlər barədə məlumatların daxil edilməsi məqsədəmüvafiq hesab olunur.*

Qanun layihəsinin ***3-cü maddəsində*** Fondun xərclərinin istiqamətləri əks etdirilmişdir. Qeyd edilməlidir ki, Fond müstəqil gəlirlərə və müəyyənləşdirilmiş xərclərə malik olan maliyyə

qurumu olmalıdır. Bu baxımdan Fondun vəsaitlərinin yalnız onun öhdəliklərinin maliyyələşdirilməsinə yönəldilməsi vacib məsələdir. Fondun xərclərinin 95%-ə qədərini təşkil edən və dövlət büdcəsinin və Fondun büdcəsinin öhdəlikləri üzrə formalaşan pensiyaların ödənilməsi xərcləri Qanun layihəsində ümumilikdə verilmiş, Fondun və dövlət büdcəsinin öhdəlikləri üzrə xərclər fərqləndirilməmişdir. *Xərclərin müvafiq öhdəliklərə uyğun olmaqla həyata keçirilməsi və xərclərin icrasına nəzarətin təmin edilməsi baxımından Qanun layihəsində pensiyaların ödənilməsi xərclərinin Fondun büdcəsinin öhdəlikləri üzrə xərclər və dövlət büdcəsinin öhdəlikləri üzrə xərclər qismində təsnifləşdirilməsi məqsədəmüvafiq hesab edilir.*

Cari ilin 1 yanvar tarixindən pensiyaların avtomatlaşdırılmış təyinatının genişləndirilməsi istiqamətində müəyyən addımlar atılmışdır. Belə ki, əvvəlki dövrlərdə avtomatlaşdırılmış təyinata maneə yaradan əsas amil kimi vətəndaşların 01.01.2006-cı il tarixədək formalaşmış iş (sosial sığorta) stajları üzrə elektron məlumat bazasının olmaması çıxış edirdi ki, bu da həmin stajın elektron qaydada hesablanmasına imkan vermirdi. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa son dövrlərdə edilmiş dəyişikliklərlə sığorta stajının hesablanması üçün yeni mexanizm tətbiq edilməyə başlamış, pensiyanın minimum məbləği müəyyənləşdirilmiş, pensiya xərcləri üzrə dövlət büdcəsinin və Fondun öhdəliklərinin müəyyənləşdirilməsi bazaları müəyyən edilmişdir.

Qanun layihəsində cari il üzrə müvafiq qanundan fərqli olaraq Fondun xərclərinin pensiya və müavinətlərin əhaliyə çatdırılması xərcləri və saxlanılma xərcləri hissəsində dəyişiklik nəzərdə tutulmuşdur. Belə ki, əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə Nazirliyin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin ("DOST" Agentliyi) saxlanılması xərcləri 2019-cu il üzrə müvafiq qanunda Fondun aparatının və onun yerli orqanlarının saxlanılması xərcləri ilə bir yerdə nəzərdə tutulduğu halda Qanun layihəsində həmin xərclər çatdırılma xərcləri ilə birgə "Əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri, eləcə də pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərcləri" adı altında verilmiş, Fondun aparatının və onun yerli orqanlarının saxlanılması xərcləri "Müvafiq icra hakimiyyəti orqanının aparatının və onun yerli orqanlarının saxlanılması xərcləri" adı altında ayrıca göstərilmişdir. Göründüyü kimi, Qanun layihəsində "DOST" Agentliyinin fəaliyyətinin müştərək maliyyələşdirilməsi nəzərdə tutulmuşdur ki, bu da həm "DOST" Agentliyinin Fond qarşısında hesabatlılıq məsələsini, eləcə də həmin xərclərin icrası üzrə Fondun məsuliyyəti məsələlərini aktual edir.

Qeyd edilməlidir ki, "DOST" Agentliyi publik hüquqi şəxsdir və yalnız Fondun deyil, Nazirliyin fəaliyyət dairəsinə aid olan bir çox funksiyaların bir məkanda cəmləşdirilərək vahid mərkəzdə həyata keçirilməsi üçün yaradılmışdır. *Bu baxımdan "DOST" Agentliyinin müştərək maliyyələşdirilməsi üzrə müvafiq normativ-hüquqi bazanın və tənzimləyici prosedurların işlənib hazırlanması məqsədəmüvafiq hesab edilir.*

Qanun layihəsində məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinət xərcləri və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası xətti ilə sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə xərclərin tərkibi daha detallı göstərilməklə əks etdirilmişdir.

"Qalıqlardan istifadə" adlı ***4-cü maddədə*** Fondun aparatının və yerli orqanlarının hesablarında ilin sonuna qalan vəsaitin növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilməsi göstərilmiş, qalıqlardan istifadəyə dair maddə əvvəlki illərdə əks etdirildiyi kimi verilmişdir.

***ARAYIŞ***

*Fond tərəfindən Hesablama Palatasına təqdim edilmiş hesabatlara əsasən Fondun xəzinə hesabının qalığı 2013-cü ilin əvvəlinə 21,4 mln. manat, 2014-cü ilin əvvəlinə 103,1 mln. manat, 2015-ci ilin əvvəlinə 130,5 mln. manat, 2016-cı ilin əvvəlinə 108,5 mln. manat, 2017-ci ilin əvvəlinə 93,2 mln. manat, 2018-ci ilin əvvəlinə 27,4 mln. manat, sonuna isə 21,9 mln. manat təşkil etmişdir. Fondun illər üzrə büdcəsinin icrasına dair hesabatların təhlili göstərmişdir ki, hər ilin əvvəlinə qeyd edilən qalıq məbləği həmin il ərzində Fondun xərclərinin onun gəlirlərindən artıq olan hissəsi qədər olmuş, başqa sözlə, həmin qalıqlar faktiki olaraq Fondun gəlirləri qismində nəzərə alınmış və onun xərclərinin ödənilməsinə yönəldilmişdir.*

*Hesablama Palatası əvvəlki illərdə müşahidə edilən dinamika əsasında qalığın yaranmasına şərait yaradan səbəblərin müəyyənləşdirilməsini, eyni zamanda Qanun layihəsində Fondun aparatının və yerli orqanlarının hesablarında ilin sonuna qalan vəsaitin Fondun büdcəsinin təsdiq edilməsi ilə bağlı Qanunda göstərilmiş göstəricilərdən çox olmamaq şərti ilə xərclərinin maliyyələşdirilməsinə yönəldilməsinin müəyyən edilməsini məqsədəmüvafiq hesab edir.*

Qanun layihəsinin ***5-ci maddəsində*** büdcə ili ərzində dövlət büdcəsindən maliyyələşən təşkilatlara nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə vəsaitlər müvafiq icra hakimiyyəti orqanının yerli orqanlarının xəzinə hesablarına tam məbləğdə daxil olmadıqda, sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının

büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin məbləği nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı fərq qədər artırılması, artıq daxil olduqda isə nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı fərq qədər azaldılması göstərilmişdir. Qeyd edilməlidir ki, 2018-ci ilin 1 yanvar tarixindən pensiyaların ödənilməsi xərcləri üzrə dövlət büdcəsinin və Fondun müvafiq öhdəliklərinin müəyyən edilməsi istiqamətində işlərə başlanılmışdır ki, bu da "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası"nın, eləcə də "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğundur. Bununla belə, həmin öhdəliklərin müəyyən edilməsi üçün müvafiq elektron bazanın, xüsusilə də 01.01.2006-cı il tarixədək formalaşmış iş stajları üzrə tam və ətraflı elektron məlumat bazasının olmaması qeyd edilən öhdəliklərin dəqiq müəyyən edilməsi üçün hər bir pensiya işinə individual yanaşmanın tətbiq olunmasını zəruri edir. Bu isə daha çox vaxt və resursların ayrılmasını tələb etməklə praktiki cəhətdən böyük çətinliklər yaradır. *Pensiya qanunvericiliyinə edilmiş son dəyişikliklər, xüsusilə də minimum pensiya məbləğinin 01.03.2019-cu il tarixdən 160,0 manata çatdırılması, 01.10.2019-cu il tarixdən isə artırılaraq 200,0 manata çatdırılmasının nəzərdə tutulması da pensiya xərcləri üzrə dövlət öhdəliklərinin artımına şərait yaratmaqla pensiya xərcləri üzrə Fondun və dövlət büdcəsinin öhdəliklərinin bir daha dəqiqləşdirilməsinə zərurət yaradır.*

Qanun layihəsinin ***6-cı maddəsində*** isə qanunun 2020-ci ilin 1 yanvar tarixindən qüvvəyə minəcəyi göstərilmişdir.

Rəyin hazırlanmasında müxtəlif mənbələrdən Hesablama Palatasına daxil olmuş aşağıdakı ümumi sosial-iqtisadi göstəricilərdən istifadə edilmişdir (Cədvəl 1).

**Cədvəl 1. 2018-2020-ci illər üzrə bəzi sosial-iqtisadi göstəricilər**

| | | 2018 (faktiki) | 2019 (gözlənilən) | 2020 (layihə) |
|---|---|---|---|---|
| **Ümumi Daxili Məhsul** | milyon manat | 79797,3 | 79126,9 | 83321,5 |
| **Orta aylıq nominal əmək haqqı** | manat | 544,6 | 620,4 | 716,7 |
| **Ümumi məşğulluq (kənd, meşə və balıqçılıq təsərrüfatları istisna olmaqla)** | min nəfər | 3010 | 3161 | 3217 |
| **1 pensiyaçı üzrə orta aylıq pensiya məbləği** | manat | 208,0 | 250,0 | 293,0 |
| **Əmək pensiyasının minimum məbləği** | manat | | | |
| **01.07.2017-ci il tarixdən** | | 110,00 | | |
| **01.01.2018-ci il tarixdən** | | 116,27 | | |
| **01.01.2019-cu il tarixdən** | | 119,76 | | |
| **01.03.2019-cu il tarixdən** | | 160,00 | | |
| **01.10.2019-cu il tarixdən** | | 200,00 | | |
| **Əmək pensiyaçıları üçün yaşayış minimumu** | manat | 145,0 | 149,0 | 157,0 |
| **İstehlak qiymətləri indeksi** | % | 2,3 | 3,2 | 4,6 |

2020-ci ilin dövlət büdcəsinin layihəsi ilə bağlı təqdim edilmiş müvafiq proqnoz göstəricilərinə əsasən respublika üzrə Ümumi Daxili Məhsulun (ÜDM) həcminin 83321,5 mln. manat olacağı nəzərdə tutulmuşdur ki, bu da 2018-ci ilin faktiki göstəricisinə nisbətən 3524,2 mln. manat və ya 4,4%, cari ilin proqnoz göstəricisinə nisbətən isə 4194,6 mln. manat və ya 5,0% artım deməkdir.

Gələn il orta aylıq əmək haqqının məbləğinin 716,7 manat, əmək pensiyaçılarının yaşayış minimumunun isə 157,0 manat olacağı proqnozlaşdırılmışdır ki, bu da 2018-ci ilin müvafiq faktiki göstəricilərindən, müvafiq olaraq, 172,1 manat (31,6%) və 12,0 manat (8,3%), 2019-cu ilin proqnoz göstəricilərindən isə, müvafiq olaraq, 96,3 manat (15,5%) və 8,0 manat (5,4%) çoxdur.

Müvafiq məlumatlara əsasən orta aylıq pensiya məbləğinin 2020-ci ildə 293,0 manat olacağı nəzərdə tutulmuşdur ki, bu da 2018-ci il üzrə müvafiq göstəricidən 85,0 manat və ya 40,9%, 2019-cu ilin müvafiq proqnoz göstəricisindən isə 43,0 manat və ya 17,2% çoxdur. Orta aylıq pensiya məbləğinin və əmək pensiyaçılarının yaşayış minimumunun məbləğinin və onlar arasında nisbətə dair dinamika Şəkil 1-də verilmişdir.

**Şəkil 1. Orta aylıq pensiya məbləğinin və əmək pensiyaçılarının yaşayış minimumunun məbləğinin son dövrlər üzrə dinamikası**




01.01.2006-cı il tarixdən "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq olunmasından sonra yaşayış minimumunun ilk dəfə təsdiq olunduğu 2007-ci ildə orta aylıq pensiya məbləği pensiyaçıların yaşayış minimumunun 126,6%-i qədər, pensiya qanunvericiliyinə ciddi dəyişikliklərin edildiyi 2010-cu ildə 166,0%-i qədər, 2013-cü

**HAŞİYƏ**

*Ölkəmizdə orta aylıq pensiya məbləği Alıcılıq Qabiliyyəti Pariteti (PPP) baxımından Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələr arasında üçüncü yerdə qərarlaşmışdır ki, buna da şəraiti minimum pensiya məbləğinin və ümumilikdə pensiyaların orta aylıq məbləğinin artımı səbəb olmuşdur. İqtisadi İslahatların Təhlili və Kommunikasiyalar Mərkəzinin araşdırmalarına əsasən minimum pensiya məbləğinin qaldırılması nəticəsində ölkəmiz 476 beynəlxalq dollar məbləği ilə MDB ölkələri arasında 1-ci yeri tutacaqdır ki, həmin göstərici də Ermənistan üzrə müvafiq göstəricini 3,7 dəfə, Gürcüstan üzrə göstəricini 2 dəfə, Rusiya üzrə göstəricini 1,3 dəfə, Qazaxıstan üzrə göstəricini isə 1,1 dəfə üstələyəcəkdir.*

*Məlumat üçün bildirək ki, beynəlxalq dollar – dünyanın müxtəlif ölkələrinin makroiqtisadi göstəricilərinin müqayisəsi zamanı tətbiq edilən şərti hesablaşma-pul vahididir.*

ildə 181,4%-i qədər, 2016-cı ildə isə 167,8%-i qədər olmuş, həmin nisbətin cari ildə 167,8%, gələn il isə 186,6%-i qədər olması proqnozlaşdırılmışdır

Beləliklə, 2010-cu ildə edilmiş dəyişikliklərin özünü göstərdiyi 2013-cü ildə yaşayış minimumunun daha aşağı səviyyəli artımı şəraitində orta aylıq pensiya məbləğinin həmin minimumu üstələməsi faizi daha çox olmuş, sonrakı dövrlərdə orta aylıq pensiya məbləğində daha ciddi artımın olmaması səbəbindən nisbət aşağı düşmüş, gələn ildə isə son dövrlərdə qanunvericiliyə yenidən edilmiş ciddi dəyişikliklər səbəbindən nisbətin 186,6%-ə qalxaraq 2013-cü ildəki 181,4% göstəricini ötməsi nəzərdə tutulmuşdur. Bu isə qeyd edilən dəyişikliklər səbəbindən orta aylıq pensiya məbləğinin artım tempinin pensiyaçıların yaşayış minimumunun artım tempini üstələməsi anlamına gəlir.

Cari ilin sonuna respublikada istehlak qiymətləri indeksinin 3,2%, gələn il isə 4,6% səviyyəsində olacağı proqnozlaşdırılmışdır. Göründüyü kimi, orta aylıq pensiya məbləğinin proqnozlaşdırılan artım səviyyəsi istehlak qiymətləri indeksinin səviyyəsini dəfələrlə üstələməsi nəzərdə tutulmuşdur. Həmçinin, həm cari ilin sonuna, həm də gələn il üçün pensiyanın orta aylıq məbləğinin əmək pensiyaçılarının yaşayış minimumunun məbləğini keçməsi də proqnozlaşdırılmışdır ki, qeyd edilənlər də pensiyaçıların sosial müdafiəsinin təmin edilməsi baxımından əhəmiyyətli addımdır.

## 1.3. Qanun layihəsinin digər müvafiq sənədlər və qanunvericilik aktlarının tələbləri baxımından qiymətləndirilməsi

***“Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanunun layihəsi*** ilə birgə təqdim edilmiş məlumatlara əsasən 2020-ci ildə büdcə təşkilatları üzrə Fonda ayırmaların məbləğinin büdcə xərclərinin iqtisadi təsnifatının “Əmək haqqına üstəlik” (212100) köməkçi bölməsi üzrə 1187,6 mln. manat olacağı nəzərdə tutulmuşdur. Həmin vəsait Qanun layihəsində büdcədən maliyyələşən təşkilatlardan büdcə vəsaitləri üzrə daxilolmaların 1238,7 mln. manat məbləğindən 51,1 mln. manat azdır. Cari ildə olduğu kimi, fərq məbləği dövlət büdcəsi xərclərinin iqtisadi təsnifatının digər bölmələrindən bəzi qurumlara ayrılan vəsaitlər hesabına həyata keçirilən fəaliyyətlər zamanı əməyin ödənilməsinə də vəsaitin ayrılması ilə əlaqələndirilə bilər.

Qanun layihəsində dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün Fondun büdcəsinin balanslaşdırılması məqsədilə 1426,9 mln. manat vəsait nəzərdə tutulmuşdur ki, bu da Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi zərfi ilə birgə təqdim edilmiş məlumatlarda funksional təsnifatın “Sosial müdafiə və sosial təminat” bölməsinin “Sosial müdafiə” köməkçi bölməsində iqtisadi təsnifatın “Digər müavinət və transferlər” maddəsindən Fonda dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsaitin məbləğinə bərabərdir.

Məlumat üçün bildirək ki, ***“Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun*** 11-1- maddəsində (“Büdcə qaydası”) icmal büdcəsinin yuxarı həddinin hesablanılması məqsədilə göstərilən göstəricilərindən biri kimi sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) büdcəsinə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait qeyd edilmişdir. Qeyd olunanları nəzərə alaraq, Hesablama Palatası “Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2020-ci il büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununun layihəsində gəlirlərin tərkibində dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin həmçinin müvafiq icra hakimiyyəti orqanının büdcəsinin balanslaşdırılması məqsədi daşıdığının qeyd olunmasını “Büdcə sistemi haqqında“ Qanunun tələblərinə uyğun olmadığı qənaətindədir.

2019-cu ildə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 4 noyabr tarixli 827 nömrəli Sərəncamı ilə təsdiq edilmiş ***"2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası"nın*** (bundan sonra - Konsepsiya) tələblərinin yerinə yetirilməsi istiqamətində müəyyən addımlar atılmış, sığorta haqqı normativinin strukturunun təkmilləşdirilməsi, məcburi dövlət sosial sığorta haqqını minimum əməkhaqqına nəzərən ödəyənlərin (mülkiyyətində kənd təsərrüfatına yararlı torpaqları istifadə edən şəxslər, fərdi sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan şəxslər) sığorta normativlərinin təkmilləşdirilməsi məqsədilə müvafiq qanunvericiliyə dəyişikliklər edilmişdir. Həmin dəyişikliklərə müvafiq olaraq neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən sığortaedənlərdə sığorta yükünün bir hissəsinin sığortaolunanların üzərinə qoyulması, əmək pensiyasının baza hissəsinin restrukturizasiyası və minimum pensiya məbləği göstəricisinin tətbiqi, erkən pensiyaya çıxma hallarının, xüsusilə də əlilliyə görə pensiyaya çıxma hallarının məhdudlaşdırılması, pensiya təminatında dövlət öhdəlikləri ilə sığorta - pensiya sisteminin öhdəliklərinin maliyyə mənbəyinin fərqləndirilməsi, güzəştli şərtlərlə pensiyaya çıxmaq hüququ olanlara tələb olunan minimum sığorta stajı illərinin sığorta prinsiplərinə uyğunlaşdırılması, kişilər və qadınlar üçün pensiya yaşının demoqrafik göstəricilərə uyğunlaşdırılması istiqamətində qanunvericiliyə dəyişikliklər edilərək müvafiq tədbirlər görülmüşdür.

***ARAYIŞ***

*Son dövrlərdə pensiya qanunvericiliyinə edilmiş bir sıra dəyişikliklərdə Konsepsiyanın tələblərinə uyğunsuzluqlar olmuş, Konsepsiyada sığorta prinsiplərinə əsaslanmayan xərclərin minimum səviyyəyə endirilməklə maliyyələşdirilməsi mənbələrinin optimallaşdırılması, pensiya təyinatı şərtlərinin hər bir şəxs üzrə ödənilən sosial sığorta haqqının məbləğinə uyğunlaşdırılması tələbləri qoyulsa da, vətəndaşlara müəyyən şərtlər daxilində 01.01.2006-cı il tarixədək sosial sığorta stajının avtomatik hesablanması, minimum pensiya məbləğinin artırılması sosial sığorta prinsiplərinə əsaslanmayan xərclərin də artımına şərait yaratmış, pensiyaya daha gec çıxmağı stimullaşdıran, pensiyaya daha tez çıxmağa marağı azaldan mexanizmlərin tətbiqi istiqamətində dəyişiklik müşahidə edilməmişdir.*

Qeyd edilməlidir ki, Konsepsiyada sosial sığorta və pensiya sahələri üzrə 2014-2015-ci illərdə həyata keçirilməsi nəzərdə tutulan bir çox bəndlərin icrasında nəzərəçarpan ləngimələr müşahidə edilmişdir.

## II BÖLMƏ. SOSIAL TƏMINATI VƏ MÜDAFIƏNI HƏYATA KEÇIRƏN MÜVAFIQ ICRA HAKIMIYYƏTI ORQANININ GƏLİRLƏRİ

2020-ci ildə Fondun gəlirlərinin 4825,5 mln. manat həcmində olacağı proqnozlaşdırılmışdır ki, bu da 2018-ci ilin müvafiq icra göstəricisindən 1073,3 mln. manat və ya 28,6%, 2019-cu ilin müvafiq dürüstləşmiş proqnoz göstəricisindən 697,4 mln. manat və ya 16,9% çoxdur (Cədvəl 2).

**Cədvəl 2. 2018-2020-ci illərdə Fondun gəlirlərinin mənbələr üzrə strukturu, min manatla**

| Göstəricilər | | 2018 (icra) | 2019 | | 2020 (layihə) | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | dür. proqnoz/ gözlənilən icra | xüsusi çəki,% | məbləğ | xüsusi çəki,% | artım/azalma | | | |
| | | | | | | | 2018-ci il ilə | | 2019-cu il ilə | |
| | | | | | | | +;- | % | +;- | % |
| GƏLİRLƏR, cəmi | | 3752222,89 | 4128104,00 | 100,0 | 4825508,80 | 100,0 | 1073285,91 | 128,6 | 697404,80 | 116,9 |
| 1 | Məcburi dövlət sosial sığorta haqları | 2327112,96 | 2769371,59 | 67,1 | 3392594,77 | 70,3 | 1065481,81 | 145,8 | 623223,18 | 122,5 |
| 1.1. | Büdcədən maliyyələşən təşkilatlar üzrə | | 1094545,45 | 26,5 | 1407594,77 | 29,2 | | | 313049,32 | 128,6 |
| 1.1.1 | Büdcədən maliyyələşən təşkilatlardan daxilolmalar | | 963200,00 | 23,3 | 1238683,40 | 25,7 | | | 275483,40 | 128,6 |
| 1.1.2 | Büdcədən maliyyələşən təşkilatlarda işləyənlərdən daxilolmalar | | 131345,45 | 3,2 | 168911,37 | 3,5 | | | 37565,92 | 128,6 |
| 1.2 | Digər sığortaedənlər | | 1674826,14 | 40,6 | 1985000,00 | 41,1 | | | 310173,86 | 118,5 |
| 1.2.1 | sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə | | 69000,00 | 1,7 | 80000,00 | 1,7 | | | 11000,00 | 115,9 |
| 2 | Sair gəlirlər | 87809,93 | 6000,00 | 0,1 | 6000,00 | 0,1 | -81809,93 | 6,8 | | 100,0 |
| | sanatoriya-kurort yollayışlarının qismən dəyəri üzrə daxilolmalar | | 2000,00 | 0,05 | 2000,00 | 0,04 | 2000,00 | | | 100,0 |
| 3 | Müvafiq icra hakimiyyəti orqanının büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait | 1337300,00 | 1352732,41 | 32,8 | 1426914,03 | 29,6 | 89614,03 | 106,7 | 74181,62 | 105,5 |

Hər il olduğu kimi, 2020-ci ildə də Fondun gəlirlərinin məcburi dövlət sosial sığorta haqlarından, sair gəlirlərdən və Fondun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitlərdən ibarət olacağı nəzərdə tutulmuşdur.

### 2.1. Məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlər

“Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1360-VQD nömrəli Qanununa əsasən 01.01.2019-cu il tarixdən məcburi dövlət sosial sığorta haqqının məbləği və normativlərində bir sıra dəyişikliklər edilmiş, neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən sığortaedənlərdə işləyən sığortaolunanların muzdlu işdən aylıq gəlirlərindən məcburi dövlət sosial sığorta haqqı 2019-cu il yanvarın 1-dən 7 il

müddətində sığorta haqqına cəlb edilən 200 manatadək aylıq gəlir üzrə sığortaolunanın gəlirlərindən 3%, sığortaedənin vəsaiti hesabına 22%, 200 manatdan çox aylıq gəlir üzrə sığortaolunanın gəlirlərindən 200 manatadək olan hissənin 3%-i (6,0 manat) və 200 manatdan çox olan hissənin 10 %-i, sığortaedənin vəsaiti hesabına 200 manatadək olan hissənin 22%-i (44,0 manat) və 200 manatdan çox olan hissənin 15% dərəcəsi ilə tutulmağa başlanılmışdır.

Bundan başqa, həmin dəyişikliklə muzdlu işə aid olmayan fəaliyyətdən gəlir əldə edən sığortaolunanlar üzrə məcburi dövlət sosial sığorta haqqının sahibkarlıq fəaliyyəti üzrə minimum aylıq əmək haqqının tikinti və ticarət sahələrində 50%-i, digər sahələrdə 25%-i miqdarında (2020-ci il yanvarın 1-dən), mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin (digər sahələrdə işləyib məcburi dövlət sosial sığorta haqqı ödəyənlər istisna olmaqla) və ailə kəndli təsərrüfatlarının əmək qabiliyyətli (I və II qrup əlillər, həmçinin sağlamlıq imkanları məhdud uşaqlar istisna olmaqla, 15 yaşından "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsi ilə müəyyən edilmiş yaş həddinədək olan şəxslər) ailə üzvlərinin hər biri üçün (alınan əmlak və torpaq payı hesabına şəxsi yardımçı və digər təsərrüfatlar daxil olmaqla) minimum aylıq əmək haqqının 6%-i miqdarında ödənilməsi nəzərdə tutulmuşdur. Qeyd edilənlər Konsepsiyada nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqqı normativinin strukturunun təkmilləşdirilməsi, məcburi dövlət sosial sığorta haqqını minimum əmək haqqına nəzərən ödəyənlərin (mülkiyyətində kənd təsərrüfatına yararlı torpaqları istifadə edən şəxslər, fərdi sahibkarlıq və əmək fəaliyyəti ilə məşğul olan şəxslər) sığorta normativlərinin təkmilləşdirilməsi kimi məsələlərin həll edilməsi istiqamətində atılmış addımlar kimi qiymətləndirilə bilər.

Qanun layihəsinə əsasən 2020-ci ildə məcburi dövlət sosial sığorta haqları (MDSSH) üzrə Fondun gəlirlərinin 70,3%-i olmaqla 3392,6 mln. manat vəsait proqnozlaşdırılmışdır ki, bu da 2018-ci ilin müvafiq icra göstəricisindən 1065,5 mln. manat və ya 45,8%, 2019-cu ilin müvafiq göstəricisindən isə 623,2 mln manat və ya 22,5% çoxdur. Göründüyü kimi, MDSSH üzrə cari ilə nisbətən nəzərəçarpacaq artım proqnozlaşdırılmış, bu mənbə üzrə artım səviyyəsinin Fondun ümumi gəlirlərinin, eləcə də ölkə üzrə orta aylıq əmək haqqının 15,5%-lik proqnozlaşdırılan artım səviyyəsini 7 faiz bəndi üstələməsi nəzərdə tutulmuşdur ki, bu da əmək haqqına bağlı olan MDSSH üzrə ciddi artımdır və belə artım məcburi dövlət sosial sığortasına cəlbetmə bazasının (sığortaedənlərin sayının və cəlb olunan əmək haqqı fondunun) genişlənməsi ilə əlaqələndirilə bilər.

Bu mənbə üzrə gəlirlərin nəzərəçarpacaq artımı xüsusi çəki göstəricisində də özünü göstərir. Belə ki, MDSSH üzrə gəlirlərin Fondun gəlirlərində xüsusi çəkisi 2018-ci ildə 62,0%

təşkil etmiş, cari ildə isə 67,1% olacağı gözlənilir ki, bu da gələn il həmin xüsusi çəki göstəricisinin əvvəlki dövrlərdəki xüsusi çəki göstəricilərindən, müvafiq olaraq, 8,3 faiz bəndi və 3,2 faiz bəndi çox olması deməkdir.

***ARAYIŞ***

*Məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalarda nəzərəçarpacaq artım sosial sığorta haqqında qanunvericilikdə inzibatçılıqla bağlı edilmiş dəyişikliklərlə də əlaqələndirilə bilər. Belə ki, həmin dəyişikliklərlə MDSSH-ları üzrə idraəetmə və inzibatçılıq funksiyalarının 01.01.2019-cu il tarixdən Azərbaycan Respublikasının Vergilər Nazirliyinə təqdim edilməsi Hesablama Palatasının Fondun yerli orqanlarında apardığı nəzarət tədbirləri zamanı əmək haqqı fondu, təsərrüfat subyektlərinin fəaliyyət növü və yeri haqqında Fondun və müvafiq vergi orqanlarının göstəricilərində aşkar edilən fərq məbləğlərinin də aradan qalxmasına və bu sahədə nöqsanların aradan qaldırılmasına təsir etməyə bilməz.*

Həmçinin, nəzərə alınmalıdır ki, cari il üzrə MDSSH-dan daxilolmaların təsdiq olunmuş ilkin proqnoz göstəricisi il ərzində dürüstləşdirilmiş, dürüstləşdirilmiş proqnoz göstəricisi ilkin proqnoz göstəricisindən 14,5% çox olmuşdur.

Qeyd edilməlidir ki, əmək haqqı fondu üzrə vergi orqanlarının və Fondun məlumatlarının müqayisəsinin, eləcə də Fondun yerli orqanlarında aparılmış nəzarət tədbirlərinin nəticələrinə əsaslanmaqla MDSSH üzrə Fondun əlavə gəlir potensialının mövcudluğu əvvəlki illər üzrə müvafiq qanun layihələrinə Hesablama Palatasının rəylərində də dəfələrlə vurğulanmışdır. Həmçinin, yuxarıda qeyd olunan dəyişikliklərin 2019-cu ildə MDSSH üzrə daxilolmaların səviyyəsinə müsbət təsir edəcəyi də cari ilin büdcəsinin layihəsinə Hesablama Palatasının rəyində də qeyd edilmişdir.

Cari ildə Hesablama Palatası tərəfindən Fondda həyata keçirilmiş nəzarət tədbiri də əmək haqqı fondu və digər əlaqəli parametrlər üzrə 2018-ci il üçün Fondun və vergi orqanlarının baza məlumatları arasında fərqlərin olduğunu göstərmişdir. Belə ki, nəzarət tədbiri çərçivəsində 2018-ci ilin III rübünün yekunları üzrə Fondun və Vergilər Nazirliyinin müvafiq məlumatlarının üzləşdirilməsi aparılmış, əmək haqqı fondlarına dair müvafiq məlumatlar, eləcə də faktiki fəaliyyətdə olan sığortaedənlərə dair məlumatlarda fərqlər aşkar edilmişdir, muzdlu gəlirlər müqayisə olunmaqla hesablanmış fərq məbləği 2275 sayda hüquqi şəxs üzrə ümumilikdə 105,0 mln.manat, sahibkarlıq fəaliyyəti ilə məşğul olan 7300 sayda fiziki

şəxs üzrə ümumilikdə 11,1 mln. manat, həmin gəlirlərə müvafiq MDSSH məbləği hüquqi şəxslər üzrə 26,3 mln. manat, fiziki şəxslər üzrə 2,8 mln. manat təşkil etmişdir. Həmçinin, vergi orqanlarındakı məlumatlara əsasən muzdlu gəliri və ya sadələşdirilmiş dövriyyəsi olan 3945 sayda fiziki şəxsin Fondda olan məlumatlarda aktiv fəaliyyətinin olmadığı göstərilmiş, həmin fiziki şəxslərin fəaliyyəti olduğu halda hesablanmalı olan MDSSH məbləği 385,0 min manat təşkil etmişdir. Audit zamanı müvafiq məlumat bazalarının üzləşdirilməsi nəticəsində aşkar edilmiş əmək haqqı gəlirləri göstəricilərində fərq məbləğləri üzrə hesablanmalı MDSSH məbləği hüquqi şəxslər üzrə 26,3 mln. manat, fiziki şəxslər üzrə 3,2 mln. manat, ümumilikdə 29,5 mln. manat təşkil etmişdir.

Vergilər Nazirliyi tərəfindən təqdim edilmiş məlumata əsasən 2018-ci ilin IV rübündə 574,0 mln. manat, o cümlədən 573,8 mln. manat MDSSH-nın, 196,4 min manat məbləğində digər gəlirlərin hesablandığı bildirilmişdir. Hesablanmış gəlirlərin 202,6 mln. manatı və ya 35,3%-i büdcə (o cümlədən, 202,6 mln. manat məbləğində MDSSH, 1,8 min manat məbləğində digər gəlirlər), 371,4 mln. manatı və ya 64,7%-i qeyri-büdcə sektoru (o cümlədən, 371,2 mln. manat məbləğində MDSSH, 194,7 min manat məbləğində digər gəlirlər) üzrə olmuşdur. Qeyri-büdcə sektoru üzrə vəsaitin 354,1 mln. manatı və ya 95,3%-i hüquqi şəxslər (o cümlədən, 353,9 mln. manat məbləğində MDSSH, 193,3 min manat məbləğində digər gəlirlər), 17,6 mln. manatı və ya 4,7%-i isə fiziki şəxslər üzrə (o cümlədən, 17,6 mln. min manat məbləğində MDSSH, 1,4 min manat məbləğində digər gəlirlər) hesablanmışdır. Göründüyü kimi, qeyri-büdcə sektoru üzrə MDSSH-dan gəlirlərin hüquqi və fiziki şəxslər üzrə bölgüsündə fərq yaranmışdır (Cədvəl 3).

**Cədvəl 3. 2018-ci ildə Fondun MDSSH-dan rüblük gəlirlərinə dair məlumat, min manatla**

| | 01.01.2018-01.10.2018-ci il dövründə hesablanmışdır | | | | | 01.10.2018-01.01.2019-cu il dövründə hesablanmışdır | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | CƏMİ | o cümlədən | | | | CƏMİ | o cümlədən | | | |
| | | Büdcə sektoru üzrə | Qeyri-büdcə sektoru üzrə, cəmi | o cümlədən | | | Büdcə sektoru üzrə | Qeyri-büdcə sektoru üzrə, cəmi | o cümlədən | |
| | | | | hüquqi şəxslər üzrə | fiziki şəxslər üzrə | | | | hüquqi şəxslər üzrə | fiziki şəxslər üzrə |
| MDSSH | 1708077,1 | 617443,3 | 1090633,9 | 1038344,5 | 52289,4 | 573795,3 | 202559,3 | 371235,9 | 353870,3 | 17365,6 |
| o cümlədən, orta hesabla 1 rüblük | 569359,1 | 205814,4 | 363544,6 | 346114,8 | 17429,8 | 573795,3 | 202559,3 | 371235,9 | 353870,3 | 17365,6 |
| Fərq | | | | | | 4436,2 | -3255,1 | 7691,3 | 7755,5 | -64,2 |

Vergilər Nazirliyinin məlumatı üzrə yekun məbləğin düzgünlüyünü təmin etmək üçün hesablamalarda fiziki şəxslərdən daxilolmaların məbləği sektor üzrə yekun məbləğə uyğunlaşdırılmışdır

Cədvəl 3-dən göründüyü kimi, 2018-ci ilin IV rübündə, yəni rüblük hesabatın Vergilər Nazirliyinə təqdim edildiyi dövr üzrə MDSSH-ından gəlirlərin orta rüblük məbləğində 4,4 mln. manat artım olmuş, büdcə sektoru üzrə 3,3 mln. manat azalma olsa da, qeyri-büdcə sektoru üzrə 7,7 mln. manatlıq artım müşahidə edilmişdir. O cümlədən, hüquqi şəxslər üzrə 7,8 mln. manatlıq artım olduğu halda fiziki şəxslər üzrə orta rüblük daxilolma məbləği 64,2 min manat azalmışdır.

Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən Hesablama Palatasına təqdim edilmiş məlumatlara əsasən 2019-cu ilin ilk 8 ayı ərzində, Naxçıvan Muxtar Respublikası nəzərə alınmadan, 1611,5 mln. manat məbləğində proqnoza qarşı (o cümlədən, büdcə təşkilatları üzrə 582,2 mln. manat, qeyri-büdcə təşkilatları üzrə 1029,3 mln. manat) 1717,3 mln. manat (o cümlədən, büdcə təşkilatları üzrə 593,8 mln. manat, qeyri-büdcə təşkilatları üzrə 1123,5 mln. manat) vəsait yığılmış, proqnoz 106,6% (o cümlədən, büdcə təşkilatları üzrə 102,0%, qeyri-büdcə təşkilatları üzrə 109,1%) icra edilmişdir. Göründüyü kimi, qeyri-büdcə təşkilatları üzrə daha yüksək yığım səviyyəsi müşahidə edilmişdir ki, bu da vergi orqanlarının bu istiqamətdə inzibatçılıq və idarəetmə fəaliyyəti baxımından təqdirəlayiqdir. Bununla belə, qeyd edilməlidir ki, məcburi dövlət sosial sığortası üzrə daxilolmaların 2769,4 mln. manat məbləğində illik proqnoz məbləği əsasında 230,8 mln. manat (2769,4/12) aylıq proqnoz məbləği hesablandığı halda Vergilər Nazirliyi tərəfindən təqdim edilmiş məlumatlar üzrə 1611,5 mln. manat məbləğində 8 aylıq proqnoz əsasında 201,4 mln. manat (1611,5/8) aylıq proqnoz məbləği alınır ki, bu da illik göstərici əsasında hesablanan aylıq proqnoz məbləğinin 87,3%-i qədərdir. Həmin göstəricilər büdcədən maliyyələşən təşkilatlar üzrə, müvafiq olaraq 117,3 mln manat və 72,8 mln. manat (62,0%), qeyri-büdcə təşkilatları üzrə, müvafiq olaraq, 165,4 mln. manat və 128,7 mln. manat (77,8%) təşkil edir. Beləliklə də, riyazi hesablamalarla müəyyən edilmiş orta aylıq proqnoz göstəriciləri üzrə fərqlər alınır ki, bu, büdcə təşkilatlarında 01.10.2019-cu il tarixindən əmək haqlarının artırılması səbəbindən ilin sonunda daha çox vəsaitin yığılacağı ehtimalı ilə izah edilə bilər. Qeyri-büdcə təşkilatları üzrə fərq isə bu sektor üzrə 8 aylıq proqnoz məbləğinin daha ehtiyatla müəyyənləşdirildiyini deməyə əsas verir.

MDSSH üzrə 2019-cu ilin I yarısında proqnoz və icra göstəriciləri də yuxarıda qeyd olunanları bir daha təsdiq edir. Belə ki, Fond tərəfindən təqdim edilmiş məlumata əsasən 2019-cu ilin I yarısında 1131,8 mln. manat proqnoza qarşı 1268,4 mln. manat MDSSH yığılmış, proqnoz 112,1% icra edilmişdir. Göründüyü kimi, 6 aylıq proqnoz məbləği bu mənbə üzrə 2769,4 mln. manat illik proqnoz məbləğinin cəmi 40,9%-i qədərdir və ya çox aşağı məbləğdə müəyyən edilmişdir. Faktiki riyazi ifadədə isə 6 ay ərzində illik proqnoz məbləğinin

cəmi 45,8%-i qədər vəsait yığılmışdır. Bu, əsas etibarilə, ilin II yarısında büdcə sektorunda əmək haqlarının artımı və kəsrin də həmin artım nəticəsində ödəniləcək MDSSH-nın artımı ilə kompensasiya ediləcəyinin ehtimal edilməsi ilə əlaqələndirilə bilər. Bununla belə, qeyd edilməlidir ki, qeyri-büdcə sektoru üzrə 6 aylıq proqnoz məbləği illik proqnoz məbləğinin 42,0%-i, büdcə sektoru üzrə isə 39,2%-i səviyyəsində müəyyən edilmişdir.

2020-ci il üzrə dövlət büdcəsinin layihəsi ilə bağlı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilmiş məlumatda respublikada məşğul əhalinin sayının 2020-ci ildə kənd, meşə və balıqçılıq təsərrüfatları istisna olmaqla 3217 min nəfər olacağının proqnozlaşdırıldığı göstərilmişdir. Mülkiyyətində kənd təsərrüfatına yaralı torpaq sahələri olan vətəndaşlar məşğul əhali sayılır və 2020-ci ildə kənd, meşə və balıqçılıq təsərrüfatlarında məşğul olan vətəndaşların sayının 1,8 mln. nəfər olacağı proqnozlaşdırılır. Lakin əvvəlki illərin təcrübəsi bu sahə üzrə məcburi dövlət sosial sığortasına cəlbolunma və yığım səviyyəsinin çox aşağı olduğunu göstərdiyi üçün həmin sahə üzrə məşğul olan vətəndaşların sığortaedən qismində nəzərə alınması real vəziyyəti əks etdirmir. Bu səbəbdən də təhlil zamanı həmin sektor üzrə say göstəriciləri istisna edilmişdir.

2019-cu ildə qeyd edilən say göstəricisinin 3161 min nəfər olacağı nəzərdə tutulmuşdur. Başqa sözlə, kənd, meşə və balıqçılıq təsərrüfatları istisna olmaqla, məşğul əhalinin sayında gələn il cəmi 1,8%-lik artım proqnozlaşdırılmışdır ki, belə artım səviyyəsinin də proqnozlaşdırılması MDSSH üzrə proqnozlaşdırılan artım səviyyəsinin say göstəriciləri ilə deyil, əsas etibarilə, əmək haqlarının artımı və ya məbləğ göstəriciləri ilə bağlılığını iddia etməyə imkan verir.

2020-ci ildə MDSSH üzrə daxilolmaların 1407,6 mln. manatının və ya 41,5%-nin *büdcə təşkilatlarından* daxil olacağı proqnozlaşdırılmışdır ki, bu da 2019-cu ilin müvafiq proqnoz göstəricisindən 313,0 mln. manat və ya 28,6% çoxdur. Göründüyü kimi, funksional yığım fəaliyyətinin səviyyəsi və keyfiyyəti ilə qismən bağlı olan büdcə sektorundan daxilolmaların artım səviyyəsi Fondun ümumi gəlirlərinin artım səviyyəsini nəzərəçarpacaq dərəcədə üstələyəcəkdir ki, bu da həmin mənbədən gəlirlərin Fondun ümumi gəlirlərində xüsusi çəkisinin artımında özünü göstərir. Belə ki, qeyd edilən mənbədən gəlirlərin Fondun ümumi gəlirlərində xüsusi çəkisinin cari ildə 26,5% olacağı proqnozlaşdırılmışdır ki, bu da gələn ilə proqnozlaşdırılan 29,2% xüsusi çəki göstəricisindən 2,7 faiz bəndi azdır. Büdcədən maliyyələşən təşkilatlardan daxilolmaların qeyd edilən artım səviyyəsinə həmin təşkilatlarda çalışanların əmək haqlarının nəzərə çarpacaq səviyyədə artımının təsiri şübhəsizdir. Müvafiq qanunvericiliyə əsasən 2019-cu ilin 1 sentyabr tarixindən dövlət büdcəsindən maliyyələşən

təşkilatlarda çalışan işçilərin əmək haqları orta hesabla 20-50% artırılmışdır ki, bu da həmin sektor üzrə MDSSH-larının həcminə təsirsiz ötüşə bilməz.

Qeyd edilməlidir ki, Fondun MDSSH üzrə gəlirlərində büdcə və qeyri-büdcə sektorlarından daxilolmaların xüsusi çəkisinin cari ildə, müvafiq olaraq, 39,5% və 60,5% olacağı proqnozlaşdırılmışdır. Başqa sözlə, gələn il büdcə sektoru üzrə xüsusi çəki göstəricisinin 41,5%-ədək artması, qeyri-büdcə sektoru üzrə xüsusi çəki göstəricisinin isə 58,5%-ədək azalması nəzərdə tutulmuşdur.

Qanun layihəsinə əsasən büdcə sektoru üzrə daxilolmaların 1238,7 mln. manatı və ya 88,0%-i büdcədən maliyyələşən təşkilatlardan, 168,9 mln. manatı və ya 12,0%-i isə büdcədən maliyyələşən təşkilatlarda işləyənlərdən daxilolmalardan ibarət olacaqdır ki, bu da hazırkı sığorta haqqı normativlərinə (22,0% və 3,0%) uyğun olmaqla büdcə sektorunda sığorta normativlərinin, qeyri-büdcə sektorunda olduğu kimi, dəyişdirilməsinin nəzərdə tutulmadığını deməyə əsas verir. Qeyd edilən mənbələr üzrə daxil olacaq vəsait cari ilin müvafiq proqnoz göstəricilərindən, müvafiq olaraq, 275,5 mln. manat və ya 28,6%, 37,6 mln. manat və ya 28,6% çoxdur. Göründüyü kimi, büdcə sektorunda həm sığortaedənlər, həm də sığortaolunanlar üzrə ödəniləcək vəsaitlərin artım səviyyəsi ümumilikdə sektor üzrə artım səviyyəsinə uyğundur.

Qanun layihəsində *digər sığortaedənlərdən* 1985,0 mln. manat və ya Fondun ümumi daxilolmalarının 41,1%-i qədər, MDSSH üzrə ümumi daxilolmaların isə 58,5%-i qədər vəsaitin daxil olacağı nəzərdə tutulmuşdur ki, bu da cari ilin müvafiq proqnoz göstəricisindən 310,2 mln. manat və ya 18,5% çoxdur. Göründüyü kimi, qeyri-büdcə sektoru üzrə MDSSH-larından daxilolmaların proqnozlaşdırılan artım səviyyəsi Fondun ümumi gəlirlərinin 16,9%-lik artım səviyyəsini az səviyyədə üstələdiyi halda MDSSH-larının ümumi daxilolma proqnozunun 22,5%-lik artım səviyyəsindən geri qalır. Belə səviyyəli artım bu sektor üzrə daxilolmaların xüsusi çəkisində də özünü göstərir. Belə ki, həmin xüsusi çəki göstəricisi cari ildə 40,6% səviyyəsində gözlənilir ki, bu da gələn il üçün müvafiq xüsusi çəki göstəricisindən (41,1%) cəmi 0,5 faiz bəndi azdır. Başqa sözlə, büdcə sektoru üzrə gələn ilə proqnozlaşdırılan xüsusi çəki göstəricisi (29,2%) cari ilin müvafiq xüsusi çəki göstəricisindən (26,5%) 2,7 faiz bəndi çox olduğu halda üstələmə səviyyəsi qeyri-büdcə sektorunda cəmi 0,5 faiz bəndidir. Nəzərə alınmalıdır ki, qeyri-büdcə sektoru üzrə cari ilin 1497,0 mln. manat məbləğində təsdiq olunmuş ilkin proqnozu il ərzində dürüstləşdirilərək 1674,8 mln. manat məbləğində təsdiqlənmiş və ya 11,9% artırılmışdır ki, bu da gələn ilin cari ilə nisbətən müvafiq artım səviyyəsində özünü göstərir.

2020-ci ildə qeyri-büdcə sektoru üzrə daxilolmaların 80,0 mln. manatının və ya qeyri-büdcə sektoru üzrə gəlirlərin 4,0%-nin, Fondun ümumi gəlirlərinin isə 1,7%-nin sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən daxil olacağı nəzərdə tutulmuşdur ki, bu da 2019-cu ilin müvafiq proqnoz göstəricisindən 11,0 mln. manat və ya 15,9% çoxdur. Göründüyü kimi, bu mənbədən gəlirlərin artım səviyyəsi Fondun ümumi gəlirlərinin artım səviyyəsinə təxminən uyğundur. Qeyd edilməlidir ki, xüsusi çəki göstəricisi cari ildə də eyni səviyyədə proqnozlaşdırılır.

***ARAYIŞ***

*Əvvəlki illərdə olduğu kimi, 2020-ci ildə də qeyri-büdcə sektorunda fəaliyyət göstərən bütün sığortaedənlərin məcburi dövlət sosial sığortası ilə əhatə olunmaması riski mövcuddur. Buna səbəb kimi, əsas etibarilə, təsərrüfat subyektlərinin məcburi dövlət sosial sığortasına "maraqlarının" lazımi səviyyədə olmaması nəticəsində əmək haqqı gəlirlərinin gizlədilməsi ilə müvafiq ödəmələrdən yayınması göstərilə bilər. Sığortaolunanlara ödənilən faktiki əmək haqlarının rəsmiləşdirilməsi məsələsi də hələ ki öz aktuallığını saxlamaqdadır.*

*Müvafiq qanunvericiliklə sahibkarlıq subyektlərində yoxlamaların məhdudlaşdırılması tədbirləri də Fond tərəfindən bu istiqamətdə zəruri nəzarət fəaliyyətinin aparılmasını mümkünsüz etmişdir.*

*Müvafiq qanunvericiliklə məcburi dövlət sosial sığortası sahəsində inzibatçılıq və idarəetmə fəaliyyətinin vergi orqanlarına verilməsi qeyd edilən riskin minimuma endirilməsi istiqamətində əhəmiyyətli addım sayıla bilər. Belə ki, vergi orqanlarında əmək haqqı fondları və işçi sayı barədə elektron hesabatvermə, məlumat mübadiləsi və idarəetmə fəaliyyətinin daha zəngin keçmişi və illərin təcrübəsi mövcuddur. Vergi orqanlarının nəzarət imkanlarının genişliyi də bu sahədə nöqsan və çatışmazlıqların aradan qaldırılmasında yardımçı ola bilər.*

*Hesablama Palatasının Fondun yerli orqanlarında apardığı nəzarət tədbirləri zamanı qeyri-büdcə sektoru, xüsusilə də fiziki şəxslərlə hesablaşmalar üzrə vergi orqanlarının və Fondun məlumatları arasında fərqlərin olması, 2019-cu ildən müvafiq qanunvericiliklə məcburi dövlət sosial sığortası sahəsində inzibatçılığın vergi orqanlarına verilməsi ilə həmin fərqlərin də aradan qalxma ehtimalının olması bu sektor üzrə mövcud potensialdan daha*

*dolğun istifadə edilməsinin mümkünlüyünü deməyə imkan verir ki, bu da bu sektor üzrə proqnozlaşdırma fəaliyyətinə daha dəqiq və hərtərəfli yanaşmanın zəruriliyini göstərir.*

Məcburi dövlət sosial sığortası sahəsində borcların tənzimlənməsi istiqamətində 2018-ci ildə müvafiq tədbirlər görülmüş, "Məcburi dövlət sosial sığorta sahəsində borcların tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 6 mart tarixli 1042-VQ nömrəli Qanunu qəbul edilmiş və 01.04.2018-ci il tarixdən qüvvəyə minmişdir. Həmin Qanunun 1-ci maddəsinə əsasən sığortaedənlərin Fondun uçot sistemində mövcud olan 2006-cı ilin 1 yanvar tarixinə yaranmış və 2018-ci ilin 1 aprel tarixinədək ödənilməmiş MDSSH üzrə borcları tam məbləğdə, 2-ci maddəsinə əsasən 2015-ci ilin 1 yanvar tarixinədək yaranmış və 2018-ci ilin 1 aprel tarixinədək ödənilməmiş məcburi dövlət sosial sığortası qaydalarının pozulmasına görə tətbiq edilmiş maliyyə sanksiyaları (hesablanmış penya) üzrə borcları tam məbləğdə silinir.

Qeyd edilən Qanunun 3-cü maddəsində həmin Qanunun 2-ci maddəsi nəzərə alınmaqla sığortaedənlərin Fondun uçot sistemində mövcud olan 2015-ci ilin 1 yanvar tarixindən yaranmış və 2018-ci ilin 1 aprel tarixinədək ödənilməmiş məcburi dövlət sosial sığortası qaydalarının pozulmasına görə tətbiq edilmiş maliyyə sanksiyaları (hesablanmış penya) üzrə sığortaedənlər tərəfindən 2018-ci ilin aprel-may ayları ərzində həmin maliyyə sanksiyalarının (hesablanmış penyanın) 10%-inin ödənildiyi halda maliyyə sanksiyalarının (hesablanmış penyanın) ödənilməmiş 90%-inin, 2018-ci ilin aprel-iyul ayları ərzində həmin maliyyə sanksiyalarının (hesablanmış penyanın) 30%-i ödənildikdə maliyyə sanksiyalarının (hesablanmış penyanın) ödənilməmiş 70%-inin, 2018-ci ilin aprel-sentyabr ayları ərzində həmin maliyyə sanksiyalarının (hesablanmış penyanın) 50%-i ödənildikdə maliyyə sanksiyalarının (hesablanmış penyanın) ödənilməmiş 50%-inin silinməsi qeyd edilmiş, 4-cü maddəsində həmin qanunun 1-ci, 2-ci və 3-cü maddələrinin ödənilməsi barəsində məhkəmə qərarı qəbul edilmiş, lakin 2018-ci ilin 1 aprel tarixinə ödənilməmiş borcların qalığına da şamil edildiyi vurğulanmışdır.

Fond tərəfindən təqdim edilmiş məlumata əsasən yuxarıda qeyd edilən Qanunun tətbiqi ilə əlaqədar 2018-ci il ərzində sığortaedənlərin Fonda borcları üzrə ümumilikdə 52689 halda 121,3 mln. manat məbləğində borcu silinmişdir.

### 2.2. Sair gəlirlər

2020-ci ildə Fondun gəlirlərinin 6,0 mln. manatının və ya 0,1%-nin sair gəlirlər qismində daxil olacağı proqnozlaşdırılmışdır ki, bu da 2018-ci ildə bu mənbədən daxilolmalar

göstəricisindən 81,8 mln. manat azdır və ya həmin göstəricinin 6,8%-i, cari ildə isə bu mənbədən daxilolmaların gözlənilən məbləği qədərdir.

Sair gəlirlərin 2,0 mln. manatının və ya 33,3%-nin sanatoriya-kurort yollayışlarının qismən dəyəri üzrə daxil olacağı nəzərdə tutulmuşdur ki, bu da cari ilin müvafiq proqnoz göstəricisi qədərdir. Qanun layihəsinə əsasən 2020-ci ildə sanatoriya-kurort yollayışlarının alınmasına 16,0 mln. manat vəsaitin xərclənməsi nəzərdə tutulur (Cədvəl 4).

**Cədvəl 4 . Sanatoriya-kurort yollayışları üzrə gəlirlərə dair**

| | 2018 (icra) | 2019 (proqnoz) | 2020 (layihə) |
|---|---|---|---|
| Yollayışlar üzrə xərc, min manat | 15530,0 | 15530,0 | 16000,0 |
| Yollayışların sayı, ədəd | 15146 | 15350 | 13226 |
| 1 yollayışın dəyəri, manat | 1025,4 | 1011,7 | 1209,7 |
| pulsuz verilən yollayışlar, ədəd | 1010 | 1025 | 883 |
| 15% dəyəri ödənilən yollayışlar, ədəd | 14136 | 14325 | 12343 |
| 15% dəyəri ödənilmiş yollayışların dəyəri, min manat | 14495,1 | 14492,6 | 14931,3 |
| Yollayışların satışından daxilolma (hesablanmış 15%), min manat | 2174,3 | 2173,9 | 2239,7 |
| Fondun məlumatına əsasən daxilolma, min manat | | 2000,0 | 2000,0 |
| Fərq, min manat | | 173,9 | 239,7 |

Məlumat üçün bildirək ki, Fondun 2018-ci il üzrə büdcəsinin icrası ilə əlaqədar AHİK tərəfindən Hesablama Palatasına təqdim edilmiş məlumatda 2020-ci ildə AHİK vasitəsilə həyata keçirilən xərclərin maliyyələşdirilməsinə 26,3 mln. manat vəsaitin nəzərdə tutulduğu göstərilsə də, Qanun layihəsində həmin məqsədlərə 20,5 mln manat və ya ilkin nəzərdə tutulan vəsaitin 77,8%-i qədər vəsaitin proqnozlaşdırıldığı göstərilmişdir. Qeyd edilən məlumatda xərclərin strukturu və müvafiq saylar da Hesablama Palatasına təqdim edilmişdir. Hazırkı Rəyin hazırlanması zamanı hesablamalar və təhlillər AHİK tərəfindən təqdim edilmiş əvvəlki məlumatlar əsasında və 77,8% nisbətilə götürülməklə aparılmışdır.

AHİK tərəfindən təqdim edilmiş məlumatlar əsasında müvafiq hesablamalara əsasən 2020-ci ildə tam dəyəri 16,0 mln. manat olan 13226 ədəd yollayışın veriləcəyi, o cümlədən tam dəyəri 14,9 mln. manat təşkil edən 12343 ədəd yollayışın 15% qismən dəyəri – 2,2 mln. manat ödənilməklə satılacağı, tam dəyəri 1,1 mln. manat təşkil edən 883 ədədinin isə pulsuz veriləcəyi nəzərdə tutulmuşdur. Göründüyü kimi, Fondun proqnozları üzrə daxilolma məbləği AHİK-in məlumatları əsasında hesablanmış məbləğdən 239,7 min manat azdır ki, bu da Fondun proqnozlaşdırdığı gəlir məbləğinin 12,0%i qədərdir. Qeyd edilməlidir ki, belə fərq məbləğlərinin olmasına əvvəlki illərin təcrübəsində də rast gəlinmişdir və bu isə bu mənbə üzrə əlavə gəlir potensialının olması deməkdir.

Fond tərəfindən təqdim edilmiş məlumatlara əsasən sair gəlirlərin qalan hissəsi olan 4,0 mln. manatının və ya 66,7%-inin tətbiq edilən maliyyə sanksiyaları və penyalar, eləcə də müxtəlif səbəblərdən artıq ödənilmiş pensiya və müavinət məbləğlərinin, o cümlədən Fondun özü tərəfindən aşkar edilmiş artıq ödəmələrdən geri qaytarılmalar üzrə daxil olacağı nəzərdə tutulmuşdur.

*Hesablama Palatası sair gəlirlərin tərkibi ilə bağlı ətraflı məlumatların Qanun layihəsinə əlavə edilmiş sənədlərə daxil olunmasını hesabatlılıq və şəffaflıq prinsipləri baxımdan məqsədəmüvafiq hesab edir*.

Qeyd edilməlidir ki, 2018-ci ildə sair daxilolmalar qismində proqnozlaşdırılan 5,5 mln. manat vəsaitdən 16 dəfə çox olmaqla 87,8 mln. manat vəsait daxil olmuşdur ki, bu da Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2018-ci il 25 oktyabr tarixli 691s nömrəli Sərəncamına əsasən "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununun 1.1.13-cü maddəsinə uyğun olaraq əhaliyə ödənilən pensiya və müavinətlərin vaxtında maliyyələşdirilməsini təmin etmək məqsədilə həmin ilin sonunadək geri qaytarılmaq şərti ilə Fonda 70,0 mln. manat büdcə ssudasının verilməsi ilə bağlı olmuşdur.

### 2.3. Müvafiq icra hakimiyyəti orqanının büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait

Qeyd edilməlidir ki, Fondun büdcəsinin xərclərinin gəlirlərindən artıq olan hissəsinin maliyyələşdirilməsi məqsədilə 2018-ci ilədək dövlət büdcəsindən Fonda ayırmalar (transfertlər) edilmiş, 2018-ci ildən həmin ayırmaların dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi məqsədilə edilməsinə başlanılmışdır.

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunun 11-1.2.3-cü maddəsinə əsasən sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) büdcəsinə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait icmal büdcə xərclərinin yuxarı həddinin maliyyələşdirilməsi üçün qeyri-neft gəlirləri və digər daxilolmalar qismində müəyyənləşdirilir. Göründüyü kimi, qeyd edilən qanunvericilik aktında dövlət büdcəsindən Fonda ayırmalar "dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait" kimi nəzərdə tutulduğu halda Qanun layihəsində həmin vəsaitin Fondun büdcəsinin balanslaşdırılması məqsədilə edildiyi göstərilmişdir. Bu isə Fondun xərclərinin müvafiq büdcələrin öhdəliklərinə uyğun həyata keçirilməsi deyil, Fondun büdcəsinin balanslaşdırılmasına xidmət etməklə onun xərclərinin gəlirlərindən artıq hissəsinin maliyyələşdirilməsi məqsədini ifadə edir.

Qanun layihəsinə əsasən 2020-ci ildə Fondun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən 1426,9 mln. manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur ki, bu da Fondun gəlirlərinin 29,6%-i qədər olmaqla 2018-ci il üzrə müvafiq icra göstəricisindən 89,6 mln. manat və ya 6,7%, 2019-cu ilin müvafiq proqnoz göstəricisindən isə 74,2 mln manat və ya 5,5% çoxdur. Qeyd edilməlidir ki, dövlət büdcəsindən Fonda ayırmaların Fondun gəlirlərində xüsusi çəki göstəricisi 2018-ci ildə 35,6% təşkil etmiş, 2019-cu ildə isə 32,8% təşkil edəcəyi gözlənilir. Göründüyü kimi, dövlət büdcəsindən Fondun büdcəsinə ayrılan vəsaitlərin xüsusi çəkisi azalma dinamikasına malikdir ki, bu da minimum pensiya məbləğinin "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1650-VQD nömrəli Qanununa əsasən 2019-cu ilin 1 oktyabr tarixindən 25% artırılaraq 160,0 manatdan 200,0 manata çatdırılacağı şəraitdə reallıqla uzlaşmır. Belə ki, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununun 6-1-ci maddəsinə əsasən təyin edilmiş əmək pensiyasının məbləği əmək pensiyasının minimum məbləğindən aşağı olduqda, həmin məbləğə çatdırılmaqla ödənilir.

Həmin Qanunun 6.2-ci maddəsinə əsasən əmək pensiyasının sığorta hissəsinin 1992-ci ilin yanvarın 1-dək qazanılmış pensiya kapitalına əsasən formalaşan məbləği, habelə həmin qanunun 19-cu və 20-ci maddələrində nəzərdə tutulan əlavələr dövlət büdcəsinin, digər bütün məbləğləri isə məcburi dövlət sosial sığortası vəsaitləri və sosial sığorta ehtiyatı hesabına maliyyələşdirilir. Qeyd olunan mənbələrin birində vəsait çatışmazlığı olduqda, müvafiq xərclər digər mənbə hesabına maliyyələşdirilir. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununun 1.0.17-ci maddəsinə əsasən isə sosial sığorta ehtiyatı sığortaolunanlar üzrə ödənilmiş MDSSH-nın fərdi hesabın sığorta hissəsinə və idarəetmə xərclərinə yönəldilən hissəsi çıxıldıqdan sonra yerdə qalan məbləğindən formalaşdırılan hissəsidir. Başqa sözlə, sosial sığorta ehtiyatları da MDSSH-ndan ibarətdir.

Göründüyü kimi, qeyd edilən artım sosial sığorta prinsiplərinə deyil, qanunvericiliyin tələbinə əsaslandığı və birbaşa dövlət öhdəliyinin artımına xidmət etdiyi halda dövlət büdcəsinin öhdəliklərinə aid edilməyərək vəsait çatışmazlığı olduqda müvafiq xərclərin digər mənbə hesabına maliyyələşdirilməsi tələbinə uyğunlaşdırılır ki, bu da xərclərin yaranma səbəbləri və sosial sığorta prinsipləri baxımından düzgün deyil.

Minimum pensiya məbləğinin qaldırılması tədbiri ilə əhatə olunan pensiyaçıların say göstəriciləri də Fondun büdcəsinin sığorta prinsiplərinə əsaslanmayan öhdəliklərinin artmasını şərtləndirir. Belə ki, Nazirliyin internet səhifəsinin məlumatlarına əsasən minimum pensiya məbləğinin 2019-cu il martın 1-dən 119,76 manatdan (bir sıra kateqoriyalar üzrə 80

manatdan) 160,0 manata çatdırılması 233 min vətəndaşı əhatə etmiş, 2019-cu ilin 1 oktyabr tarixindən isə pensiyanın minimum məbləğinin 200,0 manata çatdırılması 660 min nəfər pensiyaçını əhatə edəcəkdir. Göründüyü kimi, bu tədbirlə respublika üzrə pensiyaçıların təxminən yarısı əhatə olunacaqdır ki, bu da kifayət qədər böyük göstəricidir.

Həmçinin, nəzərə alınmalıdır ki, dövlət büdcəsinin öhdəliklərini yaradan "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununun 19-cu və 20-ci maddələrində nəzərdə tutulan əlavələr üzrə xərclər də pensiya xərclərində nəzərəçarpacaq xüsusi çəkiyə malik olur. Belə ki, həmin əlavələr üzrə ümumi məbləğ, aylıq xərclər əsasında hesablanmaqla, 2017-ci ildə 394,7 mln. manat, 2018-ci ildə 460,1 mln. manat təşkil etmişdir ki, bu da həmin illlər ərzində dövlət büdcəsindən Fonda ayırmaların, müvafiq olaraq, 30,3%-i və 34,4% qədərdir.

Gələn il pensiya yaşına çatası vətəndaşların dövlət öhdəliyini yaradan 01.01.1992-ci il tarixə iş stajları üzrə illərin sayı da hələ ki, kiçik rəqəm deyildir. Belə ki, gələn il yanvarın 1-i tarixindən 64 yaş 6 ayı tamam olan kişilərin, 61 yaş 6 ayı tamam olan qadınların əmək qabiliyyətli yaş dövrünün başlandığı hesab edilən 18 yaşları tamam olan tarixdən 01.01.1992-ci il tarixədək, müvafiq olaraq, 19 il və 16 il fəaliyyət dövrü dövlət öhdəliyini yaradır ki, bu da pensiyaya çıxacaq vətəndaşların sayı, eləcə də əvvəlki dövrlərdə pensiyaya çıxmış vətəndaşların həmin dövrdə fəaliyyət illərinin sayının daha böyük olması baxımından az məbləğ ola bilməz.

*Qeyd edilən əsaslardan Fondun büdcəsinin maliyyə dayanıqlılığının artırılması, öz xərclərini öz gəlirləri hesabına ödəmə qabiliyyəti və hətta gəlirlərin xərclərdən artıq hissəsindən məqsədli istifadə baxımından müvafiq büdcələrin öhdəliklərinin dəqiq müəyyənləşdirilməsi və maliyyələşdirmənin də həmin öhdəliklərə müvafiq həyata keçirilməsi, bununla da Konsepsiyanın tələblərinə əməl edilməsi istiqamətində tədbirlərin görülməsi məqsədəmüvafiq hesab edilir.*

Qeyd edilməlidir ki, Fondun 2019-cu il üçün büdcəsinə il ərzində dürüstləşmə aparılaraq dəyişiklik edilmiş, dövlət büdcəsindən Fonda ayrılacaq vəsaitin ilkin təsdiq olunmuş 1502,7 mln. manat göstəricisindən 1352,7 mln. manat göstəricisinə salınmış və ya 150,0 mln. manat (10,0%) azaldılmışdır. Bu, ilk baxışdan Fondun büdcəsinin dövlət büdcəsindən asılılığının azalması və xərcləri öz vəsaitləri hesabına ödəməsi kimi görünsə də, son nəticədə, bir daha müvafiq büdcələrin öhdəliklərinin müəyyənləşdirildiyi və sosial sığorta prinsiplərinə söykənməyən ödənişlərin artdığı şəraitdə dövlət büdcəsinin öhdəliklərinin Fondun büdcəsinin vəsaitləri hesabına yerinə yetirilməsi anlamına gəlir.

Digər tərəfdən, Fondun əhaliyə ödənişlər üzrə xərclərinin artdığı şəraitdə dövlət büdcəsindən Fonda ayırmaların məbləğinin azaldılması Fondun digər gəlirlərinin, xüsusilə də məcburi dövlət sosial sığortası üzrə gəlirlərinin artımı ilə əlaqələndirilə bilər ki, bu da məcburi dövlət sosial sığortası üzrə inzibatçılıq, idarəetmə və nəzarət fəaliyyətinin Vergilər Nazirliyinə verilməsi istiqamətində atılmış addımın əhəmiyyəti və məqsədəmüvafiqliyini bir daha göstərir.

***ARAYIŞ***

*Pensiyaların ödənilməsi xərclərinin müxtəlif səbəblərdən, xüsusilə də sosial sığorta prinsiplərinə əsaslanmayan səbəblərdən artımı pensiya xərcləri üzrə müvafiq büdcələrin öhdəliklərinin düzgün müəyyənləşdirilməməsi və ayrılmış vəsaitlərin real öhdəliklərə uyğun olmaması riskini formalaşdırır*

*Hazırda əmək pensiyaçılarının böyük əksəriyyətinin əmək qabiliyyətli yaş dövrü 01.01.1992-ci il tarixədək olan dövrə düşür. Həmçinin, müvafiq qanunvericiliklə əmək pensyalarına sosial sığorta prinsiplərinə əsaslanmayan bir sıra əlavələr müəyyən edilmişdir ki, həmin iş stajları və əlavələrin dəqiq müəyyənləşdirilməsi müəyyən çətinliklər yaradır.*

*Digər tərəfdən, əmək pensiyalarının minimum məbləği artdığca əvvəlki minimum məbləğlə sonrakı minimum məbləğ arasında olan intervala düşən pensiya məbləğləri üzrə artımın individual hesablanması zəhmət və resurslar tələb edən işdir.*
*Müvafiq büdcələrin öhdəliklərin dəqiq müəyyən edilməsi istiqamətində məqsədyönlü fəaliyyətin davam etdirilməsi, minimum pensiya məbləğindən aşağı pensiyaların dəqiq sayının müəyyənləşdirilməsi və həmin pensiya işləri üzrə artım məbləğlərinin mümkün qədər dəqiq hesablanması ilə müvafiq öhdəliklərin mümkün qədər dəqiq müəyyənləşdirilməsinə, büdcələrin vəsaitlərinin də müvafiq öhdəliklərə uyğun ayrılmasına nail olmaq mümkündür.*

Fond tərəfindən təqdim edilmiş məlumata əsasən 2019-cu ilin 6 ayının yekunu üzrə dövlət büdcəsindən Fonda ayırmaların məbləği 970,0 mln. manat proqnoza qarşı 830,0 mln. manat təşkil etmiş, proqnoz 85,6% icra edilmişdir. Göründüyü kimi, 2019-cu ilin I yarısında

dövlət büdcəsindən Fonda nəzərdə tutulandan 140,0 mln. manat və ya 14,4% az ayırma edilmişdir.

Qeyd edilməlidir ki, 2018-ci ildə Fondun xərclərinin ödənilməsi üçün vəsait çatışmazlığı səbəbindən ilin sonuna dövlət büdcəsindən Fonda ayırmalar üzrə təsdiq olunmuş vəsaitdən artıq vəsait xərclənmişdir. Cari ildə pensiya xərclərinin artımına təsir edə biləcək pensiyanın minimum məbləğinin nəzərəçarpacaq dərəcədə artdığı şəraitdə dövlət büdcəsindən Fonda ayırmaların təsdiq edilmiş məbləğinin sonradan 150,0 mln. manat və ya 10,0% azaldılması Fondun büdcəsinin icrası vəziyyətində müəyyən təsir edəcəkdir.

## III BÖLMƏ. SOSIAL TƏMİNATI VƏ MÜDAFİƏNİ HƏYATA KEÇİRƏN MÜVAFIQ İCRA HAKİMİYYƏTİ ORQANININ XƏRCLƏRİ

Qanun layihəsində 2020-ci ildə Fondun xərclərinin 4825,5 mln. manat olacağı nəzərdə tutulmuşdur ki, bu da 2018-ci ilin müvafiq icra göstəricisindən 1067,8 mln. manat və ya 28,4%, 2019-cu il üzrə müvafiq proqnoz göstəricisindən isə 697,4 mln. manat və ya 16,9% çoxdur (Cədvəl 5).

**Cədvəl 5. Fondun istiqamətlər üzrə xərclərinə dair müqayisəli cədvəl, min manatla**

| Göstəricilər | | 2018 (icra) | 2019 | | 2020 (layihə) | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | dür.proqnoz/ gözlənilən icra | xüsusi çəki, % | məbləğ | xüsusi çəki,% | artım/azalma | | | |
| | | | | | | | 2018-ci ilin icrası ilə | | 2019-cu ilin proqnozu ilə | |
| | | | | | | | +;- | % | +;- | % |
| **XƏRCLƏR, cəmi** | | **3757703,15** | **4128104,00** | **100,0** | **825508,80** | **100,0** | **1067805,65** | **128,4** | **697404,80** | **116,9** |
| 1 | **Əhaliyə ödənişlər, cəmi** | **3604852,82** | **4020444,00** | **97,4** | **684678,80** | **97,1** | **1079825,98** | **130,0** | **664234,80** | **116,5** |
| 1.1. | Əmək pensiyalarının ödənilməsi | 3523433,17 | 3918400,00 | 94,9 | **570078,80** | 94,7 | 1046645,63 | 129,7 | 651678,80 | 116,6 |
| 1.2. | MDSSH hesabına müavinətlərin ödənilməsi | 81419,65 | 102044,00 | 2,5 | 114600,00 | 2,4 | 33180,35 | 140,8 | 12556,00 | 112,3 |
| 1.2.1 | Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət | 25508,79 | 26000,00 | 0,6 | 28000,00 | 0,6 | 2491,21 | 109,8 | 2000,00 | 107,7 |
| 1.2.2 | Hamiləliyə və doğuma görə müavinət | 25421,95 | 31944,00 | 0,8 | 34000,00 | 0,7 | 8578,05 | 133,7 | 2056,00 | 106,4 |
| 1.2.3 | Uşağın anadan olmasına görə müavinət | 5323,18 | 9500,00 | 0,2 | 14900,00 | 0,3 | 9576,82 | 2,8 dəfə | 5400,00 | 156,8 |
| 1.2.4 | 3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar müavinət | 11041,46 | 13400,00 | 0,3 | 14500,00 | 0,3 | 3458,54 | 131,3 | 1100,00 | 108,2 |
| 1.2.5 | Dəfn üçün müavinət | 14124,27 | 21200,00 | 0,5 | 23200,00 | 0,5 | 9075,73 | 164,3 | 2000,00 | 109,4 |
| 2 | **AHİK xətti ilə sığortaolunanların sanatoriya- kurort müalicəsi və sağlamlaşdırma tədb-nin həyata keçirilməsi üzrə AHİK vasitəsi ilə maliyyələşdirilən xərclər, cəmi** | **20000,00** | **20000,00** | **0,5** | **20470,00** | **0,4** | **470,00** | **102,4** | **470,00** | **102,4** |
| 2.1. | Sanatoriya- kurort müalicəsi və istirahət üçün yollayışların (putyovkaların) alınmasına | 15530,00 | 15530,00 | 0,4 | 16000,00 | 0,3 | 470,00 | 103,0 | 470,00 | 103,0 |
| 2.2. | Sığortaolunanların uşaqlarının sağlamlıq düşərgələrində istirahətinin təşkilinə | 340,00 | 340,00 | 0,0 | 340,00 | 0,0 | 0,00 | 100,0 | 0,00 | 100,0 |
| 2.3. | Sanatoriya - profilaktoriyalara yemək xərcləri, tibb xidməti və ştatların saxlanmasına | 210,00 | 210,00 | 0,0 | 210,00 | 0,0 | 0,00 | 100,0 | 0,00 | 100,0 |
| 2.4. | AHİK-in idman cəmiyyətlərinə məxsus idman qurğularının qismən saxlanılmasına (işçilərin əmək haqlarının ödənilməsinə) | 2600,00 | 2600,00 | 0,1 | 2600,00 | 0,1 | 0,00 | 100,0 | 0,00 | 100,0 |
| 2.5. | Həmkarlar İttifaqlarının texniki və əməyin hüquqi müfəttişliyinin, etimadlı həkimlərin, sağlamlaşdırma işi ilə məşğul olan təlimatçıların saxlanılmasına | 1320,00 | 1320,00 | 0,0 | 1320,00 | 0,0 | 0,00 | 100,0 | 0,00 | 100,0 |
| 3 | **DOST Agentliyinin fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri, eləcə də pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərcləri** | **19873,73** | **23000,00** | **0,6** | **33900,00** | **0,7** | **14026,27** | **170,6** | **10900,00** | **147,4** |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **4** | **Müvafiq icra hakimiyyəti orqanının və onun yerli orqanlarının saxlanılması xərcləri** | **35358,90** | **63000,00** | **1,5** | **84800,00** | **1,8** | **49441,10** | **239,8** | **21800,00** | **134,6** |
| **5** | **Beynəlxalq təşkilatlara üzvlük haqlarının ödənilməsi xərcləri** | **56,35** | **60,00** | **0,0** | **60,00** | **0,0** | **3,65** | **106,5** | **0,00** | **100,0** |
| 5.1. | Beynəlxalq Sosial Təminat Assosiasiyasına üzvlük haqqının ödənilməsi xərci | 26,75 | 30,00 | 0,0 | 30,00 | 0,0 | 3,25 | 112,1 | 0,00 | 100,0 |
| 5.2. | MDB dövlətlərinin Sosial Təminat Assosiasiyasına üzvlük haqqının ödənilməsi xərci | 29,60 | 30,00 | 0,0 | 30,00 | 0,0 | 0,40 | 101,4 | 0,00 | 100,0 |
| **6** | **"İnkişaf üçün Kredit Sazişi"nə əsasən "Pensiya və sosial təminat" layihəsi üzrə kreditin qaytarılması xərcləri** | **1600,00** | **1600,00** | **0,04** | **1600,00** | **0,03** | **0,00** | **100,0** | **0,00** | **100,0** |
| **7** | **Digər** | **75961,35** | | | | | **-75961,35** | | | |

Göründüyü kimi, 2020-ci ildə də Fondun xərclərinin əhaliyə ödənişlər, AHİK xətti ilə sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə AHİK vasitəsi ilə maliyyələşdirilən xərclər, pensiya və müavinətlərin əhaliyə çatdırılması, bank əməliyyatlarının aparılması üzrə xidmət haqqı xərcləri, müvafiq icra hakimiyyəti orqanının və onun yerli orqanlarının və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın saxlanılması xərcləri və digər xərclər istiqamətlərində icra ediləcəyi nəzərdə tutulmuşdur.

### 3.1. Əhaliyə ödənişlər üzrə xərclər

Qanun layihəsinə əsasən 2020-ci ildə Fondun xərclərinin 4684,7 mln. manatının və ya 97,1%-inin əhaliyə ödənişlər üzrə xərclənməsi nəzərdə tutulmuşdur ki, bu da 2018-ci ilin müvafiq icra göstəricisindən 1079,8 mln. manat və ya 30,0%, 2019-cu ilin müvafiq proqnoz göstəricisindən isə 664,2 mln. manat və ya 16,5% çoxdur. Göründüyü kimi, əhaliyə ödənişlər üzrə xərclərin artım səviyyəsi Fondun ümumi xərclərinin 16,9%-lik artım səviyyəsinə uyğundur. Bununla belə, əhaliyə ödənişlər üzrə xərclərin xüsusi çəkisinin cari ildəki 97,4% göstəricisinə nisbətən azalması proqnozlaşdırılmışdır ki, bu da, əsas etibarilə, Fondun aparatının və onun yerli orqanlarının saxlanılması üzrə xərclərin nəzərəçarpan artımı ilə izah edilə bilər.

**HAŞİYƏ**

*Bütün sahələrdə fəaliyyət zamanı son illərin təcrübəsi və dinamikası əsas məlumat mənbələrindən biri kimi götürülür və müvafiq qanunvericiliyin tələblərinin sabit qaldığı və ya ciddi dəyişikliyə uğramadığı şəraitdə həmin dinamika daha etibarlı və əsaslı nəticələr çıxarmağa imkan verir. Əhalinin həssas təbəqələrini daha çox əhatə edən sosial sferada həmin dəyişikliklər və onların nəticələri də həssas xarakter daşıyır və əhalinin sosial müdafiəsi baxımından daha məsuliyyətli və məqsədyönlü yanaşmanın olmasını tələb edir.*

*Həmçinin, pensiya və ya digər təminatla bağlı olan hər bir sahəni əhatə edən qanunvericiliyin tələblərindəki hər hansı dəyişiklik yeni maliyyə yükləri və öhdəlikləri yarada bilər ki, həmin öhdəliklərin də qabaqcadan müəəyyənləşdirilməsi və müvafiq maliyyə mənbələrinin tapılması vacib məsələdir.*

*Pensiya təminatı üzrə əvvəlki illərin göstəricilərinin, eləcə də qanunvericilik bazası üzrə müvafiq tarixçənin öyrənilməsi, qanunvericiliyə əvvəlki dövrlərdə edilmiş dəyişikliklərin müsbət və mənfi nəticələrinin müəyyənləşdirilərək təhlil edilməsi, qanunvericilik bazasının işlənilməsi zamanı ədalətlilik, bərabərlik və sosial sığorta prinsiplərinin qorunması, yarana biləcək maliyyə öhdəliklərinin qabaqcadan dəqiq proqnozlaşdırılması və həmin öhdəliklərin yerinə yetirilməsi üçün əlaqəli, əsaslı və müəyyənləşdirilmiş prinsiplərə uyğun etibarlı maliyyə mənbələrinin müəyyənləşdirilməsi mümkün çətinliklərin yaranmasının qarşısının alınmasında yardımçı ola bilər*

Müvafiq məlumatlara əsasən gələn il Fondun büdcəsinin əhaliyə ödənişlər üzrə maliyyə yükünün 651,7 mln. manat həcmində artacağı proqnozlaşdırılır ki, bunun da 475,0 mln. manatının və ya 72,9%-nin pensiyanın sığorta hissəsinin müvafiq qanunvericiliyə uyğun olaraq indeksləşdirilməsi, 176,7 mln. manatının və ya 27,1%-nin isə dövlət sektorunda əmək haqlarının artırılması hesabına formalaşacağı gözlənilir.

### 3.1.1. Əmək pensiyalarının ödənilməsi xərcləri

Qeyd edilməlidir ki, 2017-ci ilin 1 iyul tarixindən başlayaraq pensiya qanunvericiliyinə ciddi dəyişikliklər edilmiş, Konsepsiyanın tələblərinin yerinə yetirilməsinə başlanılmış, 2019-cu ilin 1 oktyabr tarixindən yenə də dəyişikliklərin edilməsi nəzərdə tutulmuş, həmin dəyişikliklərlə vətəndaşların pensiya hüququnun yaranması şərtləri dəyişdirilmiş, pensiyanın minimum məbləği tətbiq olunmağa başlanılmış və sonrakı dövrlərdə həmin məbləğ artırılmışdır.

Qanun layihəsinə əsasən 2020-ci ildə Fondun xərclərinin 4570,1 mln. manatı və ya 94,7%-i, əhaliyə ödənişlər üzrə xərclərin isə 97,6%-i əmək pensiyalarının ödənilməsi üçün

sərf ediləcəkdir ki, bu da 2018-ci ilin müvafiq icra göstəricisindən 1046,6 mln. manat və ya 29,7%, 2019-cu ilin proqnoz göstəricisindən isə 651,7 mln. manat və ya 16,6% çoxdur. Göründüyü kimi, əmək pensiyalarının ödənilməsi xərclərinin artım səviyyəsi də Fondun ümumi xərclərinin artım səviyyəsinə uyğundur.

Qeyd edilməlidir ki, əmək pensiyalarının ödənilməsi xərclərinin xüsusi çəki göstəricisinin cari ildə gözlənilən 94,9%-lik göstəriciyə nisbətən azalacağı proqnozlaşdırılır ki, bu da Fondun digər xərclərinin artımı ilə əlaqədardır.

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununun (bunda sonra bu bölmədə - Qanun) 29.1-ci maddəsinə əsasən əmək pensiyasının sığorta hissəsi ildə bir dəfə ölkə üzrə orta aylıq nominal əmək haqqının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən illik artım tempinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən indeksləşdirilir. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilmiş məlumata əsasən 2019-cu ildə orta aylıq nominal əmək haqqının 13,9% artacağı nəzərdə tutulur. Qanuna edilmiş dəyişiklikdən sonra pensiyanın baza və sığorta hissəsi tam məbləğdə sığorta hissəsi hesab edilmiş, yalnız qanunvericiliklə müəyyən edilmiş əlavələr fərqləndirilmişdir. Başqa sözlə, bütün pensiyaların sığorta hissəsindən ibarət olan əsas hissəsinin 01.01.2020-ci il tarixdən 13,9% artırılacağı proqnozlaşdırılmışdır ki, bu da pensiyaların ödənilməsi xərclərinin 16,6%-lik ümumi artım səviyyəsindən geri qalır. Lakin pensiyaların ödənilməsi xərclərinin artımına təsir edən digər amillərin, xüsusilə də müvafiq vətəndaşlara sosial sığorta prinsiplərinə əsaslanmayan sığorta stajının hesablanmasının, pensiyanın minimum məbləğinin qaldırılmasının, Qanunun 37.3.1-ci maddəsinə əsasən pensiya məbləğlərinin yenidən hesablanmasının, keçmiş dövrə görə pensiya ödənişlərinin səviyyəsinin də müvafiq xərclərin artımına təsiri də danılmazdır.

Qanuna 2019-cu ilin 1 yanvar tarixindən edilmiş dəyişikliklə Qanuna yeni məzmunda "Əmək pensiyasının avtomatlaşdırılmış qaydada təyinatı zamanı 2006-cı il yanvarın 1-dək olan sığorta stajının hesablanması xüsusiyyətləri" adlı 22-1-ci maddə əlavə edilmiş, həmin maddədə vətəndaşın fərdi hesabının sığorta hissəsində 2018-ci ilin 1 iyul tarixinə qeydə alınmış pensiya kapitalı olduqda onun 2019-2020-ci illərdə müvafiq qanunvericiliklə müəyyən edilmiş yaş həddinə çatdığı zaman yaşa görə əmək pensiyası təyin edilərkən 2006-cı il yanvarın 1-dək olan sığorta stajının 25 il, 2021-ci ildən etibarən isə hər təqvim ili üçün bir il azaldılmaqla hesablanması qeyd olunmuşdur. Başqa sözlə, müvafiq qanunvericiliklə pensiya yaşına çatmış və 01.07.2018-ci il tarixə fərdi hesabının sığorta hissəsində qeydə alınmış pensiya kapitalı olan vətəndaşa 01.01.2019-cu il tarixindən 25 il, 2021-ci ildən etibarən isə

hər təqvim ili üçün bir il azaldılmaqla sığorta stajının hesablanmasına başlanılmışdır ki, bu da yaşa görə pensiya hüququnun yaranmasına təsir etməyə bilməz.

Əlilliyi müəyyən edilmiş şəxsə əlilliyə görə əmək pensiyası təyin edilərkən onun 2006-cı il yanvarın 1-dək olan sığorta stajı həmin dövrə olan əmək qabiliyyətli yaş dövrünün hər ili üçün 4 ay götürülməklə, ailə başçısını itirməyə görə əmək pensiyası təyin edilərkən pensiyaçı olmayan vəfat etmiş şəxsin 2006-cı il yanvarın 1-dək olan sığorta stajı əlilliyə dörə əmək pensiyası təyin edilərkən tətbiq edilən qaydaya uyğun olaraq hesablanır.

***ARAYIŞ***

*Fondun 2019-cu il üzrə büdcəsinin layihəsinə Hesablama Palatasının rəyində 01.07.2017-ci il tarixdən əmək pensiyası hüququnun yaranması üçün tələb edilən sığorta stajı həddinin 12 ildən 25 ilə qaldırılmasının əhalinin böyük bir qisminin pensiya hüqununun formalaşmamasına səbəb olduğu, nəticədə pensiya təminatı üzrə dövlət vəsaitlərinin əhalinin daha az sayda qrupu arasında, lakin daha böyük məbləğdə bölüşdürüldüyü və bununla da ümumi sosial ədalət prinsiplərinin qorunmadığı vurğulanmışdır.*

*Qanuna 01.01.2019-cu il tarixdən yuxarıda qeyd olunan dəyişikliyin edilməsi faktiki olaraq pensiya yaşına çatmış vətəndaşların əksəriyyətinin pensiya hüququnun yaranmasına və bununla da daha çox sayda vətəndaşın pensiya xərcləri üzrə dövlət vəsaitlərindən yararlanmasına gətirib çıxarır ki, bu da Hesablama Palatasının rəyində qeyd edilmiş iradın aradan qalxması kimi qiymətləndirilə bilər.*

01.01.2006-cı il tarixədək vətəndaşlara Qanunun 22.1-ci maddəsinə əsasən sığorta stajının hesablanması sonrakı dövrlərdə sığorta prinsiplərinə əsaslanmayan baza əsasında yaşa görə pensiyaçıların sayının artmasına da şərait yaradacaqdır ki, bu da Fondun pensiya ödənişi üzrə xərclərinin artmasında və bununla da onun büdcəsinin maliyyə dayanıqlılığına birbaşa göstərəcəkdir.

Pensiyanın minimum məbləğinin artırılmasının da pensiya üzrə xərclərin artımına şərait yaradacağı şübhəsizdir. Belə ki, yuxarıda qeyd edildiyi kimi, Qanunun 6-1-ci maddəsinə əsasən bu Qanunun məqsədləri üçün əmək pensiyasının minimum məbləği 2019-cu il 1 mart tarixindən 160,0 manat, Qanuna edilmiş müvafiq dəyişikliyə əsasən 2019-cu ilin 1 oktyabr tarixindən isə 200,0 manat məbləğində müəyyən edilmişdir. Pensiyaçıların təxminən yarısının pensiyasının 200,0 manata çatdırılması pensiya xərclərinin artımına təsirsiz ötüşməməklə

pensiya sisteminin maliyyə yükünün artmasına şərait yaradacaqdır. Müvafiq məlumatlara əsasən, pensiyanın minimum məbləğinin artıma qədər olan 119,76 manat (110,0 manat (01.07.2017-ci il tarixə pensiyanın minimum məbləği) + 5,7% (01.01.2018-ci il tarixə indeksləşmə) + 3,0% (01.01.2019-cu il tarixə indeksləşmə)) məbləğindən 160,0 manata çatdırılması 2019-cu ilin 9 ayı ərzində 49,0 mln. manat, 160,0 manatdan 200,0 manata çatdırılması isə 2019-cu ilin 3 ayı ərzində 54,0 mln. manat əlavə vəsaitə ehtiyac doğuracaqdır.

Təqdim edilmiş məlumatlara əsasən Alıcılıq Qabiliyyəti Pariteti (PPP) üzrə Azərbaycandakı minimum pensiya məbləği hazırda Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələr arasında birinci yerdədir. Bu pensiyaçıların öz xərclərini ödəməsi və onların rifah halının yaxşılaşdırılması baxımından təqdirəlayiq haldır. Bununla belə, sığorta ödəmələrini qısa müddətdə etməklə pensiya hüququ verən sığorta stajını “qazanan” və ya sığorta stajının az olması səbəbindən az məbləğdə pensiya alan pensiyaçıların pensiya məbləğlərinin sığorta prinsipləri tətbiq edilmədən artırılaraq 200,0 manata çatdırılması 01.01.2006-cı il tarixədək bütün əmək qabiliyyətli yaş dövründə işləyərək sosial sığorta haqqı ödəmiş, lakin pensiya məbləği az olan pensiyaçıların aldıqları məbləğ və baxımından fərqlilik yaradır.

*Bu baxımdan pensiyanın minimum məbləğinin qaldırılması əsasında minimum pensiya məbləğindən çox olan pensiya məbləğlərinin də yenidən hesablanması məsələsinə baxılması istiqamətində tədbirlərin görülməsi məqsədəmüvafiq hesab edilir.*

İşləyən pensiyaçıların pensiya məbləğlərinin yenidən hesablanması da pensiya xərclərinin artımını şərtləndirən amil kimi çıxış etməkdədir. Belə ki, Qanunun 37.3.1-ci maddəsinə əsasən 01.07.2017-ci il tarixdən pensiya təyin olunduqdan sonrakı dövrdə qazanılan pensiya kapitalı nəzərə alınmaqla pensiyanın yenidən hesablanması şəxslər işləməyən əmək pensiyaçısı kateqoriyasına keçdikdə, yaxud pensiya təyin olunduğu gündən sonra 6 il və daha çox işlədikdə həyata keçirilir və sonrakı belə hesablamalar hər növbəti 6 ildən bir aparılır. Dəyişikliklərə qədər pensiyanın yenidən hesablanaraq artırılması pensiyaçı işdən çıxdıqdan sonra həyata keçirilirdisə, dəyişiklikdən sonra həmin hesablamalar nəticəsində pensiyanın artımı hər 6 ildən bir aparılır və bu da pensiya məbləğinin artımına şərait yaradır. Müvafiq statistik məlumatlara əsasən yaşa görə əmək pensiyası təyin edilmiş işləyən pensiyaçıların orta aylıq pensiya məbləğləri 01.01.2017-ci il tarixə 220,4 manat, 01.07.2017-ci il tarixə 232,4 manat və ya ilin əvvəlinə nisbətən 12,0 manat (5,4%) çox, 01.01.2018-ci il tarixə 265,8 manat və ya 2017-ci ilin əvvəlinə nisbətən 45,4 manat (20,6%) çox, 01.01.2019-cu il tarixə 288,3 manat və ya 2017-ci ilin müvafiq dövrünə nisbətən 67,9 manat (30,8%) çox olmuşdur ki, bu da ümumi pensiya xərclərinə təsirsiz ötüşməmişdir.

Pensiyaçılara keçmiş dövrlərə görə ödənilən pensiya məbləğlərinin də pensiya xərclərinə təsirini nəzərdən qaçırmaq olmaz. Qanunun 32.1-1-ci maddəsinə əsasən əmək pensiyaları onu almaq hüququ yarandığı gündən, lakin bu Qanunun qüvvəyə mindiyi gündən tez olmamaqla və müraciət edilən tarixdən əvvəlki ən çoxu üç il üçün ödənilməklə, bu maddədə müəyyən edilmiş müddətlərə təyin edilir. 2019-cu ilin 1 yanvar tarixindən Qanuna uyğun olaraq ötən dövr üçün hesablanan pensiyanın ümumi məbləği ötən dövrdəki ayların sayına bölünərək aylıq pensiyanın üzərinə əlavə edilməklə ödənilir. İlk növbədə qeyd edilməlidir ki, Qanunun qeyd edilən maddəsinin müddəaları arasında ziddiyyət vardır. Belə ki, maddənin əvvəlində əmək pensiyalarının onu almaq hüququ yarandığı gündən təyin olunması qeyd edildiyi halda sonrakı hissədə pensiya məbləğinin müraciət edilən tarixdən əvvəlki ən çoxu üç il üçün ödənilməsi göstərilir. Bu isə 5 il əvvəl pensiya hüququ yaranmış hər hansı pensiyaçıya son 3 il üçün pensiyanın ödənilməsi, ondan əvvəlki 2 il üçün formalaşan pensiya məbləğinin isə pensiya hüququ olduğu halda ödənilməməsi anlamına gəlir. Son dövrlərdə aparılmış müvafiq nəzarət tədbirləri Fondun yerli orqanları tərəfindən pensiya təyinatı aparılarkən əvvəlki 3 ildən artıq müddətdə pensiya hüququ yaranmış şəxslərə pensiya təyinatının onların hüquqlarının yarandığı tarixdən deyil, müraciətdən 3 il qabaqkı tarixdən aparıldığını göstərmişdir ki, bu da yerli orqanlar tərəfindən pensiya təyinatının yuxarıda qeyd edilən məqama uyğunlaşdırıldığını göstərir.

Digər tərəfdən, yuxarıda qeyd edilən dəyişiklik şəxsin müraciət tarixindən əvvəlki dövr üzrə formalaşan pensiya məbləğinin artıq birdəfəlik deyil, növbəti dövr ərzində hissə-hissə ödəniləcəyini göstərir ki, bu da pensiyaçının əvvəlki dövrlərdə, məsələn hazırkı qanunvericiliyə uyğun olaraq əvvəlki 3 il üçün almalı olduğu pensiya məbləğinin sonrakı dövrlərdə, təxminən 3 il ərzində alacağı anlamına gəlir. Bu isə qanunvericilikdə həmin vəsaitlərin inflyasiya səviyyəsinə uyğun indeksləşdirilməsinin nəzərdə tutulmaması səbəbindən bu məbləğin alıcılıq qabiliyyətinə təsir edir.

*Yuxarıda qeyd edilənlər baxımından keçmiş dövrlərdə yaranmış pensiya hüquqları üzrə pensiyaçılara ödənilməli olan vəsaitlərin hesablanması və ödənilməsi məsələlərinə yenidən baxılması məqsədəmüvafiq hesab edilir.*

Həmçinin, qeyd edilməlidir ki, keçmiş dövrlərə görə ödəmələr üzrə pensiyaçı qarşısında faktiki olaraq ödəniş öhdəliyi və ya kreditor borc yaranır. Hesablama Palatasının cari il üzrə müvafiq rəyində də qeyd olunduğu kimi, həmin vəsaitlər heç bir uçot-hesabat sənədində kreditor borc kimi uçota alınmır ki, bu da Fondun pensiya ödənişi üzrə xərclərinin hesablanması zamanı öhdəliklərin də nəzərə alınmasına və daha dəqiq proqnozlaşdırılmanın aparılmasına maneə yaradır. *Bu baxımdan, pensiyaçılara keçmiş dövrlər üzrə gələcək*

*dövrlərdə ödəniləcək vəsaitlərin məbləğinin kreditor borc kimi uçota alınması məqsədəmüvafiqdir.*

Yuxarıda vurğulanan məsələlərlə yanaşı, Qanuna qeyd edilən dəyişikliyin Fondun büdcəsinin maliyyə dayanıqlılığına təsiri də danılmazdır. Belə ki, əvvəlki dövrlərdə yaranmış pensiya hüquqları üzrə ödəmələr Fondun büdcəsi üçün əlavə maliyyə yükü yaradır. Pensiya məbləğinin isə birdəfəlik deyil, hissə-hissə ödənilməsi həmin yükün gələcək dövrlərdə bölüşdürülməsi, nəticədə də Fondun büdcəsinin daha qısa müddətdə məruz qala biləcəyi birdəfəlik maliyyə təsirlərinin daha uzun müddətdə hissə-hissə qarşılanması anlamına gəlir.

Pensiyaların ödənilməsi xərclərinin artması həmin xərclərin ÜDM-də xüsusi çəkisində də özünü göstərəcəkdir. Belə ki, müvafiq göstəricilərə əsasən 2020-ci ildə pensiyaların ödənilməsi xərclərinin ÜDM-ə nisbətinin 5,5% olacağı proqnozlaşdırılır. Qeyd edilən göstərici 2017-ci ildə 4,5%, 2018-ci ildə 4,4% təşkil etmiş, 2019-cu ildə isə 4,9% olacağı proqnozlaşdırılmışdır. Beləliklə də, pensiyaların ödənilməsi xərclərinin ÜDM-ə nisbətinin cari il və gələn ildə də artması tendensiyası davam edəcəkdir ki, bu da pensiya xərclərinin həmin dövrlərdə nəzərəçarpacaq artımı səbəbindən qeyd olunan xərclərin 16,5%-lik artım səviyyəsinin ÜDM-in 5,3%-lik artım səviyyəsini dəfələrlə üstələməsi ilə əlaqələndirilə bilər.

Qeyd edilməlidir ki, bu göstərici dünya ölkələri üzrə orta hesabla 7-8% təşkil edir və ölkəmizdə də həmin göstəricinin artımı və tədricən ümumi orta göstəriciyə yaxınlaşması pensiyaçıların sosial müdafiəsinin təmin edilməsi baxımından əhəmiyyətlidir.

“Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasinin Qanununa əsasən fərdi hesabın sığorta hissəsində qeydə alınan pensiya kapitalının ildə bir dəfə ölkə üzrə orta aylıq nominal əməkhaqqının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən illik artım tempinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən indeksləşdirilməsinin 01.10.2019-cu il tarixdən ləğv ediləcəyi, sığortaolunanların fərdi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalının ildə bir dəfə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunan istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən indeksləşdiriləcəyi nəzərdə tutulmuşdur.

Ölkə üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun indeksləşdirmə 01.10.2019-cu il tarixədək həm əmək pensiyasının sığorta hissəsinə, həm də fərdi hesabın sığorta hissəsində qeydə alınan pensiya kapitalına aid olduğu halda 01.10.2019-cu il tarixdən fərdi hesabın sığorta hissəsində qeydə alınan pensiya kapitalı, əvvəlki dövrlərdə olduğu kimi, istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun indeksləşdiriləcəkdir. Bu isə son dövrlərdə əmək haqlarının nəzərəçarpacaq artım tempinin istehlak qiymətləri indeksinin artım

tempini üstələdiyi şəraitdə fərdi hesabın sığorta hissəsində qeydə alınan pensiya kapitalının nisbətən aşağı səviyyəli artımı anlamına gəlir ki, bu da gələcəkdə pensiya təminatı sisteminin maliyyə yükünün nisbətən azalmasına xidmət edir.

## HAŞİYƏ

***PENSİYALARIN ÖDƏNİLMƏSİ XƏRCLƏRİNİN ÜDM-Ə NİSBƏTİ, %-LƏ***

| | 2010 | 2020 | 2030 |
|---|---|---|---|
| Avstraliya | 4,7 | 4,9 | 5,5 |
| Kanada | 4,9 | 6,0 | 6,8 |
| Fransa | 13,3 | 12,6 | 13,4 |
| Almaniya | 10,6 | 10,7 | 11,7 |
| Yunanıstan | 12,1 | 12,2 | 12,4 |
| İtaliya | 14,7 | 12,8 | 13,1 |
| Yaponiya | 10,0 | 10,3 | 9,8 |
| İspaniya | 9,2 | 9,8 | 9,7 |
| İsveç | 9,6 | 8,8 | 8,6 |
| Birləşmiş Krallıq | 6,3 | 5,7 | 6,7 |
| ABŞ | 6,8 | 7,4 | 8,5 |
| Çin | 3,4 | 4,7 | 6,7 |
| Estoniya | 9,3 | 7,4 | 6,8 |
| Latviya | 6,1 | 6,2 | 7,1 |
| Litva | 7,6 | 7,1 | 8,4 |
| Malaziya | 3,0 | 4,0 | 4,9 |
| Pakistan | 0,6 | 0,6 | 0,7 |
| Polşa | 11,3 | 9,4 | 9,2 |
| Rumıniya | 7,5 | 8,8 | 9,0 |
| Rusiya | 8,1 | 10,0 | 11,2 |
| Türkiyə | 6,3 | 8,0 | 10,7 |
| Ukrayna | 17,7 | 18,5 | 19,4 |
| **Orta hesabla** | **7,0** | **7,3** | **8,1** |
| **İnkişaf etmiş ölkələr** | **8,4** | **8,7** | **9,6** |
| **İnkişaf etməkdə olan ölkələr** | **5,6** | **5,8** | **6,5** |

***Mənbə:*** *Beynəlxalq Valyuta Fondunun Fiskal İşlər Departamenti tərəfindən "İnkişaf etmiş və inkişaf etməkdə olan iqtisadiyyatlarda dövlət pensiya islahatları üzrə çağırış" mövzusunda 2011-ci ildə hazırlanmış araşdırma sənədi*

Pensiya ödənişləri üzrə xərclərin proqnozlaşdırılması baxımından pensiyaçıların sayı amilini də nəzərdən qaçırmaq olmaz. 2017-ci, 2018-ci illərin və 2019-cu ilin I yarısında təyin

edilən və müxtəlif səbəblərdən dövriyyədən çıxan pensiya işlərinin sayı da 2019-cu ilin 1 yanvar tarixindən Qanuna edilmiş dəyişikliklərin ümumi saya təsirini göstərir (Şəkil 2)

**Şəkil 2. 2017-ci, 2018-ci və 2019-cu ilin I yarısında təyin edilən və dövriyyədən çıxan pensiya işlərinin saylarına dair**




Göründüyü kimi, 2017-ci ilin I yarısında 39859, həmin ilin II yarısında 15147, 2018-ci ildə 29263 və 2019-cu ilin I yarısında isə 20960 pensiya işi təyin edilmiş, həmin dövrlərdə, müvafiq olaraq, 13108, 24792, 51326 və 24003 pensiya işi pensiyaçının vəfatı və digər səbəblərdən uçotdan çıxarılmış, 2017-ci ilin I yarısının sonuna müsbət saldo 26751 ədəd təşkil etdiyi halda həmin ilin sonuna 9645 ədəd, 2018-ci ilin sonuna isə 22063 ədəd mənfi saldo formalaşmış, Qanuna 01.01.2019-cu il tarixdən edilmiş dəyişiklik nəticəsində 2019-cu ilin I yarısında mənfi saldo 3043 ədədədək azalmışdır.

Pensiyaçıların vəfatetmə səviyyəsinin də pensiyaçıların, xüsusilə də yaşa görə pensiya alanların sayına təsiri nəzərdən qaçırılmamalıdır.

Təqdim edilmiş "Əmək pensiyaları haqqında hesabat" (1-pensiya №li forma) məlumatlarına əsasən 2017-ci, 2018-ci və 2019-cu illərdə pensiya işlərinin növlər üzrə sayının dəyişməsi dinamikası Cədvəl 6-da verilmişdir.

Pensiya növləri üzrə son dövrlərin icra göstəriciləri fərqli dinamikalara malik olmuşdur. Belə ki, Qanuna ciddi dəyişikliklərin qüvvəyə mindiyi 2017-ci ilin 1 iyul tarixindən 01.07.2019-cu il tarixədək 2 il ərzində pensiyaçıların ümumi sayı azalma tendensiyasına malik olmuş, həmin tendensiya özünü yaşa görə pensiya növündə göstərmişdir.

**Cədvəl 6. 2018-ci, 2019-cu və 2020-ci illərdə pensiyaçıların növlər üzrə sayı**

| | Pensiyaçıların sayı, min nəfər | | | |
|---|---|---|---|---|
| | cəmi | o cümlədən | | |
| | | yaşa görə | əlilliyə görə | ailə başçısının itirilməsinə görə |
| 01.07.2017-ci il tarixə (faktiki) | 1328,4 | 788,6 | 389,5 | 150,3 |
| 01.01.2018-ci il tarixə (faktiki) | 1318,4 | 778,0 | 389,8 | 150,6 |
| 01.01.2019-cu il tarixə (faktiki) | 1295,5 | 756,1 | 390,1 | 149,3 |
| 01.07.2019-cu il tarixə (faktiki) | 1291,3 | 754,1 | 387,8 | 149,4 |
| 01.01.2020-ci il tarixə (proqnoz) | 1282,1 | 747,5 | 386,7 | 147,9 |
| 01.01.2021—ci il tarixə (layihə) | 1268,8 | 739,0 | 383,2 | 146,6 |

Pensiyaçıların ümumi sayı 01.07.2017-ci il tarixə 1328,4 min nəfər (o cümlədən, yaşa görə pensiya növü üzrə 788,6 min nəfər, əlilliyə görə pensiya növü üzrə 389,5 min nəfər, ailə başçısının itirilməsinə görə pensiya növü üzrə 150,3 min nəfər), 01.01.2008-ci il tarixə 1318,4 min nəfər (o cümlədən, yaşa görə pensiya növü üzrə 778,0 min nəfər, əlilliyə görə pensiya növü üzrə 389,8 min nəfər, ailə başçısının itirilməsinə görə pensiya növü üzrə 150,6 min nəfər), 01.01.2019-cu il tarixə 1295,5 min nəfər (o cümlədən, yaşa görə pensiya növü üzrə 756,1 min nəfər, əlilliyə görə pensiya növü üzrə 390,1 min nəfər, ailə başçısının itirilməsinə görə pensiya növü üzrə 149,3 min nəfər), 01.07.2019-cu il tarixə isə 1291,3 min nəfər (o cümlədən, yaşa görə pensiya növü üzrə 754,1 min nəfər, əlilliyə görə pensiya növü üzrə 387,8 min nəfər, ailə başçısının itirilməsinə görə pensiya növü üzrə 149,4 min nəfər) təşkil etmişdir. Göründüyü kimi, yaşa görə pensiya növü üzrə say göstəricisi 01.07.2017-01.01.2019-cu il dövründə daha kəskin azalma dinamikasına (2017-ci ilin II yarısında 10,6 min nəfər, 2018-ci ildə 21,9 min nəfər) malik olmuşdur ki, bu da 01.07.2017-ci il tarixdən Qanuna edilmiş dəyişiklikdən sonra yaşa görə əmək pensiyası hüququnun yaranması üçün tələb edilən iş (sosial sığorta) stajının 12 ildən 25 ilə qaldırılması və yaş həddinin artırılması ilə əlaqələndirilə bilər.

2019-cu ilin I yarısında isə sayda azalma cəmi 2,0 min nəfər olmuş, buna 2019-cu ilin 1 yanvar tarixindən Qanuna edilmiş dəyişiklik nəticəsində sığorta stajı güzəştinin tətbiq edilməsi səbəbindən daha çox şəxsin pensiya hüququ əldə etməsi və yaşa görə təyinat sayının nisbi artımı şərait yaratmışdır.

Əlilliyə görə pensiyaçıların say göstəriciləri 01.07.2017-01.01.2019-cu il dövründə artmış (o cümlədən, 2017-ci ilin II yarısında 0,3 min nəfər, 2018-ci ildə 0,3 min nəfər), cari ilin I yarısında isə 2,3 min nəfər azalmışdır. Kəskin azalma, əsas etibarilə, 01.03.2019-cu il tarixdən minimum pensiya məbləğinin 119,76 manat məbləğindən 160,0 manat məbləğinə qaldırılması və buna görə də bu pensiya növü üzrə hüququn yaranması hallarının azalması,

eləcə də əlillik dərəcələrinin verilməsi və saxta əlillik dərəcələrinin ləğv edilməsi istiqamətində Nazirliyin fəaliyyəti nəticəsində baş vermişdir.

Minimum pensiya məbləğinin 01.10.2019-cu il tarixdən 200,0 manata qaldırılmasının əlilliyə görə pensiya alanların sayının daha da azalmasına şərait yaradacağı ehtimal olunandır. 2019-cu ilin I yarısında əlilliyə görə ilkin təyin edilən sosial müavinət işlərinin sayı da yuxarıda qeyd olunanları dəstəkləyir. Belə ki, Fond tərəfindən təqdim edilmiş "Dövlət sosial müavinətləri, kompensasiyaları və təqaüdləri haqqında hesabat"a (1-sosial müavinət, kompensasiya və təqaüd №-li forma) əsasən 2019-cu ilin I yarısında əlilliyə görə 4216 sayda ilkin sosial müavinət işi təyin edilmişdir ki, bu da 2018-ci ilin müvafiq dövründə təyin edilmiş 3342 sayda ilkin sosial müavinət işlərinin sayından 26,2% çoxdur. Bu isə 2019-cu ilin I yarısında 2018-ci ilin I yarısına nisbətən daha çox vətəndaşın əlilliyə görə əmək pensiyası hüququnun yaranmaması deməkdir.

Ailə başçısının itirilməsinə görə pensiya alanların sayı isə daha fərqli dinamikaya malik olmuşdur. Belə ki, həmin say 2017-ci ilin II yarısında 0,3 min nəfər artmış, 2018-ci ildə 1,3 min nəfər azalmış, 2019-cu ilin I yarısında isə 0,1 min nəfər artmışdır. Bu pensiya növü üzrə fərqli dinamika, əsas etibarilə, digər növ pensiyalar üzrə növdəyişmə və əlilliyi olan, lakin əlilliyə görə pensiya hüququ olmayan şəxslərin bir qisminin bu pensiya növü üzrə pensiya hüququnun qazana bilməsi ilə əlaqələndirilə bilər.

Pensiyaçıların sayı üzrə cari ilin proqnoz və gələn ilin layihə göstəriciləri də azalma tendensiyasına malikdir. Belə ki, carı ilin sonuna ilin ortasına nisbətən 9,2 min nəfər azalma nəzərdə tutulmuş, pensiyaçıların sayının 1282,1 min nəfər (o cümlədən, yaşa görə pensiya növü üzrə 747,5 min nəfər, əlilliyə görə pensiya növü üzrə 386,7 min nəfər, ailə başçısının itirilməsinə görə pensiya növü üzrə 147,9 min nəfər) olacağı proqnozlaşdırılmışdır. Başqa sözlə, ilin ortasına nisbətən yaşa görə pensiya növü üzrə sayda 6,6 min nəfər və ya 0,9%, əlilliyə görə pensiya növü üzrə 1,1 min nəfər və ya 0,3%, ailə başçısının itirilməsinə görə pensiya növü üzrə 1,5 min nəfər və ya 1,0% azalma nəzərdə tutulmuşdur. 2019-cu ilin iyul ayından yaşa görə əmək pensiyasının təyin edilməsi üçün kişilər üzrə yaş həddi 64 yaş 6 ay, qadınlar üçün isə 61 yaş 6 ay olaraq müəyyənləşdirilmişdir ki, bu da yaşa görə əmək pensiyası hüququ qazanacaq şəxslərin sayında azalmanı şərtləndirəcəkdir. Əlilliyə görə pensiyaçıların sayı isə bu pensiya növü üzrə əmək pensiyası hüququnun əlaqəli formada müəyyənləşdirildiyi pensiyanın minimum məbləğinin artırılması və bununla da fərdi hesabın sığorta hissəsində tələb olunan pensiya kapitalının məbləğinin də artırılması ilə əlaqələndirilə bilər.

Gələn il isə pensiyaçıların sayının 1268,8 min nəfər (o cümlədən, yaşa görə pensiya növü üzrə 739,0 min nəfər, əlilliyə görə pensiya növü üzrə 383,2 min nəfər, ailə başçısının itirilməsinə görə pensiya növü üzrə 146,6 min nəfər) olacağı nəzərdə tutulur. Göründüyü kimi, cari ilin sonuna nisbətən pensiyaçıların ümumi sayında 13,3 min nəfər və ya 1,0%, o cümlədən, yaşa görə pensiyaçıların sayında 8,5 min nəfər və ya 1,1%, əlilliyə görə pensiya alanların sayında 3,5 min nəfər və ya 0,9%, ailə başçısının itirilməsinə görə pensiya alanların sayında isə 1,3 min nəfər və ya 0,9% azalma proqnozlaşdırılmışdır. Bu isə pensiya növləri üzrə cari ilin yekunlarına dair yuxarıda qeyd edilən mülahizələri gələn ilin sonu üçün də deməyə əsas yaradır.

Təqdim edilmiş məlumatlara əsasən 2018-ci ilin illik göstəriciləri ilə müqayisədə 2019-cu ilin I yarısının yekunu üzrə yaşa və əlilliyə görə əmək pensiyaçılarının ümumi saydakı xüsusi çəkisinin azalma və ailə başçısının itirilməsinə görə əmək pensiyalarının xüsusi çəkisinin isə artma tendensiyaları davam etmişdir. Belə ki, 01.07.2019-cu il tarixə uçotda olan 1261193 sayda pensiya işindən 754057-si və ya 59,8%-i yaşa görə, 387842-i və ya 30,8%-i əlilliyə görə, 119294-i və ya 9,4%-i isə ailə başçısının itirilməsinə görə əmək pensiyaları olmuşdur. Həmin xüsusi çəki göstəriciləri 2017-ci ilin yekunu üzrə, müvafiq olaraq, 60,5%, 30,3 və 9,2%, 2018-ci ilin yekunu üzrə, müvafiq olaraq, 59,8%, 30,9% və 9,3%, təşkil etmişdir.

Eyni vəziyyət əmək pensiyasının növləri üzrə xərclənmiş vəsaitdə də özünü göstərir. Belə ki, müvafiq hesabat forması üzrə hesablamalara əsasən 2019-cu ilin I yarısının yekunlarına görə hərəkətdə olan pensiya işləri üzrə cəmi xərclənmiş vəsaitin 65,3%-i yaşa görə, 25,9%-i əlilliyə görə, 8,8%-i isə ailə başçısının itirilməsinə görə pensiyaların ödənilməsinə xərclənmişdir. Həmin göstəricilər 2017-ci ilin yekunu üzrə, müvafiq olaraq, 67,1%, 24,5% və 8,4%, 2018-ci ilin yekunu üzrə, müvafiq olaraq, 65,7%, 25,5% və 8,8% olmuşdur.

Göründüyü kimi, növlər üzrə pensiya xərclərinin xüsusi çəki göstəriciləri dünya praktikasına əsasən müəyyən edilmiş göstəricilərdən, yəni yaşa görə pensiya növü üzrə ümumi xərclərin 75,0%-i, əlilliyə görə 15,0%-i, ailə başçısının itirilməsinə görə 10,0%-i göstəricisindən fərqlənir.

Pensiya təyinatı üzrə say göstəricilərinə, xüsusilə də əlilliyə görə pensiya təyinatına əmək pensiyasının minimum məbləğinin qaldırılmasının da təsiri nəzərdən qaçırılmamalıdır. Belə ki, Qanunun 7-ci və 12-1-ci maddəsində fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalının əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verməsi vacib şərtlərdən biri kimi qoyulur.

Həmin minimum məbləğin artırılması isə vətəndaşların əmək pensiyası hüququnun yaranması üçün “maneə”ni böyüdür. Qanunun 7-ci maddəsində pensiya yaşına çatmış vətəndaşların fərdi hesabının sığorta hissəsində qeydə alınmış pensiya kapitalının əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdiyi halda sığorta stajından asılı olmayaraq, bu pensiya təminatına imkan vermədikdə isə azı 25 il sığorta stajı olduqda (2017-ci il iyulun 1-dək yaşa görə əmək pensiyası təyin edilmiş şəxslər istisna olmaqla) yaşa görə əmək pensiyası hüququnun yarandığı göstərilir. Qanunvericiliklə müəyyən edilən gözlənilən pensiya ödənişi müddəti olan 144 ay hesabı ilə 200,0 manat pensiya məbləğinin alınması üçün fərdi hesabın sığorta hissəsində 28,8 min manat (144 ay X 200,0 manat) pensiya kapitalı olmalıdır. Tələb olunan vəsait pensiyanın minimum məbləği aşağı olan dövrlərdə 15,84 min manat (144 ay X 110,0 manat), 16,74 min manat (144 ay X 116,27 manat), 17,25 min manat (144 ay X 119,76 manat) və 23,04 min manat (144 ay X 160,0 manat) olmuşdur.

Yuxarıda qeyd olunduğu kimi, 01.01.2019-cu il tarixdən fərdi hesabının sığorta hissəsində 2018-ci ilin 1 iyul tarixinə qeydə alınmış pensiya kapitalı olan vətəndaşa 2019-2020-ci illərdə müvafiq qanunvericiliklə müəyyən edilmiş yaş həddinə çatdığı zaman 2006-cı il yanvarın 1-dək 25 il, 2021-ci ildən etibarən isə hər təqvim ili üçün bir il azaldılmaqla sığorta stajı hesablanılır. Göründüyü kimi, tələb edilən sığorta stajının pensiya

**HAŞİYƏ**

*Beynəlxalq Valyuta Fondunun Fiskal İşlər Departamenti tərəfindən “İnkişaf etmiş və inkişaf etməkdə olan iqtisadiyyatlarda dövlət pensiya islahatları üzrə çağırış” mövzusunda 2011-ci ildə hazırlanmış araşdırma sənədinə əsasən yaşa görə pensiya növü üzrə xərclər ümumi pensiya xərclərinin dörddə üçünü, əlilliyə görə pensiya xərcləri 15%-ini, ailə başçısını itirməyə görə pensiya xərcləri isə 10%-ini təşkil edir və son 30 ildə bu nisbət aktual olaraq qalmışdır. Bununla belə, Avstraliya, İrlandiya, Yeni Zelandiya və Birləşmiş Krallıqda əlilliyə görə pensiya növü üzrə xərclərin səviyyəsində artım, Finlandiya, Lüksemburq, Niderland və Portuqaliyada isə azalma müşahidə edilmişdir. Buna səbəb kimi, əsas etibarilə, iqtisadi vəziyyət göstərilmişdir. Belə ki, iqtisadi geriləmə və islahatlar zamanı əlilliyə görə pensiya növü üzrə müraciətlərin sayı artım dinamikasına malik olur ki, bu da əmək bazarında da özünü büruzə verir.*

yaşına çatmış vətəndaşa "bağışlanması" onun pensiya hüququnun da yaranmasına kömək edir və bu zaman pensiyanın minimum məbləği ilə bağlı "maneə" aradan qalxır.

Əlilliyə görə pensiya növündə isə başqa mənzərə formalaşır. Belə ki, 25 il sosial sığorta stajının hesablanması və əgər pensiyanın məbləği minimum pensiya məbləğindən az alınarsa həmin məbləğin pensiyanın minimum məbləğinə çatdırılması yalnız yaşa görə pensiya növünə şamil edilir. Əlilliyə görə pensiya növündə isə vətəndaşın pensiya hüququnun yaranması üçün zəruri staja malik olması, eləcə də hesablanmış pensiya məbləğinin pensiyanın minimum məbləğindən az olmaması vacib şərt kimi qoyulur. Başqa sözlə, vətəndaş zəruri staja malik olsa belə əlilliyə görə pensiya təyinatı üçün onun fərdi hesabının sığorta hissəsində pensiyanın minimum məbləğini keçməyə kifayət edə biləcək pensiya kapitalının olması mütləq tələbdir. Bu baxımdan pensiyanın minimum məbləğinin artırılaraq 200,0 manata çatdırılmasının əlilliyə görə təyin edilən pensiya işlərinin sayına mənfi təsirini proqnozlaşdırmaq olar ki, bu da qeyd edilən pensiya növü üzrə say göstəricisinin son dövrlərdə artım tendensiyasının qarşısının alınması və Hesablama Palatasının əvvəlki illərdəki müvafiq rəylərində bu istiqamətdə tövsiyələrinin nəzərə alınması, eləsə də erkən pensiyaya çıxma hallarının məhdudlaşdırılmasına dair Konsepsiyanın tələbləri baxımından təqdirəlayiq haldır.

01.01.2019-cu il tarixdən Qanuna edilmiş dəyişikliklə müvafiq şəxslərə 01.01.2006-cı il tarixədək 25 il sosial sığorta stajının hesablanmasının yaşa görə pensiya təyinatına, minimum pensiya məbləğinin qaldırılmasının isə əlilliyə görə pensiya təyinatına təsiri 2019-cu ilin I yarısında təyin edilən pensiya işlərinin sayında da özünü göstərmişdir (Cədvəl 7).

**Cədvəl 7. 2017-ci, 2018-ci illər və 2019-cu ilin I yarımili üzrə təyin edilmiş pensiya işlərinin sayı və həmin işlər üzrə orta aylıq pensiya məbləğlərinə dair**

| | 2017 | | 2018 | | 2019-u ilin I yarımili | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Say, nəfər | Orta aylıq məbləğ, manat | Say, nəfər | Orta aylıq məbləğ, manat | Say, nəfər | Orta aylıq məbləğ, manat | 2017-ci illə müqayisə | | | | 2018-ci illə müqayisə | | | |
| | | | | | | | Say, nəfər | | Orta aylıq məbləğ, manat | | Say, nəfər | | Orta aylıq məbləğ, manat | |
| | | | | | | | +/- | % | +/- | % | +/- | % | +/- | % |
| Cəmi | 55006 | 222,9 | 29263 | 276,5 | 20960 | 238,8 | -34046 | 38,1 | 15,9 | 107,1 | -8303 | 71,6 | -37,7 | 86,4 |
| Yaşa görə | 32090 | 239,4 | 15024 | 281,1 | 16522 | 231,0 | -15568 | 51,5 | -8,3 | 96,5 | 1498 | 110,0 | -50,1 | 82,2 |
| Əlilliyə görə | 17454 | 194,7 | 9288 | 285,6 | 1961 | 269,3 | -15493 | 11,2 | 74,6 | 138,3 | -7327 | 21,1 | -16,2 | 94,3 |
| ABİ | 5462 | 215,9 | 4951 | 245,5 | 2477 | 266,4 | -2985 | 45,3 | 50,5 | 123,4 | -2474 | 50,0 | 21,0 | 108,5 |

Göründüyü kimi, 2019-cu ilin I yarımilində 20960 pensiya işi (o cümlədən, yaşa görə pensiya növü üzrə 16522 pensiya işi, əlilliyə görə pensiya növü üzrə 1961 pensiya işi, ailə başçısının itirilməsinə görə pensiya növü üzrə 2477 pensiya işi) təyin edilmişdir ki, bu da

2017-ci il illik göstəricisindən 34046 pensiya işi (o cümlədən, yaşa görə pensiya növü üzrə 15568 pensiya işi, əlilliyə görə pensiya növü üzrə 15493 pensiya işi, ailə başçısının itirilməsinə görə pensiya növü üzrə 2985 pensiya işi) azdır və ya həmin göstəricinin 38,1% i (o cümlədən, yaşa görə pensiya növü üzrə 51,5%, əlilliyə görə pensiya növü üzrə 11,2%, ailə başçısının itirilməsinə görə pensiya növü üzrə 45,3%) qədərdir, 2018-ci ilin illik göstəricisindən isə cəmi 8303 pensiya işi azdır (o cümlədən, yaşa görə pensiya növü üzrə 1498 pensiya işi çoxdur, əlilliyə görə pensiya növü üzrə 7327 pensiya işi, ailə başçısının itirilməsinə görə pensiya növü üzrə 2474 pensiya işi azdır) və ya həmin göstəricinin 71,6%-i qədərdir (o cümlədən, yaşa görə pensiya növü üzrə 110,0%, əlilliyə görə pensiya növü üzrə 21,1%, ailə başçısının itirilməsinə görə pensiya növü üzrə 50,0%). Başqa sözlə, 2019-cu ilin tək I yarısında yaşa görə 2018-ci ildə təyin olunandan çox sayda, əlilliyə görə 2018-ci ildə təyin edilənin təxminən 5-də 1-i qədər, ailə başçısının itirilməsinə görə isə 2018-ci ildəkinin yarısı qədər pensiya işi təyin edilmişdir. Yəni, yaşa görə pensiya təyinatında ciddi artım, əlilliyə görə pensiya təyinatında ciddi azalma müşahidə edilmiş, ailə başçısının itirilməsinə görə pensiya təyinatında nisbi ifadədə dəyişiklik olmamışdır (Şəkil 3)

**Şəkil 3. 2017-ci, 2018-ci illər və 2019-cu ilin I yarısında təyin edilmiş pensiya işlərinin sayı**




2019-cu ilin I yarısında təyin edilən pensiya işləri üzrə orta aylıq pensiya məbləğində isə ümumilikdə azalma müşahidə edilmişdir. Belə ki, həmin dövrdə təyin edilmiş pensiya işləri üzrə orta aylıq pensiya məbləği 238,8 manat (o cümlədən, yaşa görə pensiya növü üzrə 231,0 manat, əlilliyə görə pensiya növü üzrə 269,3 manat, ailə başçısının itirilməsinə görə pensiya növü üzrə 266,4 manat) təşkil etmişdir ki, bu da 2018-ci ildə təyin edilmiş pensiya işləri üzrə orta aylıq pensiya məbləğindən 37,7 manat azdır və ya həmin məbləğin 86,4%-i qədərdir. O cümlədən, 2018-ci ilə nisbətən yaşa görə pensiya növü üzrə orta aylıq pensiya məbləği 50,1 manat, əlilliyə görə pensiya növündə orta aylıq pensiya məbləği 16,2

manat azalmış, ailə başçısını itirməyə görə pensiya növündə isə orta aylıq pensiya məbləği 21,0 manat artmışdır.

***ARAYIŞ***

*Nazirlik tərəfindən təqdim edilmiş məlumata əsasən əlilliyin təyinatı sahəsində aparılmış islahatlar, şəffaflaşdırma işləri və nəzarət tədbirləri nəticəsində 2018-ci ildə 14,4 milyon manat, 2019-cu ilin 6 ayı ərzində 20,8 milyon manat olmaqla, cəmi 35,2 milyon manat vəsaitə qənaət edilmişdir.*

Yaşa görə təyin edilmiş pensiya işlərində orta aylıq pensiya məbləğinin 2018-ci ilə nəzərən 50,1 manat azalması əsas etibarilə, cari ilin 1 yanvar tarixindən Qanuna edilmiş dəyişiklikdən sonra yeni təyin edilən pensiya işlərinin içərisində minimum məbləğlə təyin edilən pensiya işlərinin xüsusi çəkisinin böyük olması ilə, əlilliyə görə orta pensiya məbləğinin isə Nazirlik tərəfindən son dövrlərdə əsassız əlillik dərəcələrinin verilməsinin qarşısının alınması istiqamətində aparılan tədbirlər nəticəsində böyük məbləğli pensiyaların da təyinatının aşağı salınması ilə əlaqələndirilə bilər.

Ümumilikdə isə respublika üzrə pensiya işlərinin orta aylıq məbləği 1 iyul 2019-cu il tarixinə olan statistik məlumata əsasən 232,3 manat ( o cümlədən, yaşa görə pensiya növü üzrə 259,3 manat, əlilliyə görə pensiya növü üzrə 197,6 manat və ailə başçısının itirilməsinə görə pensiya növü üzrə 232,3 manat) olmuşdur (Cədvəl 8)

**Cədvəl 8. Ümumi pensiya işləri üzrə pensiyanın orta aylıq məbləği**

| | 01.01.2018 | 01.01.2019 | 01.07.2019 | 01.07.2019 | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | 01.01.2018 ilə müqayisə | | 01.01.2019 ilə müqayisə | |
| | | | | +/- | % | +/- | % |
| Ümumi | 208,4 | 221,4 | 232,3 | 23,9 | 111,5 | 10,9 | 104,9 |
| Yaşa görə | 233,7 | 249,3 | 259,3 | 25,6 | 110,9 | 10,0 | 104,0 |
| Əlilliyə görə | 175,0 | 185,0 | 197,6 | 22,6 | 112,9 | 12,7 | 106,8 |
| ABİ | 208,5 | 221,7 | 234,2 | 25,6 | 112,3 | 12,5 | 105,6 |

Göründüyü kimi, 01.07.2019-cu il tarixə pensiyanın orta aylıq məbləği ilin əvvəlinə nisbətən 10,9 manat və ya 4,9% (o cümlədən, yaşa görə pensiya növü üzrə 10,0 manat və ya 4,0%, əlilliyə görə pensiya növü üzrə 12,7 manat və ya 6,8% və ailə başçısının itirilməsinə görə pensiya növü üzrə 12,5 manat və ya 5,6%) artmışdır ki, bu da həm minimum pensiya məbləğinin artımı, həm də pensiyaların sığorta hissəsinin ölkə üzrə orta

aylıq nominal əmək haqqının illik artım tempinə uyğun olaraq indeksləşdirilməsi, eləcə də pensiyalarının yenidən hesablanması ilə izah oluna bilər. Qeyd edilməlidir ki, əlilliyə görə pensiya növü üzrə orta aylıq məbləğin artımı daha nəzərə çarpandır. Bu artım isə, əsas etibarilə, III qrup əlilliyə görə pensiya növü hesabına formalaşmışdır (Cədvəl 9).

**Cədvəl 9. Əlilliyə görə pensiya növü üzrə orta aylıq məbləğlərə dair**

| | 01.01.2018 | 01.01.2019 | 01.07.2019 | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | məbləğ | artım/azalma | | | |
| | | | | 01.01.2018-ci ilə nəzərən | | 01.01.2019-cu ilə nəzərən | |
| | | | | +/- | % | +/- | % |
| Əlilliyə görə pensiyaların orta aylığı | 175,0 | 185,0 | 197,6 | 22,6 | 112,9 | 12,6 | 106,8 |
| I dərəcə əlillik | 232,1 | 240,6 | 238,2 | 6,1 | 102,6 | -2,4 | 99,0 |
| II dərəcə əlillik | 167,2 | 175,0 | 186,3 | 19,1 | 111,4 | 11,3 | 106,5 |
| III dərəcə əlillik | 102,0 | 127,1 | 174,8 | 72,8 | 171,4 | 47,7 | 137,5 |

Beləliklə də, III qrup əlilliyə görə pensiyanın orta aylıq məbləğində daha kəskin artım olmuşdur ki, bu da həmin növ üzrə pensiyanın əvvəlki qanunvericiliyə uyğun məbləğinin pensiyanın o dövrdəki baza hissəsindən, sonradan isə pensiyanın minimum məbləğindən aşağı olması və həmin məbləğə çatdırılması ilə əlaqədardır. (Şəkil 4).

**Şəkil 4. Əlilliyə görə pensiyanın əlillik dərəcələri üzrə orta aylıq məbləği**




II qrup əlillikdə ciddi artımın olmaması əvvəlki qanunvericilikdə II qrup üzrə pensiyanın baza hissəsinin ümumi baza hissəsinə və sonradan minimum pensiya məbləğinə bərabər olması, I qrup üzrə azalma isə Qanuna edilmiş dəyişikliyə əsasən 01.04.2019-cu il tarixdən pensiyanın sığorta hissəsinə əlilə qulluqla əlaqədar əlavənin ləğv edilməsi ilə əlaqələndirilə bilər.

Fond tərəfindən təqdim edilmiş məlumata əsasən 2019-cu ilin 6 ayı üzrə pensiyaların ödənilməsi xərcləri 1812,0 mln. manat təşkil etmiş, 1871,5 mln. manat məbləğində proqnoz

96,8% icra edilmişdir. Göründüyü kimi, 1871,5 mln. manat məbləğində 6 aylıq proqnoz göstəricisi bu istiqamət üzrə 3918,4 mln. manat məbləğində təsdiq olunmuş illik proqnoz göstəricisinin 47,8%-i qədərdir ki, bu da həmin proqnoz göstəricisinin aşağı səviyyədə müəyyənləşdirilməsi və riyazi hesablamalarla yarımillik 1959,2 mln. manat proqnoz göstəricisinin daha da aşağı səviyyədə (92,5%) icra olunduğunu göstərir. Yuxarıda qeyd edildiyi kimi, dövlət büdcəsindən Fonda ayırmaların yarımillik səviyyəsinin yüksək, MDSSH üzrə yarımillik icranın isə aşağı səviyyədə icrası şəraitində pensiya xərclərinin də yarımillik dövrdə aşağı səviyyəli icrası, əsas etibarilə, MDSSH üzrə daxilolmaların az məbləğdə daxil olması ilə əlaqələndirilməsi mümkündür.

Əmək pensiyaları üzrə müvafiq statistik hesabatlara əsasən 01.07.2019-cu il tarixə pensiyanın sığorta hissəsinin ödənilməsi üzrə aylıq xərclər 261,9 mln. manat (87,3%), sığorta hissəsinə əlavənin ödənilməsi üzrə aylıq xərclər 3,3 mln. manat (1,1%) və qulluq stajına görə əlavənin ödənilməsi üçün aylıq xərclər isə 34,7 mln. manat (11,6%) təşkil etmişdir. Qeyd olunduğu kimi, müvafiq məlumatlara əsasən 2019-cu ilin oktyabr ayından əmək pensiyalarının minimum məbləğinin 200,0 manat çatdırılması ilə əlaqədar qanunvericilikdə edilmiş dəyişiklik orta hesabla 660,0 min nəfər pensiyaçını əhatə edəcəkdir ki, buna da əlavə olaraq orta hesabla 18,0 mln. manat vəsait tələb olunacaqdır. Başqa sözlə, cari ilin 1 iyul tarixinə olan məlumatlar əsas götürülməklə oktyabr ayından etibarən pensiyaların sığorta hissəsinin maliyyələşdirilməsi üçün tələb olunan vəsaitin 279,9 mln. manat (261,9 mln. manat + 18,0 mln. manat), növbəti ilin əvvəlinə orta aylıq əmək haqqı üzrə nəzərdə tutulan 13,9%-lik indeksləşdirmədən sonra isə 318,8 mln. manat olacağını ehtimal etmək olar. Bu isə riyazi hesablamalarla 3825,6 mln manat (318,8 mln. manat x 12ay) illik xərc deməkdir və ya təkcə pensiyanın sığorta hissəsinin ödənilməsinə gələn il üçün nəzərdə tutulmuş 4570,1 mln. manat vəsaitin 83,7%-inin sərf olunacağı anlamına gəlir.

Nəzərə alınmalıdır ki, Qanunun 29.2-ci maddəsinə əsasən əmək pensiyasının üzərində qulluq stajına görə əlavə alan şəxslərin pensiyalarının sığorta hissəsi bu Qanunun 29.1-ci maddəsinə uyğun olaraq artırıldıqda və ya yenidən hesablandıqda, qulluq stajına görə əmək pensiyasına əlavələrin məbləği həmin artımlar qədər azaldılmaqla yenidən hesablanır. Həmçinin, "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 25 fevral 2019-cu il tarixli 992 nömrəli Sərəncamına əsasən I qrup əlillərə qulluq üçün əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə I qrup əlilliyi olan şəxslərə qulluq edənlərə 50,0 manat məbləğində, döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarının əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə isə 80,0 manat məbləğində Azərbaycan Respublikası

Prezidentinin təqaüdünün təsis edilməsi nəzərdə tutulmuşdur. Qanunun 2019-cu ilin aprelinədək qüvvədə olmuş maddəsinə əsasən qeyd edilən şəxslərə təyin edilmiş əmək pensiyalarının üzərində I qrup əlillərə qulluq üçün və döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarına 11,0 manat məbləğində əlavə ödənilirdi. Həmin şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün verilməsi qeyd edilən əlavələrin də ümumi məbləğinin azalmasına şərait yaratmış, 01.01.2019-cu il tarixə bu istiqamət üzrə 4,0 mln. manat vəsait ödənildiyi halda 2019-cu ilin 1 iyul tarixinə 3,3 mln. manat və ya ilin əvvəlinə ödənilmiş vəsaitin 82,5%-i qədər vəsait ödənilmişdir.

2020-ci il üzrə “Büdcə zərfi” ilə birgə Hesablama Palatasına təqdim edilmiş məlumatlarda gələn il pensiyaçılar üçün yaşayış minimumunun məbləğinin 157,0 manat olacağı nəzərdə tutulmuşdur. Bu isə 01.10.2019-cu il tarixdən hesablanacaq 200,0 manat minimum pensiya məbləğinin Qanunun tələblərinə müvafiq olaraq 01.01.2020-ci il tarixdən ölkə üzrə orta aylıq nominal əmək haqqının proqnozlaşdırılan 13,9% illik artım tempinə uyğun indeksləşdirilməsi nəticəsində alınan 227,8 manat minimum pensiya məbləğinin pensiyaçılar üçün yaşayış minimumunun məbləğindən 70,8 manat və ya 45,1%, gələn il üçün proqnozlaşdırılan 293,0 manat orta aylıq pensiya məbləğinin isə 136,0 manat və ya 86,6% çox olması deməkdir. Göründüyü kimi, minimum və orta aylıq pensiya məbləğlərinin gələn il pensiyaçıların yaşayış minimumunun məbləğini nəzərəçarpacaq dərəcədə üstələyəcəyi proqnozlaşdırılır ki, bu da pensiyaçıların sosial müdafiəsi baxımından təqdirəlayiq hal kimi qiymətləndirilə bilər.

2018-ci ilin əvvəlinə olan statistik məlumatlara əsasən münasiblik əmsalının, başqa sözlə, 65 və daha yuxarı yaşlı əhalinin sayının pensiyaçıların ümumi sayında xüsusi çəkisinin artması tendensiyası davam etmişdir. Qeyd edilən yaş qrupu üzrə əhalinin sayı, 01.01.2017-ci il tarixə 620,3 min nəfər, 01.01.2018-ci il tarixə isə 648,2 min nəfər, 01.01.2019-cu il tarixə isə 678,3 min nəfər olmuşdur.

Pensiyaçıların sayının azalması fonunda müvafiq yaş qrupunda əhalinin sayı artım dinamikasına malikdir ki, bu da münasiblik əmsalının 2017-ci ilin əvvəlinə 47,2%, 2018-ci ilin əvvəlinə 49,2%, 2019-cu ilin əvvəlinə isə 52,2% səviyyəsində olmasına gətirib çıxarmışdır. Münasiblik əmsalının artımı bir tərəfdən əmək pensiyasını daha yuxarı yaşlı əhalinin alması, digər tərəfdən ÜDM-in formalaşmasında iştirak etməyən pensiyaçıların sayının da artması deməkdir.

**HAŞİYƏ**

*Pensiya xərcləri əhalinin həssas təbəqəsinə edilən ödəmələrlə bağlıdır və böyük sosial əhəmiyyət kəsb edir. Həmin xərclərin həcminə isə demoqrafik göstəricilər, əhalinin sağlamlıq səviyyəsi, yaş həddi və yaşama müddəti, pensiyaçıların sayı, onların iş (sosial sığorta) stajı və topladıqları sığorta kapitalı, əmək haqqının səviyyəsi, müvafiq qanunvericiliyin tələbləri kimi faktorlar təsir edir. Xüsusilə də son illərdə qanunvericilikdə edilmiş bir çox dəyişikliklər pensiya xərclərinin proqnozlaşdırılması sahəsində müəyyən çətinliklər yaradır ki, bu da son nəticədə ilin sonunda əlavə vəsaitlərin tələb olunması ilə nəticələnir.*

*Bütün təsiredici faktorları nəzərə almaqla pensiyaların ödənilməsi xərclərinin daha dəqiq və daha uzunmüddətli proqnozlaşdırılması istiqamətində tədbirlərin görülməsi, əvvəlki illərin təcrübəsinin də nəzərə alınması ilə tələb olunan xərclərin real məbləğinə uyğun vəsaitlərin nəzərdə tutulması üçün dəqiq hesblamaların aparılması, həssas məsələ olduğu üçün proqnozlaşdırmada ehtiyatlı yanaşmanın tətbiqi ilə vəsaitlərin çatışmazlığından mümkün qədər yayınmaqla hesablamaların aparılması çətinliklərin qarşısını ala bilər. Lakin, bu zaman həddən artıq çox vəsaitlərin də ehtiyac olmadan ayrılmamasının zəruriliyi nəzərdən qaçırılmamalıdır.*

Təqdim edilmiş məlumatlara əsasən gələn il əvəzləmə əmsalının, yəni orta aylıq pensiya məbləğinin orta aylıq əmək haqqı məbləğinə nisbəti artma tendensiyası davam edəcəkdir. Belə ki, qeyd edilən əmsal 2018-ci ildə 37,6% olmuş, cari ildə həmin əmsalın 40,3% olması gözlənilir, gələn il isə 40,9% olacağı proqnozlaşdırılır. Artıma, əsas etibarilə, gələn il orta aylıq pensiya məbləğinin 17,2%-lik artım tempinin orta aylıq əmək haqqının 15,5%-lik artım tempini nisbətən üstələməsi şərait yaradır. Əvəzləmə əmsalının böyüməsi vətəndaşların pensiyaya çıxdıqdan sonra itirdikləri əmək haqlarının daha çox hissəsinin kompensasiya olunması anlamına gəlsə də, pensiya xərclərinin maliyyələşdirilməsi üçün tələb olunan və MDSSH qismində əmək haqlarından formalaşan gəlirlərin səviyyəsinin nisbətdə azalması və tədricən həmin xərclərin ödənilməsi üçün kifayət etməməsi təhlükəsini yaradır.

İş yerlərinin sayının artması fonunda əmək pensiyaçılarının sayının azalması son dövrlərdə əmək pensiyaçılarının sayının muzdlu işdə çalışanların sayına nisbətinin də dəyişməsinə səbəb olmuşdur. Belə ki, müvafiq statistik məlumatlara əsasən 2017-ci və 2018-ci illərdə 1 nəfər pensiyaçıya orta hesabla 2,4 nəfər muzdlu işlə məşğul olan düşmuş, gələn il isə 2,5 nəfər düşəcəyi (3218 min nəfər/1297 min

nəfər) proqnozlaşdırılmışdır. Bu isə “6 nəfər pensiyaçıya 15 nəfər muzdla çalışan” deməkdir. Başqa sözlə, gələn ildə proqnozlaşdırılan orta aylıq əmək haqqı və orta aylıq pensiya məbləği əsasında riyazi hesablamalarla 6 nəfər pensiyaçının orta hesabla 1758,0 manat pensiya məbləğinin (6 nəfər x 293,3 manat orta aylıq pensiya məbləği) maliyyələşdirilməsinə 2686,0 manat məbləğində MDSSH ((716,7 manat orta aylıq əmək haqqı x 25% MDSSH) x 15 nəfər) düşəcəkdir. Müvafiq hesabatlara əsasən ümumi əmək haqqı fondunun məcburi dövlət sosial sığortasına cəlb edilməyən təxmini 11,0%-lik hissəsini də nəzərə aldıqda qeyd edilənlər MDSSH-larının artıqlığını və Fondun büdcəsinin maliyyə dayanıqlılığının möhkəmlənməsini ehtimal etməyə əsas verir.

Təqdim edilmiş məlumatlara əsasən 01.07.2019-cu il tarixə əmək pensiyası alan 1291,3 min nəfər pensiyaçının 1133,3 min nəfəri və ya 87,8%-i işləməyən, 1158,0 min nəfəri və ya 12,2%-i isə işləyən əmək pensiyaçıları olmuşdur. Həmin xüsusi çəki göstəriciləri 2018-ci ilin yekunu üzrə 88,3% və 11,7%, 2017-ci ilin yekunu üzrə, müvafiq olaraq, 88,9% və 11,1% təşkil etmişdir. *Göründüyü kimi, işləyən pensiyaçıların xüsusi çəkisi son dövrlərdə artım dinamikasına malik olmuşdur ki, bu da işləyən pensiyaçıların aldıqları pensiya məbləğlərinin ödənilməsində özlərinin ödədikləri MDSSH-nın da iştirakı baxımından məqsədəmüvafiqdir.*

Qeyd edilməlidir ki, son dövrlərdə əmək pensiyalarının təyinatının avtomatlaşdırılması ilə yanaşı əvvəlki dövrlərdə təyin edilmiş pensiya işləri üzrə avtomatlaşdırılmış məlumat bazasının formalaşdırılması istiqamətində Fond tərəfindən məqsədyönlü addımlar atılmış, Nazirliyin Kollegiyasının 2017-ci il 11 dekabr tarixli 17 nömrəli Qərarı ilə təsdiq edilmiş “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununa əsasən əmək pensiyalarının təyin edilməsi, yenidən hesablanması, bir növündən başqa növünə keçirilməsi və ödənilməsi Qaydaları”nın tələblərinə uyğun olaraq hərəkətdə olan və yeni təyin edilmiş əmək pensiyaları üzrə məlumatlar yeni yaradılmış Pensiya Alt Sisteminə ( PAS) işlənilmiş, 2018-ci ilin oktyabr ayından isə aylıq pensiya ödənişləri bütün ölkə üzrə PAS vasitəsilə həyata keçirilmişdir. Nazirlik tərəfindən təqdim edilmiş məlumata əsasən 2019-cu ilin 1 yanvar tarixindən yaşa görə, 1 mart tarixindən isə əlilliyə görə əmək pensiyalarının avtomatik olaraq proaktiv qaydada təyin olunmasına başlanılmışdır. Ötən dövr ərzində yaşa görə 13305, əlilliyə görə isə 817 olmaqla, ümumilikdə 14122 nəfərə pensiya elektron qaydada təyin olunmuşdur. Elektron pensiya təyinatı yaşa görə pensiya təyinatının 81,0%-ini, təyinatına başlanılmasından etibarən əlilliyə görə elektron pensiya təyinatının isə 95,0%-ini əhatə etmişdir. Həmçinin, növbəti ildən etibarən xüsusi şərtlərlə pensiya hüququ qazanmış şəxslərin də təyinat prosesi tam avtomatlaşdırılaraq proaktiv xidmətə keçirilməsi, müvafiq qurumlar tərəfindən tərtib və təsdiq edilmiş məlumatlar sistemə daxil edilməklə şəxslərin pensiya hüququna

avtomatlaşdırılmış qaydada baxılması və qəbul olunacaq qərar barəsində vətəndaşa və aidiyyəti quruma müvafiq məlumatın göndərilməsi nəzərdə tutulmuşdur. Bu da öz növbəsində pensiya təyinatlarının tam avtomatlaşdırılmasını özündə ehtiva edir.

Azərbaycan Respublikası Prezidentinin "Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında" 2018-ci il 5 sentyabr tarixli 258 nömrəli Fərmanının 2.4.1-ci yarımbəndinə əsasən "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə" hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir. Həmin Əsasnamənin 2.1.8-ci bəndi ilə PAS Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin struktur elementi kimi müəyyən edilmiş, 2.3.8-ci bəndində əmək pensiyası təyin edilmiş şəxslərin qeydiyyatının, əmək pensiyalarının sığorta və yığım hissələri üzrə pensiya kapitalının uçotunun, əmək pensiyalarının təyininin, yenidən hesablanmasının və ödənilməsinin, eləcə də statistik hesabatların hazırlanmasının və təhlillərin aparılmasının PAS vasitəsilə həyata keçirilməsi nəzərdə tutulmuşdur.

2019-cu ildə Hesablama Palatası tərəfindən Fondda aparılmış auditin gedişində pensiya işlərinin PAS-a işlənilməsi vəziyyətinin araşdırılması vəziyyəti seçmə qaydada araşdırılmış, köhnə proqram təminatı üzrə elektron baza məlumatlarının PAS üzrə müvafiq baza məlumatları ilə üzləşdirilməsi aparılmış, nəticədə əvvəlki proqram təminatının tətbiqi nəticəsində əmək pensiyası hüququ olmayan şəxslərə pensiya ödənişinin aparılması, pensiyaçının əvvəlki dövrlərdə vəfat etməsinə baxmayaraq ödənişlərin davam etdirilməsi, vətəndaşın eyni dövrdə Fondun 2 rayon şöbəsində pensiya alması, şəxsiyyət vəsiqəsi olmayan vətəndaşlara pensiya ödənişinin həyata keçirilməsi, müddəti bitmiş plastik ödəniş kartı əvəzinə hazırlanmış yeni plastik kartın pensiyaçı tərəfindən ödəniş müəssisəsindən uzun müddət ərzində götürülməməsi hallarına rast gəlinmişdir ki, belə halların qarşısı PAS-ın tətbiqi ilə aradan qaldırılmışdır.

Qeyd edilməlidir ki, son dövrlərdə vətəndaşlara əlillik dərəcələrinin verilməsi fəaliyyətində bir sıra nöqsan və çatışmazlıqlar müəyyən edilmişdir. Belə ki, əlilliyin qiymətləndirilməsi və reabilitasiya sisteminin təkmilləşdirilməsi məqsədilə 2018-ci ilin may ayının əvvəlində Nazirlikdə İşçi Qrupu yaradılmış və həmin qrup tərəfindən araşdırmalar aparılaraq 2018-ci ilin birinci rübündə risk qrupu xəstəlikləri ilə əlaqədar yalnış əlillik təyinatları barədə qərarlar aşkar edilmiş, müvafiq əlillik dərəcələri dərhal ləğv edilməklə, həmin şəxslərə yönələn pensiya, müavinət və təqaüd ödənişləri dayandırılmış, onlara ödənilmiş vəsaitin dövlət büdcəsinə bərpası üçün, əlilliyin qiymətləndirilməsi sisteminin tam

şəffaflaşdırılması, saxta əlillik təyinatlarının qarşısının alınması, eyni zamanda, əlillik təyinatında bir sıra hallarda özünü göstərən subyektivlik və süründürməçilik hallarının aradan qaldırılması üçün tədbirlər görülmüşdür. Hesablama Palatası tərəfindən 2019-cu ildə Fondda aparılmış auditin gedişində əlilliyə görə əmək pensiyası alan şəxslərin adlı siyahısı ilə Tibbi Sosial Ekspertiza və Reabilitasiya Alt Sistemi (TSERAS) üzrə əlillik dərəcəsi olan şəxslərin adlı siyahıları üzləşdirilmiş, habelə TSERAS vasitəsi ilə verilmiş əlillik dərəclərinin mövcud statusu araşdırılmışdır. Bununla əlaqədar həmin Alt Sistemdə adları qeyd olunmayan pensiyaçılar barədə məlumatlar üzrə Fondun 59 yerli orqanına müvafiq sorğular göndərilmiş, nəticədə əlillik dərəcəsi sonradan ləğv edilmiş və ya etibarsız hesab edilmiş şəxslərə əmək pensiyasının ödənişinin davam etdirilməsi kimi halların mövcud olduğu aşkar olunmuşdur. Ümumilikdə 59 yerli orqan üzrə 513 nəfər şəxsə əlillik dərəcəsinin etibarsız hesab edildiyindən və ya əlillik dərəcəsi ləğv olunduqdan sonra 5,1 mln. manat məbləğində pensiyanın ödənildiyi, həmin şəxslərdən 54 yerli orqanda pensiya alan 363 nəfərə pensiya ödənişi auditin aparıldığı müddətdə də (may-iyun aylarında) davam etdirildiyi və onlara 3,3 mln. manat pensiya məbləğinin ödənildiyi müəyyən edilmişdir.

Yuxarıda qeyd olunanlar vətəndaşlara əlillik dərəcəsinin verilməsi fəaliyyətinin Nazirlik tərəfindən daimi nəzarətdə saxlanılmasının, saxta əlillik dərəcələrinin verilməsi hallarının qarşısının alınması və belə halların aşkar edilərək nöqsanların aradan qaldırılması istiqamətində fəaliyyətin davam etdirilməsinin vacibliyini, eləcə də bu pensiya növü üzrə əsassız ödəmələrin qarşısının alınması baxımından müvafiq xərclərin azalma potensialının olduğunu söyləməyə imkan verir.

Nazirlik tərəfindən təqdim edilmiş məlumata əsasən respublika üzrə 2016-cı ildən əvvəlki dövrdə əlilliyə görə əmək pensiyası təyin olunmuş şəxslərin əlilliyini təsdiq edən sənədlərin elektron məlumat bazasının yaradılmasının təşkilinə başlanılmışdır. Bu da əlilliyə görə əmək pensiyası alan şəxslərin pensiya yenidən inventarizasiyasının aparılmasına hüququ olmayan şəxslərin sistemdən çıxarılmasına və nəticədə kifayət qədər Fondun vəsaitinə qənaət ediləcəkdir.

Həmçinin, faktiki olaraq əmək pensiyası alan bir milyondan artıq vətəndaşın kağız üzərində olan pensiya işlərinin də elektron arxivinin yaradılması istiqamətində müvafiq işlərə başlanılmışdır. Bu da öz növbəsində şəffaflığın artırılmasına, hesabatlılığın təmin olunmasına, növbəti illərə dair proqnozların daha dəqiq aparılmasına, habelə mövcud arxivlərin saxlanılması üçün izafi xərclərin olmamasına şərait yarada bilər.

### 3.1.2. Məcburi dövlət sosial sığorta haqları hesabına müavinət xərcləri

Qanun layihəsinə əsasən 2020-ci ildə MDSSH hesabına ödənilən müavinətlərin (bundan sonra bu bölmədə - Müavinətlər) maliyyələşdirilməsi üçün Fondun ümumi xərclərinin 2,4%-i qədər və ya 114,6 mln. manat vəsait nəzərdə tutulmuşdur ki, bu da 2018-ci il üzrə müvafiq icra göstəricisindən 33,2 mln. manat və ya 40,8%, 2019-cu ilin proqnoz göstəricisindən isə 12,6 mln. manat və ya 12,3% çoxdur (Cədvəl 10).

**Cədvəl 10. Müavinətlərin ödənilməsi xərclərinin tərkibi və müqayisəsi, min manatla**

| Göstəricilər | 2018 (icra) | 2019 | 2020 (layihə) | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | proqnoz | məbləğ | xüs. çəki, % | artım/azalma | | | |
| | | | | | 2018-ci ilin icrası ilə | | 2019-cu ilin proqnozu ilə | |
| | | | | | +;- | % | +;- | % |
| MDSSH hesabına müavinətlərin ödənilməsi, cəmi | 81419,65 | 102044,00 | 114600,00 | 100,0 | 33180,35 | 112,3 | 12556,00 | 112,3 |
| Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət | 25508,79 | 26000,00 | 28000,00 | 24,4 | 2491,21 | 107,7 | 2000,00 | 107,7 |
| Hamiləliyə və doğuma görə müavinət | 25421,95 | 31944,00 | 34000,00 | 29,7 | 8578,05 | 106,4 | 2056,00 | 106,4 |
| Uşağın anadan olmasına görə müavinət | 5323,18 | 9500,00 | 14900,00 | 13,0 | 9576,82 | 156,8 | 5400,00 | 156,8 |
| 3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar müavinət | 11041,46 | 13400,00 | 14500,00 | 12,7 | 3458,54 | 108,2 | 1100,00 | 108,2 |
| Dəfn üçün müavinət | 14124,27 | 21200,00 | 23200,00 | 20,2 | 9075,73 | 109,4 | 2000,00 | 109,4 |

Göründüyü kimi, müavinətlərin ödənilməsi xərclərinin artım tempi Fondun ümumi xərclərinin 16,9%-lik artım tempindən geri qalır və daha aşağı səviyyəli artım, uşağın anadan olmasına görə müavinət növü istisna olmaqla, bütün müavinət növləri üzrə müşahidə edilir. Müavinətlərin növlər üzrə müqayisəli dinamikası Cədvəl 10-da verilmişdir.

Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlər üzrə 28,0 mln. manat vəsait nəzərdə tutulmuşdur ki, bu da müavinətlər üzrə xərclərin 24,4%-i qədər olmaqla 2018-ci il üzrə müvafiq icra göstəricisindən 2,5 mln. manat və ya 9,8%, 2019-cu ilin müvafiq proqnoz göstəricisindən isə 2,0 mln. manat və ya 7,7% çoxdur. Bununla belə, bu müavinət növü üzrə xərclərin artım səviyyəsi həm Fondun ümumi xərclərinin 16,9%-lik artım səviyyəsindən, həm də həmin müavinət növü ilə bağlı olan orta aylıq əmək haqqının gələn il üçün proqnozlaşdırılan 15,5%-lik artım səviyyəsindən xeyli geri qalır. Müvafiq statistik məlumatlara əsasən 2018-ci ildə bu müavinət növü üzrə 23,3 mln. manat proqnoza qarşı 214,3 min nəfər kontingent üzrə 25,5 mln. manat və ya proqnoz məbləğindən 2,2 mln. manat və ya 9,4 % çox vəsait xərclənmişdir.

Qeyd edilməlidir ki, Hesablama Palatasının Fondun 2018-ci il üzrə büdcəsinin layihəsinə rəyində də əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlər üzrə

məbləğin az olduğu və daha əsaslı olaraq proqnozlaşdırılmasının məqsədəmüvafiqliyi qeyd edilmişdir.

Fond tərəfindən təqdim edilmiş məlumata əsasən 2019-cu ilin I yarısı ərzində tələbat olaraq 44,3 min nəfər üzrə 13,6 mln. manat vəsait hesablanmışdır ki, bu da illik proqnozlaşdırılan 26,0 mln. manat vəsaitin 52,3%-i qədərdir. Göründüyü kimi, yarımillik dövrdə illik vəsaitin yarıdan çoxu xərclənmişdir ki, bu da əmək haqlarının artırıldığı şəraitdə bu müavinət növü üzrə ilin sonunadək daha çox vəsaitə ehtiyac olacağını ehtimal etməyə imkan verir ki, Hesablama Palatasının cari il üçün Fondun büdcəsinin layihəsinə rəyində də bu qeyd olunmuşdur.

Fondun ümumi xərclərinin, orta aylıq əmək haqqının proqnozlaşdırılan artım səviyyələri, eləcə də xərclənmiş vəsait və kontingentin sayı üzrə əvvəlki dövrlərin statistik göstəriciləri, əvvəlki illərdə olduğu kimi, 2020-ci il üzrə də əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlərin məbləğinin daha əsaslı yanaşma ilə proqnozlaşdırılmasına ehtiyac olduğunu deməyə zəmin yaradır.

Hamiləliyə və doğuma görə müavinətin maliyyələşdirilməsi məqsədilə 2020-ci ildə 34,0 mln. manat və ya müavinətlər üzrə xərclərin 29,7%-i qədər vəsait nəzərdə tutulmuşdur ki, bu da 2018-ci ilin müvafiq icra göstəricisindən 8,6 mln. manat və ya 33,7%, 2019-cu ilin proqnoz göstəricisindən isə 2,1 mln. manat və ya 6,4% çoxdur. Göründüyü kimi, bu müavinət növünün artım səviyyəsi onun hesablanması üçün əsas götürülən orta aylıq əmək haqqının 15,5%-lik artım səviyyəsindən nəzərəçarpan dərəcədə geri qalır. Əvvəlki illərdə olduğu kimi, aşağı səviyyəli artım doğulan uşaqların sayındakı azalma tendensiyası ilə izah edilə bilər. Belə ki, statistik məlumatlara əsasən doğulan uşaqların sayında azalma tendensiyası son dövrlərdə də davam etmiş, 2016-cı ildə 159464 nəfər uşaq doğulduğu halda 2017-ci ildə 144041 nəfər və ya əvvəlki il üzrə göstəricinin 90,3%-i qədər, 2018-ci ildə 138982 nəfər və ya 2017-ci ildə döğulmuş uşaqların sayının 96,5%-i qədər uşaq doğulmuşdur.

Qeyd edilməlidir ki, 2018-ci ildə hamiləliyə və doğuma görə müavinətlər üzrə 28,5 mln. manat proqnoza qarşı 23,3 min nəfər kontingent üzrə 25,4 mln. manat vəsait xərclənmiş, proqnoz 89,1% icra edilmiş, ilin sonuna proqnozun kəsrlə icra ediləcəyi Hesablama Palatasının müvafiq rəyində də təxmin edilmişdir. Göründüyü kimi, əvvəlki dövrlərin aşağı səviyyəli icrası da gələn ilin müvafiq göstəricisinin aşağı səviyyəli artımını şərtləndirən amillərdəndir.

2019-cu ilin I yarımili ərzində qeyd edilən müavinət növü üzrə hesablanmış məbləğ 12,4 min nəfər kontingent üzrə 13,5 mln. manat təşkil etmişdir ki, həmin vəsait də 31,9 mln. manat məbləğində illik proqnozun cəmi 42,3%-i qədərdir. Başqa sözlə, cari ildə də hamiləliyə

və doğuma görə müavinətlər üzrə nəzərdə tutulandan az vəsait xərclənəcəyini ehtimal etmək olar.

Qanun layihəsinə əsasən 2020-ci ildə uşağın anadan olmasına görə müavinətin ödənilməsi üçün 14,9 mln. manat və ya müavinətlər üzrə xərclərin 13,0%-i qədər vəsait nəzərdə tutulmuşdur ki, bu da 2018-ci ilin müvafiq icra göstəricisindən 9,6 mln. manat və ya 2,8 dəfə, 2019-cu ilin proqnoz göstəricisindən isə 5,4 mln. manat və ya 56,8% çoxdur. Göründüyü kimi, Müavinətlər üzrə ən nəzərəçarpan artım bu müavinət növü üzrə proqnozlaşdırılmış, digər müavinət növləri üzrə daha aşağı səviyyəli artım şəraitində qeyd edilən müavinət növü üzrə artım bütövlükdə Müavinətlər üzrə xərclərin 12,3%-lik artımını şərtləndirmişdir.

Respublikada aşağı doğum səviyyəsi şəraitində uşağın anadan olmasına görə müavinətin ödənilməsi xərclərinin kəskin artımı "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 15 aprel 2019-cu il tarixli 640 nömrəli Fərmanına əsasən 2019-cu ilin aprelin 1-dən uşağın anadan olmasına görə müavinət məbləğinin 109,0 manatdan 200,0 manata və ya 83,5% qaldırılması ilə izah oluna bilər.

***ARAYIŞ***

*Uşağın anadan olmasına görə, 3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar və dəfn üçün müavinət növlərinin məbləği müvafiq qanunvericiliklə təsdiq edildiyi halda əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə və hamiləliyə və doğuma görə müavinətlərin məbləği sığortaolunanın orta gündəlik qazancı və sosial sığorta stajı əsasında hesablanır. Göründüyü kimi, uşağın anadan olmasına görə və dəfn üçün müavinət xərcləri birbaşa demoqrafik göstəricilərlə, 3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar xərclər isə həm də ailənin sosial-iqtisadi vəziyyəti ilə də əlaqədardır.*

*Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə və hamiləliyə və doğuma görə müavinətlər üzrə xərclərə təsdiqedici faktorlar isə daha çoxdur. Belə ki, həmin xərclərin məbləği sığortaolunanların sayından, əmək haqqının səviyyəsindən, iş stajlarından və sağlamlıq səviyyələrindən asılıdır ki, bu amillərin əksəriyyəti obyektiv xarakter daşıyır, ehtimallara və təsadüflərə əsaslanır. Bu səbəbdən də həmin xərclərin proqnozlaşdırılması istiqamətində çətinliklər formalaşa bilər.*

Qeyd edilməlidir ki, uşağın anadan olmasına görə müavinət xərcləri üzrə 2018-ci ildə 7,2 mln. manat məbləğində proqnoz cəmi 73,6% icra edilərək 51,0 min nəfər kontingent üzrə 5,3 mln. manat vəsait xərclənmişdir. 2019-cu ilin I yarısında isə 25,4 min nəfər kontingent

üzrə cəmi 3,1 mln. manat və ya illik proqnoz məbləğinin 32,2%-i qədər müavinət ödənilmişdir. Göründüyü kimi, kontingent sayının və xərclənmiş vəsaitin yarımillik göstəricisi keçən ilin illik göstəricisinə təqribi uyğun olsa da icra səviyyəsi çox aşağı olmuşdur ki, bu da proqnoz məbləğinin daha yüksək səviyyədə müəyyənləşdirilməsindən xəbər verir və gələn il üçün də proqnozun daha yüksək səviyyədə olduğunu deməyə əsas verir. Qeyd edilməlidir ki, bu müavinət növü üzrə 2019-cu il üçün də vəsaitin tələb olunandan artıq nəzərdə tutulduğu Hesablama Palatasının müvafiq rəyində də vurğulanmışdır.

3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar müavinətlərin ödənilməsi üçün 2020-ci ildə 14,5 mln. manat və ya Müavinətlər üzrə xərclərin 12,7%-i qədər vəsait nəzərdə tutulmuşdur ki, bu da 2018-ci ilin müvafiq icra göstəricisindən 3,5 mln. manat və ya 31,3%, 2019-cu ilin müvafiq proqnoz göstəricisindən isə 1,1 mln. manat və ya 8,2% çoxdur. Göründüyü kimi, bu müavinət növü üzrə də aşağı səviyyəli artım proqnozlaşdırılmışdır.

Qeyd edilməlidir ki, bu müavinət növü üzrə 2018-ci ildə 13,4 mln. manat məbləğində təsdiq olunmuş proqnoz 82,1% icra edilərək 33,4 min nəfər kontingent üzrə 11,0 mln. manat vəsait xərclənmişdir. 2019-cu ilin I yarısında isə bu müavinət 72,3 min nəfərə olmaqla 4,5 mln. manat məbləğində ödənilmişdir ki, həmin vəsait də 13,4 mln. manat məbləğində illik proqnozun cəmi 33,6%-i qədərdir. Bu isə cari il üzrə proqnoz məbləğinin daha yüksək səviyyədə müəyyənləşdirildiyini deməyə əsas verir ki, Hesablama Palatasının müvafiq rəyində də bu qeyd edilmişdir.

Qanun layihəsinə əsasən dəfn üçün müavinətlərin ödənilməsi üçün 23,2 mln. manat və ya Müavinətlər üzrə xərclərin 20,2%-i qədər vəsait nəzərdə tutulmuşdur ki, bu da 2018-ci ilin müvafiq icra göstəricisindən 9,1 mln. manat və ya 64,3%, 2019-cu ilin müvafiq proqnoz göstəricisindən isə 2,0 mln. manat və ya 9,4% çoxdur. Göründüyü kimi, yalnız bu müavinət növü üzrə xərclərin artım səviyyəsi də Fondun ümumi xərclərinin artım səviyyəsindən geri qalır.

Qeyd edilməlidir ki, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununun 42.2-ci maddəsinə edilmiş dəyişikliyə müvafiq olaraq pensiyaçılara dəfn üçün müavinət pensiyaçının vəfatı tarixinə əmək pensiyasının minimum məbləğinin üç misli məbləğində verilir. Minimum pensiya məbləğinin 01.03.2019-cu il tarixdən 160,0 manata çatdırılması, 01.10.2019-cu il tarixdən isə 200,0 manata çatdırıılmasının, yəni 25,0% artırılmasının nəzərdə tutulduğu şəraitdə bu müavinət növü üzrə daha aşağı səviyyəli artımın proqnozlaşdırılması proqnoz məbləğinin əsaslılığı baxımından şübhə doğurur və proqnozlaşdırılan vəsaitin yetərli olmayacağını deməyə əsas verir.

Yuxarıda qeyd olunanları 2018-ci ilin və 2019-cu ilin I yarısının müvafiq icra göstəriciləri də dəstəkləyir. Belə ki, müvafiq hesabat məlumatlarına əsasən 2018-ci ildə 42,2 min nəfərə 14,1 mln. manat məbləğində dəfn üçün müavinət ödənilmiş, 15,7 mln. manat məbləğində təsdiq olunmuş proqnoz 89,8% icra edilmişdir. 2019-cu ilin I yarısında isə bu istiqamətdə 21,8 min nəfər kontingent üzrə 8,5 mln. manat və ya illik proqnoz məbləğinin 40,1%-i qədər vəsait xərclənmişdir. Göründüyü kimi, kontingentin sayı üzrə cari ilin yarımillik göstəricisi keçən ilin illik göstəricisinə uyğun olsa da xərclənmiş vəsaitin məbləğində artım olmuşdur, 01.10.2019-cu il tarixindən isə həmin vəsaitin daha da artacağı, gələn il minimum pensiya məbləğinin artımı şəraitində isə bir daha artımın olacağı gözləniləndir.

### 3.2. AHİK xətti ilə sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə xərclər

Qanun layihəsinə əsasən sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə AHİK vasitəsi ilə maliyyələşdirilən xərclərin ödənilməsi üçün 20,5 mln. manat və ya cəmi xərclərin 0,4%-i qədər vəsait nəzərdə tutulmuşdur ki, bu da 2018-ci ilin müvafiq icra və 2019-cu ilin müvafiq proqnoz göstəricilərindən 470,0 min manat və ya 2,4% çoxdur (Cədvəl 11).

**Cədvəl 11. Sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə AHİK vasitəsi ilə maliyyələşdirilən xərclər**

| | | 2018 (icra) | | 2019 (gözlənilən icra) | | 2020 (layihə) | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | müqayisə | | | |
| | | | | | | | | 2018-cı illə | | 2019-cu illə | |
| | | say | min manat | say | min manat | say | min manat | say | min manat | say | min manat |
| | **Sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə AHİK vasitəsilə maliyyələşdirilən xərclər, cəmi** | | 20000,0 | | 20000,0 | | 20470,0 | | 470,0 | | 470,0 |
| 1 | sanatoriya-kurort müalicəsi və istirahət üçün yollayışların alınmasına | 15146 | 15530,0 | 15350 | 15530,0 | | 16000,0 | | 470,0 | 0 | 470,0 |
| 2 | sığortaolunanların uşaqlarının sağlamlıq düşərgələrində istirahətinin təşkilinə | 1825 | 340,0 | 1825 | 340,0 | 1825 | 340,0 | 0 | 0,0 | 0 | 0,0 |
| 3 | sanatoriya-profilaktoriyalara yemək xərcləri, tibb xidməti və ştatların saxlanılmasına | 850 | 210,0 | 850 | 210,0 | 850 | 210,0 | 0 | 0,0 | 0 | 0,0 |
| 4 | AHİK-in idman cəmiyyətlərinə məxsus idman qurğularının qismən saxlanılmasına (işçilərin əmək haqqının ödənilməsi) | 637 | 2600,0 | 637 | 2600,0 | 637 | 2600,0 | 0 | 0, 0 | 0 | 0,0 |
| 5 | Həmkarlar İttifaqlarının əməyin mühafizəsi və hüquq mütəxəssislərinin, etimadlı həkimlərin, sağlamlaşdırma işi ilə məşğul olan təlimatçıların saxlanılmasına | 102 | 1320,0 | 113 | 1320,0 | 113 | 1320,0 | 11 | 0,0 | 0 | 0,0 |

Qeyd edək ki, AHİK tərəfindən təqdim edilən məbləğlər Qanun layihəsində göstərilmiş müvafiq məbləğlərə uyğun olmadığı və 2018-ci ilin icra, 2019-cu ilin proqnoz göstəriciləri ilə

müqayisədə yalnız yollayışların alınması xərci artdığı üçün digər istiqamətlər üzrə say göstəriciləri əvvəlki illərin göstəricilərinə bərabər götürülmüşdür.

Göründüyü kimi, yollayışların alınması üçün 16,0 mln. manat və ya bu istiqamət üzrə xərclərin 78,2%-i qədər vəsaitin xərclənməsi nəzərdə tutulmuşdur ki, bu da 2018-ci ilin müvafiq icra və cari ilin müvafiq proqnoz göstəricisindən 470,0 min manat və ya 3,0% çoxdur.

AHİK tərəfindən təqdim edilmiş məlumatlara əsasən sığortaolunanların uşaqlarının sağlamlıq düşərgələrində istirahətinin təşkilinə 2029-cu ildə 340,0 min manat və ya sanatoriya-kurort müalicəsi üzrə xərclərin 1,7%-i qədər vəsaitin xərclənəcəyi proqnozlaşdırılmışdır ki, bu da 2018-ci ilin müvafiq icra və cari ilin müvafiq proqnoz göstəricisi qədərdir.

Təqdim edilmiş məlumatlara əsasən sanatoriya-profilaktoriyalara yemək xərclərinin maliyyələşdirilməsi, tibb xidməti və ştatların saxlanılması üçün 210,0 min manat və ya bu istiqamət üzrə xərclərin 1,0%-i qədər, AHİK-in idman cəmiyyətlərinə məxsus idman qurğularının qismən saxlanılması üçün (işçilərin əmək haqqının ödənilməsi) 2,6 mln. manat (12,7%), Həmkarlar İttifaqlarının texniki və əməyin hüquq müfəttişliyinin, etimadlı həkimlərin, sağlamlaşdırma işi ilə məşğul olan mütəxəssislərin saxlanılması üçün 1,3 mln. manat (6,4%) vəsaitin xərclənəcəyi nəzərdə tutulmuşdur ki, bu da müvafiq kontingentin sayı və məbləğ baxımından 2018-ci ilin müvafiq proqnoz və 2019-cu ilin gözlənilən icra göstəricilərinə bərabərdir.

### 3.3. Əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri, eləcə də pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərcləri

Qanun layihəsində, əvvəlki illərdən fərqli olaraq, pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərcləri ayrılıqda deyil, “”DOST” Agentliyinin fəaliyyətinin maliyyələşdirilməsi xərcləri ilə birgə verilmişdir. Qeyd edilməlidir ki, cari il üzrə müvafiq sənəddə həmin xərclər Fondun aparatının və onun yerli orqanlarının saxlanılması xərcləri ilə bir yerdə nəzərə alınmışdır.

Qanun layihəsinə əsasən “DOST” Agentliyinin fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri, eləcə də pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərcləri üzrə 2020-ci ildə 33,9 mln. manat və ya Fondun ümumi xərclərinin 0,7%-i qədər vəsaitin xərclənməsi nəzərdə tutulmuşdur ki, bu da 2018-ci ilin müvafiq icra göstəricisindən 14,0 mln. manat və ya 70,6%, 2019-cu ilin proqnoz

göstəricisindən isə 10,9 mln. manat və ya 47,4% çoxdur. Fond tərəfindən təqdim edilmiş məlumata əsasən həmin vəsaitin 10,0 min manatı "DOST" Agentliyinin fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri üçün nəzərdə tutulmuşdur ki, bu da cari ildə xərclənməsi proqnozlaşdırılan vəsait qədərdir. Məhz qeyd edilən vəsait də gələn il üzrə keçmiş illərə nisbətən daha yuxarı səviyyəli artımı şərtləndirmişdir.

Qeyd edilməlidir ki, xərclərin adında "fəaliyyətin müştərək maliyyələşdirilməsi" ifadəsi işlədilmişdir ki, bu da həmin agentliyin maliyyələşdirilməsində Fondun da iştirak edəcəyi anlamına gəlir. Bu isə Fond üçün əlavə vəzifə və məsuliyyət, "DOST" Agentliyi üçün isə Fondun qarşısında hesabatlılıq yaradır.

Fond tərəfindən təqdim edilmiş məlumata əsasən 2019-cu ilin 6 ayı ərzində "DOST" Agentliyinin saxlanılması üzrə 5,0 mln. manat proqnoz 100,0% icra olunmuşdur ki, bu da illik 10,0 mln. manat proqnoz göstəricisi baxımından izah ediləndir.

Pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərclərinin ödənilməsinə 2020-ci ildə 23,9 mln. manat vəsaitin ayrılması proqnozlaşdırılmışdır ki, bu da 2018-ci il üzrə müvafiq icra göstəricisindən 4,0 mln. manat və ya 20,3%, 2019-cu ilin müvafiq proqnoz göstəricisindən isə 900,0 min manat və ya 3,9% çoxdur. Göründüyü kimi, bu xərclərin artım səviyyəsi həmin xərclərin əlaqəli olduğu pensiya xərclərinin 16,6%-lik artım səviyyəsindən dəfələrlə geri qalır.

2019-cu ilin 6 aylıq icra göstəricisi də bu istiqamət üzrə xərclərin aşağı səviyyəli icrasını göstərir. Belə ki, 01.01.2019-01.07.2019-cu il dövründə bu istiqamət üzrə 11,2 mln. manat proqnoz 65,2% icra edilməklə 7,3 mln. manat vəsait xərclənmişdir.

*Auditin nəticələri üzrə yuxarıda qeyd olunanlar pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərclərinin azalma potensialının olduğunu və həmin potensialdan istifadə edilməsi istiqamətində Fond tərəfindən zəruri tədbirlərin görülməsinin vacibliyini deməyə əsas verir.*

### 3.4. Müvafiq icra hakimiyyəti orqanının və onun yerli orqanlarının saxlanılması xərcləri

2020-ci ildə Fondun mərkəzi aparatının və onun yerli orqanlarının saxlanılması xərclərinin 84,8 min manat və ya Fondun ümumi xərclərinin 1,8%-i qədər olacağı nəzərdə tutulmuşdur ki, bu da 2018-ci ilin müvafiq icra göstəricisindən 49,4 mln. manat və ya 2,4 dəfə, 2019-cu ilin proqnoz göstəricisindən isə 21,8 mln. manat və ya 34,6% çoxdur. Göründüyü kimi, saxlanma xərclərinin artım səviyyəsi Fondun ümumi xərclərinin 16,9%-lik artım səviyyəsini 2 dəfədən artıq üstələyir ki, bu da, əsas etibarilə, əmək haqqı xərclərinin artımı ilə əlaqələndirilə bilər. Belə ki, müvafiq hesablamalara əsasən Fondun aparatının və onun yerli

orqanlarının saxlanılması xərclərinin 80,0%-dən çox hissəsini əməyin ödənişi xərcləri təşkil edir və Fondun və onun yerli orqanlarının işçiləri dövlət qulluqçularıdır. “Dövlət qulluqçularının aylıq vəzifə maaşlarının müəyyən edilməsi və “Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında” Azərbaycan Respublikasi Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə”” Azərbaycan Respublikasi Prezidentinin 2019-cu il 18 iyun tarixli 1268 nömrəli Sərəncamına əsasən 01.09.2019-cu il tarixdən dövlət qulluqçularının əmək haqlarının artırılması və gələn ildə də bu istiqamətdə tədbirlərin davam etdirilməsinin nəzərdə tutulması Fondun mərkəzi aparatının və onun yerli orqanlarının saxlanılması xərcləri üzrə yuxarıda qeyd edilən artımın əsas səbəbi kimi qiymətləndirilə bilər

Təqdim edilmiş müvafiq məlumata əsasən Fondun aparatının və yerli orqanlarının saxlanılmasına 2019-cu ilin 6 ayı ərzində 17,4 mln. manat vəsait xərclənmiş, 19,5 mln. manat məbləğində proqnoz 89,2% icra edilmişdir. Göründüyü kimi, bu istiqamət üzrə də proqnoz yarımillik ifadədə az müəyyən edilmişdir ki, bu da 01.01.2019-cu il tarixdən dövlət sektorunda əmək haqlarının artımı ilə izah oluna bilər.

### 3.5. Digər xərclər

Fondun digər xərclərinin beynəlxalq təşkilatlara üzvlük haqqı xərclərindən və Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında 2004-cü il 23 sentyabr tarixdə imzalanmış və Azərbaycan Respublikasının Prezidentinin 2004-cü il 11 noyabr tarixli 518 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "İnkişaf üçün Kredit Sazişi"nə əsasən "Pensiya və sosial təminat" layihəsi üzrə kreditin qaytarılması xərclərindən ibarət olacağı nəzərdə tutulmuşdur.

Əvvəlki illərdə olduğu kimi, Qanun layihəsində Fondun xərclərinin 60,0 min manatının beynəlxalq təşkilatlara, o cümlədən Beynəlxalq Sosial Təminat Assosiasiyasına və Pensiya və Sosial Fondların Beynəlxalq Assosiasiyasına üzvlük haqlarının ödənilməsi üçün nəzərdə tutulduğu göstərilmişdir ki, həmin vəsait də hər bir təşkilat üzrə 30,0 min manat olmaqla cari ildə nəzərdə tutulan vəsait qədərdir.

2020-ci il üzrə xərclərin 1,6 mln. manatının Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında 2004-cü il 23 sentyabr tarixdə imzalanmış və Azərbaycan Respublikasının Prezidentinin 2004-cü il 11 noyabr tarixli 518 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "İnkişaf üçün Kredit Sazişi"nə əsasən "Pensiya və sosial təminat" layihəsi üzrə kreditin qaytarılması xərcləri üçün nəzərdə tutulmuşdur ki, bu da 2018-ci ilin icra, 2019-cu ilin proqnoz göstəricisi qədərdir.

## IV BÖLMƏ. NƏTICƏLƏR VƏ TÖVSIYƏLƏR

Beləliklə, Rəy üzrə məlumatları ümumiləşdirərək aşağıdakı **nəticələri** qeyd etmək olar:

1. Müvafiq "Büdcə zərfi" ilə birgə təqdim edilmiş sənədlərdə, əvvəlki illərdə olduğu kimi, Fondun gəlirləri ümumi şəkildə verilmiş, cari yığım fəaliyyətinin, eləcə də borcların aradan qaldırılması istiqamətində görülmüş tədbirlər və s. bu kimi istiqamətlərdə ətraflı məlumatlar əks etdirilməmişdir.

2. Qanun layihəsində cari il üzrə müvafiq qanundan fərqli olaraq Fondun xərclərinin pensiya və müavinətlərin əhaliyə çatdırılması xərcləri və saxlanılma xərcləri hissəsində dəyişiklik nəzərdə tutulmuş, əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə Nazirliyin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin saxlanılmasım xərcləri 2019-cu il üzrə müvafiq qanunda Fondun aparatının və onun yerli orqanlarının saxlanılması xərcləri ilə bir yerdə nəzərdə tutulduğu halda, Qanun layihəsində həmin xərclər çatdırılma xərcləri ilə birgə "Əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri, eləcə də pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərcləri" adı altında verilmişdir;

3. Qanun layihəsində "DOST" Agentliyinin fəaliyyətinin müştərək maliyyələşdirilməsi ilə bağlı bəndin nəzərdə tutulması "DOST" Agentliyinin Fond qarşısında hesabatlılığının, eləcə də həmin xərclərin icrası üzrə Fondun məsuliyyətinin sərhədlərinin müəyyən edilməsi zərurətini qeyd etmək imkanı verir;

4. Nazirliyin fəaliyyət dairəsinə aid olan bir çox funksiyaların bir məkanda cəmlşdirilərək vahid mərkəzdə həyata keçirilməsi üçün publik hüquqi şəxs qismində yaradılmış "DOST" Agentliyinin saxlanılması xərcləri Fondun büdcəsində nəzərdə tutulmuş və həmin xərclər Fondun büdcəsinin öhdəliklərinə daxil edilmişdir;

5. Pensiya qanunvericiliyinə edilmiş son dəyişikliklər pensiya xərcləri üzrə dövlət öhdəliklərinin artımına şərait yaratmaqla pensiya xərcləri üzrə Fondun və dövlət büdcəsinin öhdəliklərinin bir daha dəqiqləşdirilməsinə zərurət yaradır;

6. Gələn il orta aylıq pensiya məbləğinin proqnozlaşdırılan artım səviyyəsi inflyasiyanın səviyyəsini dəfələrlə üstələyəcəkdir;

7. 2020-ci ildə Fondun gəlirlərinin 4825,5 mln. manat həcmində olacağı proqnozlaşdırılmışdır ki, bu da 2018-ci ilin müvafiq icra göstəricisindən 1073,3 mln. manat və ya 28,6%, 2019-cu ilin müvafiq dürüstləşmiş proqnoz göstəricisindən 697,4 mln. manat və ya 16,9% çoxdur;

8. Qanun layihəsinə əsasən 2020-ci ildə məcburi dövlət sosial sığorta haqları üzrə Fondun gəlirlərinin 70,3%-i olmaqla 3392,6 mln. manat vəsait proqnozlaşdırılmışdır ki, bu da 2018-ci ilin müvafiq icra göstəricisindən 1065,5 mln. manat və ya 45,8%, 2019-cu ilin müvafiq göstəricisindən isə 623,2 mln. manat və ya 22,5% çoxdur;

9. 2020-ci ildə MDSSH üzrə daxilolmaların 1407,6 min manatının və ya 41,5%-nin büdcə təşkilatlarından daxil olacağı proqnozlaşdırılmışdır ki, bu da 2019-cu ilin müvafiq proqnoz göstəricisindən 313,0 mln. manat və ya 28,6% çoxdur və belə artımı büdcə sektoru üzrə əmək haqlarının cari ilin 1 sentyabr tarixindən artması şərtləndirir;

10. Gələn il büdcə sektoru üzrə xüsusi çəki göstəricisinin 41,5%-dək artması, qeyri-büdcə sektoru üzrə xüsusi çəki göstəricisinin isə 58,5%-dək azalması nəzərdə tutulmuşdur;

11. Qanun layihəsində digər sığortaedənlərdən 1985,0 min manat və ya Fondun ümumi daxilolmalarının 41,1%-i qədər, MDSSH üzrə ümumi daxilolmaların isə 58,5%-i qədər vəsaitin daxil olacağı nəzərdə tutulmuşdur ki, bu da cari ilin müvafiq proqnoz göstəricisindən 310,2 mln. manat və ya 18,5% çoxdur;

12. 2020-ci ildə qeyri-büdcə sektoru üzrə daxilolmaların 80,0 mln. manatının və ya qeyri-büdcə sektoru üzrə gəlirlərin 4,0%-nin, Fondun ümumi gəlirlərinin isə 1,7%-nin sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən daxil olacağı nəzərdə tutulmuşdur ki, bu da 2019-cu ilin müvafiq proqnoz göstəricisindən 11,0 mln. manat və ya 15,9% çoxdur;

13. Fond tərəfindən təqdim edilmiş məlumata əsasən qanunvericiliyə uyğun olaraq 2018-ci il ərzində sığortaedənlərin Fonda borcları üzrə ümumilikdə 52689 halda 121,3 mln. manat məbləğində borcu silinmişdir;

14. Fondun proqnozları üzrə sanatoriya-kurort yollyışlarının satışından daxilolma məbləği AHİK-in məlumatları əsasında hesablanmış məbləğdən 239,7 min manat azdır ki, bu da Fondun proqnozlaşdırdığı gəlir məbləğinin 12,0%-i qədərdir. Qeyd edilməlidir ki, belə fərq məbləğlərinin olmasına əvvəlki illərin təcrübəsində də rast gəlinmişdir və bu isə bu mənbə üzrə əlavə gəlir potensialının olması deməkdir;

15. Fond tərəfindən təqdim edilmiş məlumatlara əsasən sair gəlirlərin qalan hissəsi olan 4,0 mln. manatının və ya 66,7%-inin tətbiq edilən maliyyə sanksiyaları və penyalar, eləcə də müxtəlif səbəblərdən artıq ödənilmiş pensiya və müavinət məbləğlərinin, o cümlədən Fondun özü tərəfindən aşkar edilmiş artıq ödəmələrdən geri qaytarılmalar təşkil edəcək;

16. Qanun layihəsinə əsasən 2020-ci ildə Fondun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən 1426,9 mln. manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur ki, bu da Fondun gəlirlərinin

29,6%-i qədər olmaqla 2018-ci il üzrə müvafiq icra göstəricisindən 89,6 mln. manat və ya 6,7%, 2019-cu ilin müvafiq proqnoz göstəricisindən isə 74,2 mln. manat və ya 5,5% çoxdur;

17. Minimum pensiya məbləğinin artımı sosial sığorta prinsiplərinə deyil, qanunvericiliyin tələbinə əsaslandığı və birbaşa dövlət öhdəliyinin artımına xidmət etdiyi halda, dövlət büdcəsinin öhdəliklərinə aid edilməyərək vəsait çatışmazlığı olduqda müvafiq xərclərin digər mənbə hesabına maliyyələşdirilməsi tələbinə uyğunlaşdırılır;

18. Fondun 2019-cu il üçün büdcəsinə il ərzində dürüstləşmə aparılaraq dövlət büdcəsindən ayrılacaq vəsaitin ilkin təsdiq olunmuş 1502,7 mln. manat göstəricisindən 1352,7 mln. manatadək və ya 150,0 mln. manat (10,0%) azaldılması Fondun büdcəsinin dövlət büdcəsindən asılılığının azalması meyli ilə yanaşı müvafiq büdcələrin öhdəliklərinin müəyyənləşdirildiyi və sosial sığorta prinsiplərinə söykənməyən ödənişlərin artdığı şəraitdə dövlət büdcəsinin öhdəliklərinin Fondun büdcəsinin vəsaitləri hesabına yerinə yetirilməsi ifadə edir;

19. Fondun əhaliyə ödənişlər üzrə xərclərinin artdığı şəraitdə dövlət büdcəsindən Fonda ayırmaların məbləğinin azaldılması Fondun digər gəlirlərinin, xüsusilə də məcburi dövlət sosial sığortası üzrə gəlirlərinin artımı ilə əlaqələndirilə bilər;

20. Qanun layihəsində 2020-ci ildə Fondun xərclərinin 4825,5 mln. manat olacağı nəzərdə tutulmuşdur ki, bu da 2018-ci ilin müvafiq icra göstəricisindən 1067,9 mln. manat və ya 28,4%, 2019-cu il üzrə müvafiq proqnoz göstəricisindən isə 697,4 mln. manat və ya 16,9% çoxdur;

21. Qanun layihəsinə əsasən 2020-ci ildə Fondun xərclərinin 4684,7 mln. manatının və ya 97,1%-inin əhaliyə ödənişlər üzrə xərclənməsi nəzərdə tutulmuşdur ki, bu da 2018-ci ilin müvafiq icra göstəricisindən 1079,8 mln. manat və ya 30,0%, 2019-cu ilin müvafiq proqnoz göstəricisindən isə 664,2 mln. manat və ya 16,5% çoxdur;

22. Müvafiq məlumatlara əsasən gələn il Fondun büdcəsinin əhaliyə ödənişlər üzrə maliyyə yükünün 651,7 mln. manat həcmində artacağı proqnozlaşdırılır ki, bunun da 475,0 mln. manatının və ya 72,9%-inin pensiyanın sığorta hissəsinin müvafiq qanunvericiliyə uyğun olaraq indeksləşdirilməsi, 176,7 mln. manatının və ya 27,1%-inin isə dövlət sektorunda əmək haqlarının artırılması hesabına formalaşacağı gözlənilir;

23. Bütün pensiyaların sığorta hissəsindən ibarət olan əsas hissəsinin 01.01.2020-ci il tarixdən 13,9% artırılacağı proqnozlaşdırılmışdır ki, bu da pensiyaların ödənilməsi xərclərinin 16,6%-lik ümumi artım səviyyəsindən geri qalır. Lakin müvafiq vətəndaşlara sosial sığorta prinsiplərinə əsaslanmayan sığorta stajının hesablanmasının, pensiyanın minimum məbləğinin qaldırılmasının, Qanunun 37.3.1-ci maddəsinə əsasən pensiya məbləğlərinin

yenidən hesablanmasının, keçmiş dövrə görə pensiya ödənişlərinin səviyyəsinin də müvafiq xərclərin artımına təsir edəcəyi ehtimal olunur;

24. Müvafiq qanunvericiliklə pensiya yaşına çatmış və 01.07.2018-ci il tarixə fərdi hesabının sığorta hissəsində qeydə alınmış pensiya kapitalı olan vətəndaşa 01.01.2019-cu il tarixindən 25 il, 2021-ci ildən etibarən isə hər təqvim ili üçün bir il azaldılmaqla sığorta stajının hesablanmasına başlanılmışdır ki, bu da yaşa görə pensiya hüququnun yaranmasına şərait yaradacaq;

25. 01.01.2006-cı il tarixədək vətəndaşlara Qanunun 22.1-ci maddəsinə əsasən sığorta stajının hesablanması sonrakı dövrlərdə sığorta prinsiplərinə əsaslanmayan baza əsasında yaşa görə pensiyaçıların sayının artmasına da şərait yaradacaqdır ki, bu da Fondun pensiya ödənişi üzrə xərclərinin artmasında və bununla da onun büdcəsinin maliyyə dayanıqlılığına təsirində ifadə olunacaqdır;

26. Sığorta ödəmələrini qısa müddətdə etməklə pensiya hüququ verən sığorta stajını "qazanan" və ya sığorta stajının az olması səbəbindən az məbləğdə pensiya alan pensiyaçıların pensiya məbləğlərinin 200,0 manata çatdırılması 01.01.2006-cı il tarixədək bütün əmək qabiliyyətli yaş dövründə işləyərək sosial sığorta haqqı ödəmiş, lakin pensiya məbləği az olan pensiyaçıların aldıqları məbləğ baxımından fərqlilik yaratmışdır;

27. Müvafiq statistik məlumatlara əsasən yaşa görə əmək pensiyası təyin edilmiş işləyən pensiyaçıların orta aylıq pensiya məbləğləri 01.01.2017-ci il tarixə 220,41 manat, 01.07.2017-ci il tarixə 232,35 manat və ya ilin əvvəlinə nisbətən 11,94 manat (5,4%) çox, 01.01.2018-ci il tarixə 265,79 manat və ya 2017-ci ilin əvvəlinə nisbətən 45,38 manat (20,6%) çox, 01.01.2019-cu il tarixə 288,31 manat və ya 2017-ci ilin müvafiq dövrünə nisbətən 67,9 manat (30,8%) çox olmuşdur ki, bu da ümumi pensiya xərclərinə təsirsiz ötüşməmişdir;

28. Keçmiş dövrlərə görə ödəmələr kreditor borc kimi uçota alınmır ki, bu da Fondun pensiya ödənişi üzrə xərclərinin hesablanması zamanı öhdəliklərin də nəzərə alınmasına və daha dəqiq proqnozlaşdırılmanın aparılmasına maneə yaradır;

29. Əvvəlki dövrlərdə yaranmış pensiya hüquqları üzrə ödəmələr Fondun büdcəsi üçün əlavə maliyyə yükü yaradır ki, həmin məbləğlərin birdəfəlik deyil, hissə-hissə ödənilməsi bu yükün gələcək dövrlərdə bölüşdürülməsi, nəticədə də Fondun büdcəsinin daha qısa müddətdə məruz qala biləcəyi birdəfəlik maliyyə təsirlərinin daha uzun müddətdə hissə-hissə qarşılanması anlamına gəlir;

30. Müvafiq göstəricilərə əsasən 2020-ci ildə pensiyaların ödənilməsi xərclərinin ÜDM-ə nisbətinin 5,5% olacağı proqnozlaşdırılır;

31. Sığortaolunanların fərdi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalının ildə bir dəfə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunan istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən indeksləşdiriləcəyi nəzərdə tutulmuşdur ki, bu da son dövrlərdə əmək haqlarının nəzərəçarpacaq artım tempinin istehlak qiymətləri indeksinin artım tempini üstələdiyi şəraitdə fərdi hesabın sığorta hissəsində qeydə alınan pensiya kapitalının nisbətən aşağı səviyyəli artımına şərait yaratmaqla gələcəkdə pensiya təminatı sisteminin maliyyə yükünün nisbətən azalmasına xidmət edir;

32. Minimum pensiya məbləğinin 01.10.2019-cu il tarixdən 200,0 manata qaldırılmasının əlilliyə görə pensiya alanların sayının daha da azalmasına şərait yaradacağı ehtimal olunandır;

33. Müvafiq hesabat forması üzrə hesablamalara əsasən 2019-cu ilin I yarısının yekunlarına görə hərəkətdə olan pensiya işləri üzrə cəmi xərclənmiş vəsaitin 65,3%-i yaşa görə, 25,9%-i əlilliyə görə, 8,8%-i isə ailə başçısının itirilməsinə görə pensiyaların ödənilməsinə xərclənmişdir ki, bu da dünya praktikasına əsasən müəyyən edilmiş göstəricilərdən, yəni yaşa görə pensiya növü üzrə ümumi xərclərin 75,0%-i, əlilliyə görə 15,0%-i, ailə başçısının itirilməsinə görə 10,0%-i göstəricisindən fərqlənir;

34. Pensiyanın minimum məbləğinin artırılaraq 200,0 manata çatdırılmasının əlilliyə görə təyin edilən pensiya işllərinin sayına mənfi təsirini proqnozlaşdırmaq olar ki, bu da qeyd edilən pensiya növü üzrə say göstəricisinin son dövrlərdə artım tendensiyasının qarşısının alınması və Hesablama Palatasının əvvəlki illərdəki müvafiq rəylərində bu istiqamətdə tövsiyələrinin nəzərə alınması, eləsə də erkən pensiyaya çıxma hallarının məhdudlaşdırılmasına dair Konsepsiyanın tələbləri baxımından təqdirəlayiq haldır;

35. 01.07.2019-cu il tarixə pensiyanın orta aylıq məbləği ilin əvvəlinə nisbətən 10,9 manat və ya 4,9% (o cümlədən, yaşa görə pensiya növü üzrə 10,0 manat və ya 4,0%, əlilliyə görə pensiya növü üzrə 12,7 manat və ya 6,8% və ailə başçısının itirilməsinə görə pensiya növü üzrə 12,5 manat və ya 5,6%) artmışdır ki, bu da həm minimum pensiya məbləğinin artımı, həm də pensiyaların sığorta hissəsinin ölkə üzrə orta aylıq nominal əmək haqqının illik artım tempinə uyğun olaraq indeksləşdirilməsi, eləcə də pensiyalarının yenidən hesablanması ilə izah oluna bilər;

36. Minimum və orta aylıq pensiya məbləğlərinin gələn il pensiyaçıların yaşayış minimumunun məbləğini nəzərəçarpacaq dərəcədə üstələyəcəyi proqnozlaşdırılır ki, bu da pensiyaçıların sosial müdafiəsi baxımından təqdirəlayiq hal kimi qiymətləndirilə bilər;

37. Statistik məlumatlara əsasən münasiblik əmsalının, başqa sözlə, 65 və daha yuxarı yaşlı əhalinin sayının pensiyaçıların ümumi sayında xüsusi çəkisinin artması tendensiyası davam etmişdir. Münasiblik əmsalının artımı bir tərəfdən əmək pensiyasını daha yuxarı yaşlı əhalinin alması, digər tərəfdən ÜDM-in formalaşmasında iştirak etməyən pensiyaçıların sayının da artması deməkdir;

38. Gələn il orta aylıq pensiya məbləğinin orta aylıq əmək haqqı məbləğinə nisbəti (əvəzləmə əmsalı) artma tendensiyası davam edəcəkdir və bu göstəricinin böyüməsi vətəndaşların pensiyaya çıxdıqdan sonra itirdikləri əmək haqlarının daha çox hissəsinin kompensasiya olunması anlamına gəlsə də, pensiya xərclərinin maliyyələşdirilməsi üçün tələb olunan və MDSSH qismində əmək haqlarından formalaşan gəlirlərin səviyyəsinin nisbətdə azalması və tədricən həmin xərclərin ödənilməsi üçün kifayət etməməsi təhlükəsini yaradır;

39. İş yerlərinin sayının artması fonunda əmək pensiyaçılarının sayının azalması son dövrlərdə əmək pensiyaçılarının sayının muzdlu işdə çalışanların sayına nisbətinin də dəyişməsinə səbəb olmuş, müvafiq statistik məlumatlara əsasən 2017-ci və 2018-ci illərdə 1 nəfər pensiyaçıya orta hesabla 2,4 nəfər muzdlu işlə məşğul olan düşmuş, gələn il isə 2,5 nəfər düşəcəyi (3218 min nəfər/1297 min nəfər) proqnozlaşdırılmışdır;

40. Müvafiq hesabatlara əsasən ümumi əmək haqqı fondunun məcburi dövlət sosial sığortasına cəlb edilməyən təxmini 11,0%-lik hissəsini də nəzərə aldıqda qeyd edilənlər MDSSH-larının artıqlığını və Fondun büdcəsinin maliyyə dayanıqlılığının möhkəmlənməsini ehtimal etməyə əsas verir;

41. İşləyən pensiyaçıların xüsusi çəkisi son dövrlərdə artım dinamikasına malik olmuşdur ki, bu da işləyən pensiyaçıların aldıqları pensiya məbləğlərinin ödənilməsində özlərinin ödədikləri MDSSH-nın da iştirakı baxımından məqsədəmüvafiqdir;

42. 2020-ci ildə MDSSH hesabına ödənilən müavinətlərin maliyyələşdirilməsi üçün Fondun ümumi xərclərinin 2,4%-i qədər və ya 114,6 mln. manat vəsait nəzərdə tutulmuşdur ki, bu da 2018-ci il üzrə müvafiq icra göstəricisindən 33,2 mln. manat və ya 40,8%, 2019-cu ilin proqnoz göstəricisindən isə 12,6 mln. manat və ya 12,3% çoxdur;

43. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlər üzrə 28,0 mln. manat vəsait nəzərdə tutulmuşdur ki, bu da müavinətlər üzrə xərclərin 24,4%-i qədər olmaqla 2018-ci il üzrə müvafiq icra göstəricisindən 2,5 mln. manat və ya 7,7%, 2019-cu ilin müvafiq proqnoz göstəricisindən isə 2,0 mln. manat və ya 7,7% çoxdur;

44. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlər üzrə xərclərin artım səviyyəsi həm Fondun ümumi xərclərinin 16,9%-lik artım səviyyəsindən, həm də həmin

müavinət növü ilə bağlı olan orta aylıq əmək haqqının gələn il üçün proqnozlaşdırılan 15,5%-lik artım səviyyəsindən xeyli geri qalır ki, bu da əmək haqlarının artırıldığı şəraitdə bu müavinət növü üzrə ilin sonunadək daha çox vəsaitə ehtiyac olacağını ehtimal etməyə imkan verir;

45. Hamiləliyə və doğuma görə müavinətin maliyyələşdirilməsi məqsədilə 2020-ci ildə 34,0 mln. manat və ya müavinətlər üzrə xərclərin 29,7%-i qədər vəsait nəzərdə tutulmuşdur ki, bu da 2018-ci ilin müvafiq icra göstəricisindən 8,6 mln. manat və ya 33,7%, 2019-cu ilin proqnoz göstəricisindən isə 2,1 mln manat və ya 6,4% çoxdur;

46. 2020-ci ildə uşağın anadan olmasına görə müavinətin ödənilməsi üçün 14,9 mln. manat və ya müavinətlər üzrə xərclərin 13,0%-i qədər vəsait nəzərdə tutulmuşdur ki, bu da 2018-ci ilin müvafiq icra göstəricisindən 9,6 mln. manat və ya 2,8 dəfə, 2019-cu ilin proqnoz göstəricisindən isə 5,4 mln. manat və ya 56,8% çoxdur;

47. Müavinətlər üzrə ən nəzərəçarpan artım uşağın anadan olmasına görə müavinət növü üzrə proqnozlaşdırılmış, digər müavinət növləri üzrə daha aşağı səviyyəli artım şəraitində qeyd edilən müavinət növü üzrə artım bütövlükdə Müavinətlər üzrə xərclərin 12,3%-lik artımını şərtləndirmişdir. Əvvəlki dövrlərin icra göstəriciləri bü müavinət növü üzrə proqnoz məbləğinin daha yüksək səviyyədə olduğunu deməyə əsas verir;

48. 3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar müavinətlərin ödənilməsi üçün 2020-ci ildə 14,5 mln. manat və ya Müavinətlər üzrə xərclərin 12,7%-i qədər vəsait nəzərdə tutulmuşdur ki, bu da 2018-ci ilin müvafiq icra göstəricisindən 3,5 mln. manat və ya 31,3%, 2019-cu ilin müvafiq proqnoz göstəricisindən isə 1,1 mln. manat və ya 8,2% çoxdur;

49. 3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar bu müavinət növü üzrə də aşağı səviyyəli artım proqnozlaşdırılmışdır, Bununla belə, əvvəlki dövrlərin müvafiq icra göstəriciləri bü müavinət növü üzrə də daha az vəsait xərclənəcəyini ehtimal etməyə imkan verir;

50. Dəfn üçün müavinətlərin ödənilməsi üçün 23,2 mln. manat və ya Müavinətlər üzrə xərclərin 20,2%-i qədər vəsait nəzərdə tutulmuşdur ki, bu da 2018-ci ilin müvafiq icra göstəricisindən 9,1 mln. manat və ya 64,3%, 2019-cu ilin müvafiq proqnoz göstəricisindən isə 2,0 mln. manat və ya 9,4% çoxdur;

51. Minimum pensiya məbləğinin 01.03.2019-cu il tarixdən 160,0 manata çatdırılması, 01.10.2019-cu il tarixdən isə 200,0 manata çatdırılmasının, yəni 25,0% artırılmasının nəzərdə tutulduğu şəraitdə dəfn üçün müavinət növü üzrə daha aşağı səviyyəli artımın proqnozlaşdırılması proqnozlaşdırılan vəsaitin yetərli olmayacağını deməyə əsas verir;

52. Əvvəlki illərdən fərqli olaraq, pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərcləri ayrılıqda deyil, “”DOST” Agentliyinin fəaliyyətinin

maliyyələşdirilməsi xərcləri ilə birgə verilmişdir. Qeyd edilməlidir ki, cari il üzrə müvafiq sənəddə həmin xərclər Fondun aparatının və onun yerli orqanlarının saxlanılması xərcləri ilə bir yerdə nəzərə alınmışdır;

53. "DOST" Agentliyinin fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri, eləcə də pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərcləri üzrə 2020-ci ildə 33,9 mln. manat və ya Fondun ümumi xərclərinin 0,7%-i qədər vəsaitin xərclənməsi nəzərdə tutulmuşdur ki, bu da 2018-ci ilin müvafiq icra göstəricisindən 14,0 mln. manat və ya 70,6%, 2019-cu ilin proqnoz göstəricisindən isə 10,9 mln. manat və ya 47,4% çoxdur;

54. Pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərclərinin artım səviyyəsi həmin xərclərin əlaqəli olduğu pensiya xərclərinin 16,6%-lik artım səviyyəsindən dəfələrlə geri qalır;

55. 2020-ci ildə Fondun mərkəzi aparatının və onun yerli orqanlarının saxnılması xərclərinin 84,8 mln. manat və ya Fondun ümumi xərclərinin 1,8%-i qədər olacağı nəzərdə tutulmuşdur ki, bu da 2018-ci ilin müvafiq icra göstəricisindən 49,4 mln. manat və ya 2,4 dəfə, 2019-cu ilin proqnoz göstəricisindən isə 21,8 mln. manat və ya 34,6% çoxdur.

Göstərilən məlumatlara və nəticələrə əsaslanaraq Hesablama Palatası aşağıdakıları **tövsiyə** edir:

1. Daha ətraflı araşdırma və təhlillərin aparılması məqsədilə, eləcə də müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq Fond tərəfindən Qanun layihəsini dəstəkləyən sənədlərin məlumatlılıq səviyyəsinin yüksəldilməsini;

2. büdcədənkənar dövlət fondlarının növbəti il üçün büdcələrinin qanunla təsdiq edildiyini nəzərə alaraq ölkədə dövlət vəsaitləri üzərində hesabatlılığın tamlığının təmin edilməsi, maliyyə inzibatçılığının gücləndirilməsi, həmçinin "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin icrasına şəraitin yaradılması məqsədilə büdcədənkənar dövlət fondlarının büdcələrinin icrasının, dövlət büdcəsində olduğu kimi, Qanunla təsdiq edilməsini;

3. Xərclərin müvafiq öhdəliklərə uyğun olmaqla həyata keçirilməsi və xərclərin icrası nəzarət fəaliyyətinin aparılması baxımından Qanun layihəsində pensiyaların ödənilməsi xərclərinin Fondun büdcəsinin öhdəlikləri üzrə xərclər və dövlət büdcəsinin öhdəlikləri üzrə xərclər qismində təsnifləşdirilməsini;

3. Məcburi dövlət sosial sığortası sahəsində inzibatçılıq və idarəetmə fəaliyyətinin daha da gücləndirilməsi, eləcə də bu istiqamətdə Fond və Vergilər Nazirliyi arasında əlaqələndirmə

və məlumat mübadiləsinin daha da genişləndirilməsi məqsədilə müvafiq tədbirlərin görülməsini;

4. Cari ilin sonuna mövcud qalıq məbləğinin Fondun gəlirləri qismində nəzərə alınması, həmin vəsaitin təsdiq edilmiş göstəricilərdən çox olmamaq şərti ilə xərclərin maliyyələşdirilməsinə yönəldilməsi ilə bağlı Qanun layihəsinə müvafiq əlavələrin edilməsini;

5. Sanatoriya-kurort yollayışlarının satışından daxilolma məbləği üzrə Fondun və AHİK-in məlumatları arasında uyğunluğun təmin edilməsi və müvafiq potensialın dəqiq müəyyənləşdirilərək həmin potensialdan tam istifadənin təmin edilməsi istiqamətində tədbirlərin görülməsini;

6. Fondun büdcəsinin maliyyə dayanıqlılığının artırılması, öz xərclərini öz gəlirləri hesabına ödəmə qabiliyyəti və hətta gəlirlərin xərclərdən artıq hissəsindən məqsədli istifadə baxımından müvafiq büdcələrin öhdəliklərinin dəqiq müəyyənləşdirilməsi və maliyyələşdirmənin də həmin öhdəliklərə müvafiq həyata keçirilməsi, bununla da Konsepsiyanın tələblərinə əməl edilməsi istiqamətində tədbirlərin görülməsini;

7. Konsepsiyanın sığorta prinsiplərinə əsaslanmayan xərclərin minimum səviyyəyə endirilməklə maliyyələşdirilməsi mənbələrinin optimallaşdırılması, pensiya təyinatı şərtlərinin hər bir şəxs üzrə ödənilən sosial sığorta haqqının məbləğinə uyğunlaşdırılması kimi tələblərinin yerinə yetirilməsi istiqamətində tədbirlərin görülməsini;

8. Əhaliyə ödənişlər üzrə maliyyə yükünün və maliyyələşdirmə mənbələrinin dəqiq müəyyənləşdirilməsi istiqamətində fəaliyyətin gücləndirilməsini;

9. Sosial sığorta, bərabərlik və sosial ədalət prinsipləri baxımından pensiyanın minimum məbləğinin qaldırılması əsasında minimum pensiya məbləğindən çox olan pensiya məbləğlərinin də yenidən hesablanması məsələsinə baxılması istiqamətində tədbirlərin görülməsini;

10. Keçmiş dövrlərdə yaranmış pensiya hüquqları üzrə pensiyaçılara ödənilməli olan vəsaitlərin hesablanması və ödənilməsi məsələlərinə yenidən baxılmasını;

11. Tələb olunan vəsaitlərin daha dəqiq proqnozlaşdırılmasının təmin edilməsi məqsədilə pensiyaçılara keçmiş dövrlər üzrə gələcək dövrlərdə ödəniləcək vəsaitlərin məbləğinin kreditor borc kimi uçota alınmasını;

12. Vətəndaşlara əlillik dərəcəsinin verilməsi fəaliyyətinin Nazirlik tərəfindən daimi nəzarətdə saxlanılmasının, saxta əlillik dərəcələrinin verilməsi hallarının qarşısının alınması və belə halların aşkar edilərək nöqsanların aradan qaldırılması istiqamətində fəaliyyətin davam etdirilməsini, eləcə də bu pensiya növü üzrə əsassız ödəmələrin qarşısının alınması baxımından müvafiq xərclərin azalma potensialından istifadə edilməsini;

13. Pensiya Alt Sisteminin digər müvafiq alt-sistemlər və məlumat bazalarına inteqrasiyasının və qarşılıqlı əlaqələndirmənin gücləndirilməsi ilə mövcud nöqsanların aradan qaldırılması istiqamətində zəruri tədbirlərin görülməsini;

14. Fondun yerli orqanları tərəfindən əmək pensiyalarının təyinatı, yenidən hesablanması və ödənilməsi sahəsində müvafiq qanunvericiliyin tələblərinin tam yerinə yetirilməsi məqsədilə maarifləndirmə və nəzarət fəaliyyətinin gücləndirilməsi istiqamətində zəruri tədbirlərin görülməsini;

15. MDSSH hesabına ödənilən müavinətlər üzrə əvvəlki dövrlərin icra göstəriciləri, həmçinin orta aylıq əmək haqqının, Fondun xərclərinin artım göstəriciləri əsasında Qanun layihəsindəki proqnoz göstəricilərinin bir daha dəqiqləşdirilməsini, daha əsaslı yanaşmanın tətbiqi ilə xərclərin azalma potensialından istifadənin təmin edilməsini;

16. “DOST” Agentliyinin saxlanılması xərclərinin Fondun xərclərinə aid edildiyi şəraitdə onun fəaliyyətinin müştərək maliyyələşdirilməsi üçün zəruri olan normativ-metodiki bazanın, metodologiya və prosedurların işlənib hazırlanmasını.

**Azərbaycan Respublikasının Hesablama Palatası hesab edir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilmiş Qanun layihəsi ölkə qanunvericiliyinin tələblərinə uyğun hazırlanmaqla sosial və büdcə siyasətinin ümumi məqsədlərinə, Azərbaycan Respublikasının büdcə sistemi prinsiplərinə (vahidlik və müstəqillik) müvafiqdir.**

**Yuxarıda qeyd olunanları nəzərə alaraq, Qanun layihəsinin Azərbaycan Respublikasının Milli Məclisində müzakirə edilməsi tövsiyə olunur.**

**Rəy Hesablama Palatası Kollegiyasının 30 oktyabr tarixli Q-141 nömrəli Qərarı ilə təsdiq edilmişdir**.

**AZƏRBAYCAN RESPUBLİKASI**
**HESABLAMA PALATASININ**
**SƏDRİ** **VÜQAR GÜLMƏMMƏDOV**